RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 196 (9363) 12 SENTYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Azərbaycan həqiqətləri və erməni yalanları



**44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın böyük qələbəsi ilə başa çatan və sonuncu fazasına daxil olan bu mübarizə və münaqişə yalanın dəstəkçiləri sayəsində hələ də son nöqtəsinə çatmayıb.**

Baş verən son mühüm dəyişikliklər, mübarizə və müharibə edən tərəflərin güc nisbəti, yeni reallıqlar, Azərbaycan Prezidentinin qəti, prinsipial və ədalətli mövqeyi separatçıların lap az zaman kəsiyində tam cilovlanacağından, Xankəndidə tezliklə üçrəngli bayrağımızın dalğalanacağından xəbər verir!

❖❖❖

**İki əsrdir ki, iki dövlət qarşı-qarşıyadır.**

*Bir tərəfdə qədim tarixə, zəngin mədəniyyətə, çoxsaylı tarixi, dini, mədəni abidələrə, milli və mənəvi dəyərlərə, hətta özünəxas musiqiyə və mətbəxə malik Azərbaycan!*

Digər tərəfdə türk dünyasına qarşı Azərbaycan torpaqlarında süni şəkildə yaradılan, özünə saxta tarix, qondarma, oğurluq "tarixi" və "dini abidələr" yaradan, mədəniyyət, musiqi, hətta mətbəx oğurluğu ilə məşğul olan, alət dövlət və millət sayılan Hayastan.

*Bir tərəfdə beynəlxalq hüquqa, haqqa-ədalətə söykənən, öz ərazisini qəhrəmanlıqla, şəhidlər verməklə, hətta bəzən yalın əllə qoruyan Azərbaycan!*

*Digər tərəfdə saxta göz yaşları tökən, özünü "məzlum", "zavallı" millət kimi qələmə verən yalançı, əslində isə Xocalı soyqırımını törətməyə qadir vəhşi, barbar, arxalı Hayastan.*

**Əslində, bu mübarizə düzlə əyrinin, həqiqətlə yalanın, doğru ilə saxtakarlığın çarpışmasıdır!**

**Ədaləti, həqiqəti, doğrunu məğlub etmək olar, məhv etmək yox!**

Sonda qələbə yenə də onunku olur!

Bunu həm də bəşəri təcrübə, tarixi faktlar göstərir!

Necə ki göstərdi!

→ 3

## Dövlət başçıları Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti müzakirə ediblər

**Sentyabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında dövlət başçıları regional məsələləri, həmçinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti müzakirə ediblər.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***



## Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin dərinləşdirilməsinə əminlik ifadə olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də ölkəmizdə səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul edib. Görüşün videokonfrans formatında keçirilməsinə səbəb İsrail nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ikitərəfli münasibətlərimizə toxunularaq, İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun bu ilin mayında Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi bildirildi. Bir neçə gün əvvəl Azərbaycan Prezidentinin köməkçisinin İsrailə səfəri qeyd olundu, ölkəmizin İsraildə səfirliyinin açılmasının əhəmiyyəti vurğulandı.

Görüşdə kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafından və bununla bağlı təcrübə mübadiləsinin həyata keçirilməsindən məmnunluq ifadə edildi, bu sahədə əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi.

Avi Dixterin səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

## Azərbaycan Argentinaya nota verib

**Argentinanın ölkəmizdəki səfiri Marianxeles Belluşi sentyabrın 11-də Azərbaycanın Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Argentina Prezidenti Alberto Fernandesin cari ilin sentyabrın 10-da Yeni Dehli şəhərində G20 Sammiti zamanı ölkəmizə qarşı qərəzli fikirlər səsləndirməsi ilə bağlı XİN-in etiraz notası Argentina səfirinə təqdim edilib.

Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasına əsaslanaraq bölgədəki reallıqları təhrif edən, suverenliyimizə və ərazi bütövlüyümüzə qarşı terminalogiyanın əks olunduğu bu kimi əsassız fikirlərin səsləndirilməsinin təəssüf doğurduğu bildirilib.

Azərbaycan tərəfindən erməni sakinlərin ehtiyaclarının qarşılanması məqsədilə alternativ yollardan, o cümlədən Ağdam-Xankəndi yolundan istifadə təklifləri, göndərilən ərzaq məhsullarının hələ də qəbul edilməməsi, vəziyyətin Ermənistanın iddia etdiyi kimi humanitar deyil, siyasi xarakter daşıdığını nümayiş etdirdiyi bildirilib.

Bu xüsusda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı olan bəyanatlardan çəkinilməsinin vacib olduğu Argentina tərəfinin diqqətinə çatdırılıb.

## Xalqımıza qarşı törədilmiş cinayətlərlə bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir

Qubadlı rayonunun Məlikəhmədli kəndində və Zəngilan rayonunun Vejnəli kəndində Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan insan meyitinin qalıqları ekshumasiya edilib, həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi kriminalistik və məhkəmə molekulyar-genetik ekspertizaları təyin edilərək icraya yönəldilib və digər zəruri hərəkətlər yerinə yetirilib.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun Mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, Ermənistanın silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan, müharibə, terrorçuluq, qəsdən adamöldürmə və digər cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 103-cü (Soyqırımı), 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 120.2.12-ci (Milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adamöldürmə) və digər maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qanunvericiliyin və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin ediləcək.

## "TRT World" telekanalı Qarabağa Böyük qayıdışla bağlı veriliş yayımlayıb

"TRT World" telekanalı Azərbaycanın Qarabağ bölgəsində aparılan bərpa və quruculuq işlərinə həsr olunmuş "Böyük Qayıdış: Qarabağ" adlı veriliş yayımlayıb.

AZƏRTAC xəbər verir ki, regiona səfər edən telekanalın müxbiri Oubay Şahbandarın təqdimatında hazırlanan verilişdə Qarabağda işğalın ağır nəticələri, mədəni irsin məhvi, baxımsızlıq və məqsədyönlü dağıdılma nəticəsində yerlə yeksan edilən şəhərlərin indi - 30 illik işğaldan sonra necə canlandığı nümayiş etdirilib.

→ 5

## Rumıniya Qarabağda keçirilən qondarma seçkiləri tanımır

Rumıniya Qarabağ bölgəsində keçirilən qondarma prezident seçkilərini tanımır. Bu barədə Rumıniya Xarici İşlər Nazirliyi bəyanatla çıxış edib. Bəyanat qurumun rəsmi internet səhifəsində də yayılıb.

Bəyanatda bildirilir ki, Rumıniyanın Xarici İşlər Nazirliyi Qarabağ bölgəsində keçirilən qondarma "prezident seçkiləri"ni tanımır. XİN Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünü tam dəstəklədiyini bir daha bəyan edir və regiondakı bütün məsələlərin beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq siyasi yolla həllinin tərəfdarıdır.

## *ABŞ Dövlət Departamenti:*
## "Qarabağdakı qondarma "prezident seçkiləri"ni tanımırıq"

Biz ötən həftə də bəyan etdik ki, Qarabağı müstəqil və suveren ölkə kimi tanımırıq, eyni zamanda orada keçirilən qondarma "prezident seçkiləri"ni də tanımırıq.

AZƏRTAC xəbər verir ki, bunu ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller mətbuat üçün brifinqində deyib.

Dövlət Departamentinin mətbuat katibi bildirib ki, ABŞ Dövlət katibi Entoni Blinken tərəfləri gərginlik yaradacaq addımlardan çəkinməyə və dialoqa çağırıb.

Metyu Miller vurğulayıb ki, rəsmi Bakı ilə İrəvan arasında dialoq vacibdir: "ABŞ Azərbaycan və Ermənistan arasında həll olunmamış məsələlərin həlli istiqamətində səyləri, birbaşa dialoqu davamlı şəkildə dəstəkləyir".

## Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi humanitar yük avtomobili hələ də Bərdədə gözləyir

Rusiya hökumətinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Rusiya Qırmızı Xaç Cəmiyyətinin birgə əməkdaşlıq memorandumuna əsasən, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin ərzağa olan ehtiyaclarının qarşılanması məqsədilə Rusiya Qırmızı Xaç Cəmiyyəti tərəfindən göndərilən humanitar yük ikinci gündür Bərdə şəhərində gözləyir.




AZƏRTAC xəbər verir ki, ərzaq və qeyri-ərzaq məhsulları yüklənmiş TIR-ın Bərdə-Ağdam, Ağdam-Xankəndi yolu ilə Qarabağda yaşayan ermənəsilli şəxslərə çatdırılması nəzərdə tutulsa da, yük avtomobili hələ də Bərdədən yola düşməyib.

Qeyd edək ki, Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi humanitar yük avtomobilinin sentyabrın 10-da Ağdama çatması nəzərdə tutulurdu. Lakin Beynəlxalq Qırmızı Xaç Komitəsinin Rusiya Qırmızı Xaç Cəmiyyətinə təzyiqi nəticəsində humanitar yük Bərdə şəhərində ləngiyib. Bu isə o deməkdir ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi üzdə məsələni dəstəkləyən kimi görünsə də, arxa planda süni şəkildə onu əngəlləyir və Rusiyanın Qırmızı Xaç Komitəsinə təzyiqlər göstərir.

# İsmayıllı rayonunda əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində regionlarda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı layihələrin uğurlu icrası nəticəsində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. İsmayıllı rayonunun İvanovka, Uştal, Qalagah, Soltankənd, Hacıhətəmli, Ruşan, Vəng, Mollaisaqlı və Mücühəftəran kəndlərində yaşayan on bir min nəfər əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə Göyçay çayından çəkilmiş magistral su kəmərinin və kəndlərin daxili su şəbəkələrinin yenidən qurulması üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 12,0 (on iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən magistral su kəmərinin bərpasının başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 sentyabr 2023-cü il*

# Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "seçkilər" adlandırdığı qanunsuz fəaliyyət barədə beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar

Sentyabrın 11-də Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin sentyabrın 9-da keçirilmiş "seçkilər" adlı qanunsuz fəaliyyəti barədə beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müraciətdə Ermənistanın Azərbaycanın Qarabağ bölgəsində yaratdığı qondarma rejimin "prezident seçkiləri" adı altında apardığı qanunsuz fəaliyyətin Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozduğu bildirilir. Separatçı qondarma rejimin Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində 30 ilə yaxın müddətdə davam etmiş təcavüz və etnik təmizləmə siyasətinin birbaşa nəticəsi olduğu, bu rejimin mövcudluğunun Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi sayəsində mümkün olduğu vurğulanır.

Bildirilir ki, 2020-ci ildə münaqişənin başa çatmasından sonra Azərbaycanın qətiyyətlə irəli sürdüyü sülh təşəbbüsü fonunda Ermənistanın son təxribatçı və təhrikedici fəaliyyəti bölgədə normallaşma və etnik erməni sakinlərin Azərbaycan Respublikasının konstitusion çərçivəsinə reinteqrasiya səylərinə ciddi zərbədir.

Qeyd olunur ki, qondarma "seçkilər"in keçirilməsi bir daha aydın şəkildə göstərir ki, Ermənistan və onun yaratdığı qondarma rejim sülh prosesində həqiqətən maraqlı deyil. Bundan başqa, Ermənistanın Azərbaycanın öz suveren ərazisində yaşayan etnik ermənilər ilə dialoquna mane olması ölkəmizin daxili işlərinə kobud müdaxilə, onun suverenliyinə və ərazi bütövlüyünə qarşı ciddi təhdiddir.

Müraciətin sonunda deputatlarımız həmkarlarını Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönələn addımlara düzgün siyasi qiymət verməyə və qeyd olunan qondarma "seçki" adlandırılan qanunsuz fəaliyyəti qətiyyətlə pisləməyə çağırıblar.

***"Azərbaycan"***

# 160 nəfər birinci sinif şagirdi məktəbli ləvazimatları ilə təmin edilib

Sentyabrın 11-də Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Bakının Nərimanov rayonunda yeni tədris ili ərəfəsində təhsil ictimaiyyəti ilə görüş keçirib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Vətən uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Vitse-spiker Adil Əliyev çıxışında bildirib ki, uşaqlarımızın həvəslə məktəbə hazırlaşdıqlarını görmək hər birimizi sevindirir. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Uşaqlar bizim gələcəyimizdir". Bizim borcumuz uşaqlarımızı təhsilli, savadlı, vətənpərvər ruhda böyütmək, milli-mənəvi dəyərlərimizi onlara aşılamaqdır.

O diqqətə çatdırıb ki, bu gün uşaqlarımızın təhsilə, məktəbə böyük həvəs göstərməsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin elm, təhsil və gənclər sahəsində yürütdüyü uğurlu siyasətin bəhrəsidir. Uşaqlarımızın xoşbəxt və uğurlu gələcəyinin açarı məhz təhsildə, elmdədir. Uşaqlara oxumaq, təhsil almaq, savadlı olmaq kimi bacarıqların erkən yaşlarından təbliğ edilməsinin zəruriliyinə toxunan sədr müavini dövlətin təhsil sahəsinə böyük vəsaitlər sərf etdiyini, hər il yeni məktəblərin tikildiyini, əsaslı təmir edildiyini bildirib. Vitse-spiker deyib ki, Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən icra olunan "Yenilənən Azərbaycana yeni məktəb" və digər layihələr təhsilimizə əvəzsiz töhfələr verir.

Daha sonra tədbirdə 160 nəfər birinci sinif şagirdinə vitse-spiker Adil Əliyev tərəfindən məktəbli formaları, çantalar və digər məktəbli ləvazimatları hədiyyə edilib, onlara təhsil həyatında nailiyyətlər arzulanıb. Tədbirdə çıxış edən Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev və ictimaiyyət nümayəndələri şagirdləri təbrik ediblər.

Daha sonra çıxış edən müəllimlər, valideynlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

***"Azərbaycan"***

# Rəqabət Məcəlləsinin layihəsi Milli Məclisə daxil olub

Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə Rəqabət Məcəlləsinin layihəsi daxil olub. Rəqabət Məcəlləsinin layihəsi 12 fəsil 83 maddədən ibarətdir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məcəllənin qəbulu ilə "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında", "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunları və digər hüquqi aktlar yeni, vahid hüquqi sənəddə birləşdirilmiş olacaq. Məcəllə hazırlanarkən müxtəlif dövlət orqanları, habelə biznes assosiasiyaları ilə geniş müzakirələr aparılıb, onların rəy və təklifləri nəzərə alınıb. Layihə Türkiyə, ABŞ, Avropa İttifaqı, Almaniya, Avstriya, Latviya, Litva, Macarıstan və Çexiya qanunvericilikləri başda olmaqla, qabaqcıl beynəlxalq təcrübə, həmçinin yerli bazarın xüsusiyyətləri nəzərə alınmaqla ərsəyə gətirilib.

Rəqabət Məcəlləsinin qəbul olunması ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb etməklə, ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarını müəyyən edəcək. Yeni məcəllə eyni zamanda istehlakçıların hüquqlarının müdafiəsini, məhsul və xidmətlərin keyfiyyətinin daha da artırılmasını hədəfləyir.

Milli Məclisdə Rəqabət Məcəlləsi layihəsinin ictimai dinləməsi keçiriləcək. Dinləməyə bütün maraqlı tərəflərin nümayəndələri dəvət olunacaq.

***"Azərbaycan"***

# Hərbi pilotların peşəkarlığı artırılır

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri təlim-məşq uçuşlarını icra ediblər.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, hava kəşfiyyatının aparılması, eləcə də plana uyğun olaraq digər fəaliyyətlər yüksək peşəkarlıqla icra olunub.

Qeyd edək ki, hərbi pilotların döyüş vərdişlərinin təkmilləşdirilməsi və peşəkarlığının artırılması məqsədilə keçirilən təlimlər davam edir.

# Milli Məclisin Sədri Sahibə Qafarova Bolqarıstan Respublikasına rəsmi səfərə gedib

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 11-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərinə rəsmi səfərə gedib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinə Milli Məclisin deputatları - Bolqarıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rauf Əliyev, Aqil Məmmədov, Anatoliy Rafailov, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər.

Sofiya beynəlxalq hava limanında nümayəndə heyətini Bolqarıstan Respublikası Milli Assambleyası Sədrinin müavini Filiz Husmenova, parlamentin Azərbaycanla dostluq qrupunun rəhbəri Hamid Hamid, Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov, Bolqarıstanın Azərbaycandakı səfiri Ruslan Stoyanov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclis Sədrinin ölkə rəhbərliyi ilə bir sıra görüşləri nəzərdə tutulub.

***"Azərbaycan"***

# Ankarada Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlər müzakirə olunub





Qardaş ölkədə rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbri ziyarət edib. Azərbaycan nümayəndə heyəti məzar önünə əklil qoyaraq xatirəsini ehtiramla anıb. Baş Qərargah rəisi xatirə kitabına ürək sözlərini yazıb.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, sonra general-polkovnik K.Vəliyev türkiyəli həmkarı ilə görüşüb. Əvvəlcə təntənəli qarşılama mərasimi olub. Hər iki ölkənin Baş Qərargah rəisləri fəxri qarovulun önündən keçiblər, Dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq şərəf kitabı imzalanıb. Rəsmi qarşılanma mərasimindən sonra Baş Qərargah rəislərinin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Türkiyənin Baş Qərargah rəisi qonaqlara ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Ordu generalı M.Gürak iki qardaş ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin və belə görüşlərin vacibliyini xüsusi vurğulayıb.

General-polkovnik K.Vəliyev türkiyəli həmkarına dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Baş Qərargah rəisi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışıb.

Ölkələrimiz arasında uğurla inkişaf edən əməkdaşlığın qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığı xüsusi qeyd olunub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin fəaliyyəti barədə brifinq təqdim olunub.

# Baş Qərargah rəisi Türkiyənin milli müdafiə naziri ilə görüşüb






Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Ankara şəhərində Heydər Əliyev Parkını ziyarət edib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan nümayəndə heyəti burada Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramını bildirib.

Sonra Baş Qərargah rəisi Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülər ilə görüşüb.

Türkiyənin milli müdafiə naziri nümayəndə heyətini salamlayaraq, ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Səmimi qəbula görə təşəkkürünü bildirən general-polkovnik K.Vəliyev hər iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyini vurğulayıb.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, həmçinin regional təhlükəsizlik məsələləri müzakirə edilib.

# Azərbaycan həqiqətləri və erməni yalanları



**Həqiqət acı olar - demişlər.**

**Yalnız həqiqəti eşitmək və görmək istəməyənlər onu acı hesab edərlər.**

**Onsuz da həqiqət gec-tez öz yerini tutur.**

*Yalan ayaq tutar, amma yeriməz - söyləyirlər.*

*Amma yalanın ayaq tutması özü də xoşagəlməz haldır.*

**Deməli, kimlərsə yalana dəstək verir, onu bəsləyir, ondan istifadə etməyə çalışır.**

**Yoxsa yalan niyə ayaq tutsun ki...**

*Həqiqətdə həmişə güc olur!*

*Yalan isə hiyləyə söykənir.*

Sonda həqiqət qalib gəlir!

Nə qədər çətin, ağır, mürəkkəb çarpışma getsə də!

**Yalan isə haqsızların, ədalətsizlərin, zəiflərin silahı kimi küt olsa belə əl altında saxlanılır.**

Azərbaycanla Hayastan arasında iki əsr ərzində Qarabağla bağlı gedən münaqişə, əslində, həm də həqiqətlə yalan arasında gedən mübarizədir!

*Bu mübarizənin mahiyyəti qarşı-qarşıya duran tərəflərə, digər gizli və aşkar iştirakçılara da bəllidir!*

Çox az qisim olar ki, əsl həqiqətdən xəbərsiz olsun...

**44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın böyük qələbəsi ilə başa çatan və sonuncu fazasına daxil olan bu mübarizə və münaqişə yalanın dəstəkçiləri sayəsində hələ də son nöqtəsinə çatmayıb.**

Baş verən son mühüm dəyişikliklər, mübarizə və müharibə edən tərəflərin güc nisbəti, yeni reallıqlar, Azərbaycan Prezidentinin qəti, prinsipial və ədalətli mövqeyi separatçıların lap az zaman kəsiyində tam cilovlanacağından, Xankəndidə tezliklə üçrəngli bayrağımızın dalğalanacağından xəbər verir!

❖❖❖

**İki əsrdir ki, iki dövlət qarşı-qarşıyadır.**

*Bir tərəfdə qədim tarixə, zəngin mədəniyyətə, çoxsaylı tarixi, dini, mədəni abidələrə, milli və mənəvi dəyərlərə, hətta özünəxas musiqiyə və mətbəxə malik Azərbaycan!*

Digər tərəfdə türk dünyasına qarşı Azərbaycan torpaqlarında süni şəkildə yaradılan, özünə saxta tarix, qondarma, oğurluq "tarixi və dini abidələr" yaradan, mədəniyyət, musiqi, hətta mətbəx oğurluğu ilə məşğul olan, alət dövlət və millət sayılan Hayastan.

*Bir tərəfdə beynəlxalq hüquqa, haqqa-ədalətə söykənən, öz ərazisini qəhrəmanlıqla, şəhidlər verməklə, hətta bəzən yalın əllə qoruyan Azərbaycan!*

Digər tərəfdə saxta göz yaşları tökən, özünü "məzlum", "zavallı" millət kimi qələmə verən yalançı, əslində isə Xocalı soyqırımını törətməyə qadir vəhşi, barbar, arxalı Hayastan.

**Əslində, bu mübarizə düzlə əyrinin, həqiqətlə yalanın, doğru ilə saxtakarlığın çarpışmasıdır!**

**Ədaləti, həqiqəti, doğrunu məğlub etmək olar, məhv etmək yox!**

Sonda qələbə yenə də onunku olur!

Bunu həm də bəşəri təcrübə, tarixi faktlar göstərir!

Necə ki göstərdi!

❖❖❖

**Ərazilərimizin 20 faizini otuz ilədək işğalda saxlayan haylar nəyə nail oldular, nə qazandılar?**

Bəli, Azərbaycanın bütün yaşayış məntəqələrini İranla birlikdə söküb dağıdaraq apardılar, tikinti materialı kimi satıb qazandılar, meşələri, faydalı qazıntıları daşıdılar, narkotik əkib-becərdilər.

Həmin müddət ərzində torpağın əsl sahibi olan Azərbaycan vətəndaşları məcburi köçkün həyatı sürərək çox çətinliklər çəkdilər!

Bəs sadə ermənilər. Həmin talandan onlara kimsə nəsə verdi, həyat şəraitini yaxşılaşdırdı?

*Koçaryan, Sarkisyan, Ohanyan, habelə "tuşonka" oğurluğu ilə məşğul olan generallar milyarderlərə, milyonçulara çevrildilər, harın həyat sürdülər.*

*Bu gün də erməni əsgər anaları Müdafiə Nazirliyinin qapıları ağzında köməksiz vəziyyətdə qalıb, dul erməni arvadlarını isə yada salan yoxdur, nə iş tapırlar, nə də çörək...*

**"Məğlubedilməz ordu" beləmi olur?!**

**"Qalib dövlət"in axırı beləmi qurtarır?!**

Hələ də ağla gəlməyiblər!

❖❖❖

Ötən əsrin doxsanıncı illərində Azərbaycan əraziləri işğala məruz qalanda ona kömək göstərən, arxa duran bir dövlət də yox idi.

*Xalq hətta əsl rəhbərindən, Ulu Öndər Heydər Əliyevdən belə ayrı düşmüşdü.*

*Ölkəyə maymaqlar, qorxaqlar, təcrübəsizlər və səriştəsizlər rəhbərlik etdiyindən tam başsızlıq idi.*

Nə ordu qurulurdu, nə torpaqların müdafiəsi təşkil edilirdi, nə də ağıllı, uzaqgörən siyasət yeridilirdi.

Sovet ordusu hesabına Hayastan silahlandırılır, torpaqların işğalında ona kömək göstərilir, İran islam dövləti gizli dəstəyini həyata keçirir, erməni diasporları isə maliyyə yardımları vasitəsilə ABŞ-nin Senatında "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəliş etməklə əlindən gələni əsirgəmirdilər.

Hətta iş o yerə çatdı ki, Rusiya haylara bir milyard dollarlıq pulsuz silah-sursat bağışladı.

**Rəhbərsizlik və köməksizlik Azərbaycanı ağır məğlubiyyətə uğratdı.**

**Özgə ağzı ilə hürən, hər tərəfdən dəstək və yardım görən Hayastan isə qalib tərəfə çevrildi.**

*Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra vəziyyət büsbütün dəyişdi!*

**Bu dəyişikliyi Müzəffər Ali Baş Komandan İlham Əliyev hərb meydanında, diplomatiya və informasiya müharibəsində parlaq zəfərə çevirdi!**

**İndi qalib tərəf Azərbaycandır!**

Məğlub və miskin günə salınan Hayastan isə hər kəsə və hər şeyə ümid bağlamaqla məğlubiyyətini yazılı surətdə rəsmiləşdirməyi uzadır, sülh müqaviləsini imzalamır.

* Anlamırlar ki, daha ötən əsrin 90-cı illəri deyil!
* Anlamırlar ki, Azərbaycan o Azərbaycan deyil!
* Anlamırlar ki, indi tam başqa vəziyyət, tam başqa situasiyadır!

**Bu anlamazlıq onlar üçün yeni fəlakətlə, hətta dövlətlərini və dövlətçiliklərini itirmələri ilə nəticələnə bilər.**

**Gec anlasalar, sonra gec olacaq!**

❖❖❖

Son 20 ildə Azərbaycan görünməmiş sürətlə inkişaf edib!

*İqtisadi cəhətdən güclənib, dünyada siyasi nüfuzu artıb, mövqeləri möhkəmlənib, qüdrətli ordu yaradıb, Cənubi Qafqazda söz sahibinə çevrilib!*

**Bütün bu uğur və nailiyyətlərin müəllifi Azərbaycan Prezidenti İlham Əliyevdir!**

**Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev Azərbaycan xalqına Qarabağ münaqişəsini də həll edəcəyini, torpaqları işğaldan qurtaracağını, ərazi bütövlüyünə nail olacağını vəd etmişdi!**

**Bütün dünya Azərbaycan Prezidentini sözü ilə əməli bir olan rəhbər kimi tanıyır.**

*Artıq düşmənlərimiz də buna əmin olublar!*

**İlham Əliyev dediyini etdi!**

*Düşmən ordusunu "dəmir yumruğ"u ilə əzdi, fərarilər və qorxaqlar dəstəsinə çevirdi, torpaqlarımızdan iti qovan kimi qovdu!*

İndi isə xalqa verdiyi digər bir vədin icrası ilə məşğuldur: Qarabağ dirçəldilir, yeni yaşayış məntəqələri və istehsal sahələri yaradılır, keçmiş məcburi köçkünlər doğma torpaqlarına qaytarılırlar!

**Küçədən, meydandan hakimiyyətə gələn sorosçu Paşinyan isə dünyada qeyri-ciddi, siyasətdə və diplomatiyada piyada təsiri bağışlayan, gündə bir söz deyib sonra dalından qaçan baş nazir kimi məsxərə obyektinə çevrilib.**

**Nə ölkə daxilində hörməti var, nə də beynəlxalq aləmdə.**

Sözdə dediyini əməldə təsdiq etmir, bu gün söylədiyinin sabah arxasından qaçır, hiyləgərliklə nəyəsə nail olacağına inanır.

*Əslində, Paşinyan korrupsioner, qorxaq və dələduz Koçaryan və Sarkisyanın yeni variantı, o biri üzləridir: yalançı, yaltaq, qorxaq, xalqı aldatmaqla hakimiyyətdə qalmaq üçün min bir oyun çıxaran simasız, təsadüfən hakimiyyətə gələn avantüristdir.*

Bunların hamısı fərdi keyfiyyətləri, daha doğrusu, keyfiyyətsizlikləri ilə bir nöqtədə birləşirlər: erməni xalqını müsibətlərə düçar edir, dövləti məhvə aparır, vətəndaşları dilənçi kökündə yaşadır, yalnız özlərini, öz karyeralarını düşünürlər.

❖❖❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev böyük humanizm və güzəşt nümayiş etdirərək Qarabağ müharibəsini vaxtında başa çatdırdı!**

Bütün müraciət, xahiş, hətta təhdid zənglərinə məhəl qoymadan!

Yalnız öz şərtini - Ermənistanın öz qoşunlarını Azərbaycan ərazisindən çıxarılma qrafikini təqdim etdikdən sonra uğurlu hərbi əməliyyatları dayandırdı.

Hadisələrin sonrakı gedişi - kapitulyant dövlətin sonrakı addımları isə üçtərəfli Bəyanatda əksini tapmışdı.

*Rusiya Prezidenti V.Putinin zəmanəti ilə razılaşdırılan həmin bəyanatı Azərbaycan və Rusiya prezidentləri televiziya ekranı qarşısında, Ermənistanın baş naziri isə gizlində imzaladı.*

Kimin necə qol çəkməsindən asılı olmayaraq, üç dövlət başçısının imzaladığı bəyanat qüvvəyə mindi.

**İlham Əliyev sürətli və uğurlu hərbi əməliyyatları dayandırmaqda bir məqsəd güdürdü: Azərbaycan əsgər və zabitlərinin həyatını qorumaq, daha az şəhid vermək!**

*Çünki dövlət başçısı olaraq hər bir vətəndaşının qədrini bilir və həyatını yüksək dəyərləndirir!*

Eyni zamanda Xankəndiyə girərkən mülki əhaliyə ziyan dəyilməməsini də istəyirdi.

Hərçənd ki Gəncə, Bərdə, Tərtər və Goranboya ballistik raketlər atan haylar mülki vətəndaşlara daha çox zərər yetirərək çaxnaşma yaratmaq məqsədi güdürdülər.

**İki millətin bir fərqi də məhz bundadır!**

İndi isə Azərbaycan Qarabağda yaşayan ermənisilli vətəndaşlarının reinteqrasiyası, Azərbaycan Konstitusiyası əsasında yaşaması üçün əlindən gələni edir.

*Qalib dövlət olsa da, sülh təklifi, sülh çağırışı ilə çıxış edir, bu istiqamətdə real addımlar atır!*

**Paşinyan isə erməni xislətinə və öz xarakterinə sadiqlik nümayiş etdirir.**

**Üçtərəfli və sonrakı bəyanatların şərtlərini yerinə yetirmir, müxtəlif bəhanə və oyunbazlıqlarla sülh danışıqlarını pozur.**

Öz aləmində "hiylə işlədərək" müharibənin dayanmasından bəhrələnməklə yenidən toparlanmağa, məğlubiyyətinin qisasını almağa hazırlaşır.

*İrandan və Hindistandan silah almaqla ordusunu "gücləndirir", vaxtaşırı atəşkəsi pozaraq şərti sərhəddə gərginlik yaradır, Xankəndidəki qanunsuz silahlı birləşmələri və terrorçuları ərazimizdən çıxarmır, separatçı qurumu Ermənistan büdcəsi hesabına maliyyələşdirməkdə davam edir, tez-tez mənasız, yeni şərtlər irəli sürməklə sülh müqaviləsinin imzalanmasını uzadır.*

**Sözdə 86,6 min kvadratkilometrlik Azərbaycan ərazisinin bütövlüyünü və suverenliyini tanısa da, yazılı şəkildə bunu təsdiq edərək imzalamır.**

Hansı ordu, hansı şəxsi heyət, hansı imkanlarla qisasa hazırlaşdığını heç özü də dərk etmir.

Onun güvəndikləri və müdafiə edənləri isə heç zaman Hayastanın əvəzinə Azərbaycanla müharibə edərək ordusunu qırğına verməyəcəkdir.

*Erməni bicliyi məişətdə keçərlidir, siyasətdə, dövlətlərarası münasibətlərdə belə primitiv oyunlar yalnız təbəssüm doğurur!*

❖❖❖

**Hayastan bir daha yalançı, riyakar, beynəlxalq hüquqa, özünə, sözünə və imzasına hörmət etməyən dövlət olduğunu sübut etdi!**

**Onun dəstəyi və dirijorluğu ilə sentyabrın 10-da Qarabağda qalmış separatçıların tör-töküntüləri saxta "prezident seçkiləri" keçirdilər.**

*Bununla bir daha dünyaya nümayiş etdirdilər ki:*

* Hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyiblər;
* Sülh danışıqları vaxtı uzatmaq, qisasçılıq niyyətlərini gizlətmək üçün bir pərdədir;
* Qarabağdan qeyri-qanuni silahlı dəstələrini çıxarmaq niyyətində deyillər;
* Qarabağ ermənilərini girov kimi saxlamaqla reinteqrasiyaya şərait yaratmaq fikrindən çox uzaqdılar;
* "Humanitar şou" baş qatmaq, Azərbaycanın beynəlxaq nüfuzuna xələl gətirmək cəhdindən başqa bir şey deyil;
* Ağdam-Xankəndi yolundan imtina, əslində, çirkin, separatçı əməllərin davamı, Laçın yolunu zorla açdırmaq cəhdidir;
* Acınacaqlı məğlubiyyətlərini sanki yaddan çıxaran haylar havadarlarına güvənərək, özlərini "qaliblər" təki apararaq iradələrini Azərbaycana qəbul etdirmək istəyirlər!

*Həm də bir sıra vacib həqiqətləri də deyəsən "unudublar"!*

*Unudublar ki:*

* 44 gün ərzində Ermənistan ordusunu darmadağın edən Azərbaycan Ordusu əvvəlkindən də qüvvətli və qüdrətlidir!
* Müzəffər Ali Baş Komandan İlham Əliyevə heç kəs öz istəyini qəbul etdirə bilməz, əksinə, İlham Əliyev dəfələrlə sübuta yetirib ki, o, dediyini və istədiyini "dəmir yumruğ"u və siyasəti ilə həyata keçirir!
* Azərbaycan üçün "Dağlıq Qarabağ" adlı münaqişə artıq yoxdur, Qarabağı separatçıların tör-töküntülərindən təmizləmək yalnız zaman məsələsidir!
* Nə saxta seçkilər, nə Xankəndiyə ordan-burdan toplanmış erməni dığaları, nə müxtəlif məkrli oyunlar, nə orda-burda iclas keçirən havadarları forpost dövləti və onun separatçı əlaltılarını İlham Əliyevin qəzəbindən xilas edə biləcəkdir.

Lap yaxın zamanlarda özləri buna şahid olacaqlar!

**Yəqin ki, yaxın keçmişdə Şuşada "qondarma parlament" üçün bina tikdirdiklərini və həmin binanın aqibətini unutmayıblar!**

**Xüsusi bina inşa edərək "parlament"lərini Şuşaya necə köçürdülərsə, təzə "prezident"lərinin rəhbərliyi ilə də həmin sayaq fəaliyyət göstərəcəklər!**

❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev müharibəni dayandırsa da, məqsəd və hədəflərinə doğru inamla, təmkinlə, qətiyyətlə irəliləyir!**

44 günlük Vətən müharibəsindən sonra ikinci ən mühüm uğur Laçında nəzarət-buraxılış postunun yaradılması oldu!

*Bununla da Müzəffər Ali Baş Komandanımız Ermənistan tərəfindən Xankəndidəki separatçıları hər cəhətdən qidalandıran şah damarı birdəfəlik kəsdi!*

Azərbaycan tarixində ilk dəfə öz sərhədlərinə və ərazilərinə nəzarəti ələ aldı!

**Laçın yolundan yenidən sərbəst istifadəyə nail olmaq üçün Hayastan dəridən-qabıqdan çıxır!**

O oyun qalmayıb ki, oynamasın...

Gah Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edir, gah "böyük bacısı" Fransa vasitəsilə məsələni BMT-nin Təhlükəsizlik Şurasında müzakirəyə çıxarır, gah "humanitar şou" tamaşasını oynayır, gah da RSK-nı qınayır, Rusiyanı borclu çıxarır.

*Azərbaycan isə çox ağıllı və təmkinli addımları ilə bütün bu oyunbazlıqları puç edir!*

Laçın yolunu ciddi nəzarətində saxlayacağını açıq söyləməklə bərabər, Ağdam-Xankəndi yolundan istifadəni tövsiyə edir və yalnız bundan sonra Laçın yolunun da açılacağını bildirir.

Niyə müdafiəçiləri haylardan soruşmurlar ki:

* Əgər həqiqətən acsansa, niyə Qızıl Aypara Cəmiyyətinin 40 tonluq yardımından imtina edirsən?
* Əgər həqiqətən acsansa, "türk çörəyi yemirəm" iddiası nədir və otuz illik işğal dövründə Azərbaycan ərazisində əkib-biçib yediyiniz "türk taxılı" deyildimi?

**Daş qayaya rast gəlib!**

**Əgər Fransanın 10 TIR-ı Laçın yolundan keçə bilmədisə, Paşinyanın 22 "fur"u hələ çox gözləməli olacaq!**

❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev həmişə xalqa arxalanıb, xalqın və dövlətin maraqlarını hər şeydən üstün tutub, xalqına həmişə düz söz deyib və verdiyi vədləri şərəflə yerinə yetirib!**

* Bir qarış Vətən torpağını belə düşmənə vermədi!
* Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasının qarşısını aldı!
* Qüdrətli ordu yaradaraq Azərbaycan torpağını murdar ləpirlilərdən təmizlədi!
* İndi isə keçmiş məcburi köçkünləri doğma yurd-yuvalarına qaytarmaq, normal yaşayışlarını təmin etməklə məşğuldur.

**Paşinyan isə iqtidara gəldiyi gündən erməni xalqını aldatmaqla, yalan vədlər verməklə məşğuldur!**

* Əvvəlcə "yeni müharibə yeni ərazilərin zəbti olacaq", - deyə Azərbaycanı hədələdi!
* "Qarabağ Ermənistandır və nöqtə" söyləməklə yeni müharibəni tətiklədi!
* Hərbi əməliyyatlar zamanı daim xalqını aldadaraq, erməni ordusunun irəlilədiyini, qalib gəldiyini bildirdi!
* Üçtərəfli Bəyanata imza ataraq onun bəndlərini yerinə yetirmədi.

*İndi isə müxtəlif hoqqalar çıxararaq, separatizmi dəstəkləyərək bölgədə hərbi gərginliyi artırır, yeni müharibə təhlükəsi yaradır.*

*Əsas niyyət və məqsədi hakimiyyət ömrünü uzatmaq, sülh müqaviləsi imzalamamaq və beləliklə, yeni ordu yaradaraq qisas almaq, Ermənistan dövlətini və xalqını yenidən fəlakətlərə düçar etməkdir.*

Bu ağıl və davranışla istədiyinə - yeni müharibəyə nail olacaqdır!

Çünki xalqı üçün yox, özü üçün çalışır.

❖❖❖

Azərbaycan keçmişi keçmişdə qoyaraq gələcəklə yaşayır!

Öz fəaliyyətində beynəlxalq hüququ, ədaləti, dövlətin və xalqın maraqlarını əsas tutur.

**Zaman Azərbaycanın xeyrinə işləyir:**

* Ərazilər minalardan təmizlənir;
* İşğaldan azad edilmiş bölgələrə yeni yollar çəkilir, normal yaşayış infrastrukturu yaradılır;
* "Ağıllı şəhər və kəndlər" salınır;
* Yeni sənaye məhəllələri, aqroparklar yaradılaraq iş yerləri açılır;
* "Böyük qayıdış" proqramı uğurla və sürətlə icra edilir;
* Düşmənin bütün alçaq və hiyləgər niyyətləri puça çıxarılır!

*Hayastan isə keçmişi geriyə qaytarmaq barədə axmaq düşüncələrdən yaxa qurtara bilmir:*

* Azərbaycanın reinteqrasiya çağırışlarını müxtəlif bəhanələrlə pozur;
* Dünya ictimaiyyətini aldatmaq, ölkəmizə şər-böhtan atmaq xəstəliyindən əl çəkmir;
* Ağdam-Xankəndi yolunu bloklayaraq Laçın yolundan öz maraqlarına uyğun istifadə etmək niyyətindən əl çəkmir, "humanitar şou"nu davam etdirir;
* Xankəndidəki qeyri-qanuni separatçı quruma yeni "seçkilər" keçirir;
* Atəşkəs rejimini mütəmadi şəkildə pozmaqla gərginliyi daim artırmağa can atır!

**Düz əyrini kəsər - demişlər!**

**Xüsusən də ədalətli tərəfin güclü olduğu bir məqamda!**

*Otuz il torpaqları işğalda saxlayan, xalqını dilənçi günündə, daim müharibə qorxusu altında yaşadan hayları, görünür, yalnız "dəmir yumruq" ağıllandıra bilər!*

*"Dəmir yumruq" isə həmişəkitək hazır vəziyyətdədir!*

❖❖❖

**İndi Hayastan sahibsiz tulaya dönüb: kim başını sığallayırsa, ona quyruq bulayır!**

**"Ağa"ları çox olduğundan və onların hər birinə yarınmağa çalışdığından simasını tam olaraq itirib.**

Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" komediyasındakı Məşədi İbadın gününə düşüb.

Kim gəlib deyirsə ki, bir qədər pul ver, işini düzəldim, dərhal cibinin ağzını açır.

Gah ABŞ-dən gələn Nensi nənə və digər konqresmenlər, gah Fransadan gələn Parisin və digər şəhərlərin merləri, Fransa Senatının deputatları, gah Rusiya Dövlət Dumasının üzvləri, hətta keçmiş prokuror Okampo və NATO-nun sabiq sədri Rasmussen belə erməniləri aldadaraq onların diasporları hesabına seçkilərdə qalib gəlir, çoxluca pul qoparırlar.

**Haylardan pul qazananların hamısı öz marağını güdür və təmin edir.**

**Hayastana qalan isə 44 günlük müharibədə biabırçı məğlubiyyət, indiyədək sayı bilinməyən və nəşi tapılaraq sahibinə verilməyən canlı qüvvə itkisi, özgə torpaqlarından qovulub çıxarılması, əhalisinin böyük qisminin ölkəni tərk etməsi və hərbi əməliyyatların yenidən başlanması təhlükəsi ilə üz-üzə qalmasıdır!**

Axmaq baş sahibinə qapaz yedizdirər - demişlər!

*Nə Rusiya ordusu və KTMT gəlib Hayastanın əvəzinə Azərbaycanla müharibə aparasıdır, nə İran onun arxasında sonadək durandır, nə Fransa və Aİ-nın müşahidəçiləri nəyisə dəyişmək iqtidarındadırlar, nə də ABŞ və BMT Laçın yolunu açdırmaq imkanındadırlar!*

**Hayastanın da, hayların da, Xankəndidəki separatçıların da yeganə çıxış yolları Azərbaycanın şərtlərini qəbul edərək sülh müqaviləsini imzalamaq, Azərbaycan Konstitusiyasının prinsiplərinə uyğun Qarabağda yaşamaqdır!**

*İkinci yolları isə "dəmir yumruğ"un dadına yenidən baxmaq və Azərbaycan ərazisini tərksilah olunaraq tərk etməkdir.*

Başqa yol yoxdur!

❖❖❖

**Məsələni uzatmaqla heç nəyə nail olmayacaqsınız!**

**Kimlərəsə arxalanmaqla,vəziyyətin dəyişəcəyinə ümid bəsləməyin!**

*Laçın yolu Azərbaycanın nəzarəti altındadır!*

*Oradan Azərbaycanın icazəsi olmadan nə Hayastana, nə də Fransaya məxsus bir maşın (nəinki TIR) keçə bilər!*

**Qalib tərəf Azərbaycandır!**

**Şərtləri Müzəffər Ali Baş Komandan İlham Əliyev diktə edir!**

**Reallıq isə yenidir və əbədidir!**

**Bəxtiyar SADIQOV**



# Sülh yalnız Azərbaycanın şərtləri ilə mümkündür

## Ancaq bu təqdirdə Ermənistan 29 min kvadratkilometr ərazidə rahat yaşaya bilər

**Ötən şənbə Azərbaycanın beynəlxalq hüquqla tanınan Qarabağ bölgəsində "prezident seçkiləri" adı altında növbəti qanunsuz fəaliyyətin həyata keçirilməsi Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından əl çəkmədiyini nümayiş etdirir.**

Bu çirkin əməli ilə İrəvan istər Aİ, istərsə də Rusiyanın və ABŞ-nin vasitəçiliyi ilə indiyə qədər iki ölkə arasında sülh prosesi çərçivəsində liderlər və xarici işlər nazirləri səviyyəsində baş tutan üçtərəfli görüşlərin üzərindən qara bir xətt çəkdiyini göstərir.

Sözügedən görüşlərdə Qarabağ Azərbaycandır həqiqətini etiraf edən Nikol Paşinyan sentyabrın 2-də riyakarlıqla ölkəmizin ərazisində qurulmuş qondarma quruluşun yaradılmasının "ildönümü" münasibətilə "təbrik mesajı" verərək Ermənistanın əsl niyyətinin sülh prosesini süni əngəllərlə uzatmaq, özünə beynəlxalq dəstəkçilər qazanaraq Qarabağdakı separtçı rejimi legitimləşdirməkdən ibarət olduğunu açıq şəkildə ortaya qoydu.

Ümumiyyətlə, Vətən müharibəsindən sonra Azərbaycana qarşı törətdiyi ardıcıl siyasi, hərbi və digər təxribatları da göstərir ki, İrəvan sülhdən yayınır.

### Qərb ölkələri separatizmlə üz-üzə olsa da...

Beynəlxalq cəzasızlıq mühitindən yararlanan və bəzi qərəzli ölkə və qurumların dəstəyindən ruhlanan Ermənistanın sentyabrın 9-da separatçıların əli ilə qondarma seçki keçirməsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı birbaşa qəsddir.

Onu da vurğulayaq ki, son dövrlər erməni lobbisi pul hərisinə çevrilmiş riyakar ölkələr və qurumlar vasitəsilə Azərbaycana qarşı qarayaxma kampaniyasına start verib. BBC, SNN, "The New York Times" kimi beynəlxalq media resursları da erməni separatizminin təbliğ olunduğu platformaya çevrilib. Halbuki separatizm ümumilikdə dünya ölkələri üçün təhlükəli tendensiyadır və hazırda İspaniya başda olmaqla, Qərb ölkələrinin bir qismi bu təhlükəli halla üz-üzədir. Bu baxımdan həmin ölkələrin erməni separatizminə göz yummaları, Ermənistanın Azərbaycanın suveren ərazilərinə iddialarına susmaları, bu təcavüzkar ölkəyə hər hansı sanksiyalar tətbiq etməmələri, təzyiq göstərməmələri böyük müəmma doğurur.

1990-cı illərin əvvəllərində Ermənistanın torpaqlarımızı işğal etməsi nəticəsində yaradılmış və sərsəm erməni ideologiyasının təzahürü olan qondarma rejimin Qarabağ bölgəsində "seçki" keçirməsi Azərbaycanın Konstitusiyasına və qanunlarına, o cümlədən də beynəlxalq hüququn norma və prinsiplərinə ziddir.

### Separatçı rejim tərəfindən atılan addımların heç bir qanuni qüvvəsi yoxdur

Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "seçkilər" adlandırdığı qanunsuz fəaliyyəti ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında da deyilir ki, Azərbaycanın suveren ərazilərində yaradılmış və Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi sayəsində mövcudluğunu davam etdirməyə çalışan bu rejim tərəfindən atılan addımların heç bir qanuni qüvvəsi yoxdur.

Bəyanatda o da vurğulanır ki, Azərbaycan Respublikası beynəlxalq cəmiyyətin bütün üzvlərini beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə uyğun olaraq, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn addımlara düzgün siyasi qiymət verməyə, Ermənistanı bölgədə kövrək normallaşma səylərini təhlükə altına alan addımlardan çəkindirmək üçün təsirli tədbirlər görməyə, "seçki" adlandırılan qanunsuz fəaliyyətləri qətiyyətlə pisləməyə çağırır.

### Dünya qondarma seçkiləri tanımadı

Dünya ölkələrindən və nüfuzlu beynəlxalq qurumlardan Ermənistanın birbaşa dəstəyi ilə Azərbaycanın Qarabağ bölgəsində keçirilən qondarma seçkiləri pisləyən və tanımayan açıqlamalar gəldi.

Beynəlxalq qanunlara və prinsiplərə zidd olan bu qanunsuz fəaliyyətlə bağlı Avropa İttifaqı Şurasının Xarici Fəaliyyət Xidmətinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə sözçüsü Nabila Massrali bildirib ki, 9 sentyabr 2023-cü il tarixində Xankəndidə keçirilən qondarma "prezident seçkiləri"ni nəzərə alaraq, Avropa İttifaqı bir daha bəyan edir ki, o, "seçki"nin keçirildiyi konstitusiya və hüquqi çərçivəni tanımır.

Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyinin Azərbaycan Respublikasının ərazisində qanunsuz separatçı rejim tərəfindən keçirilən qondarma "prezident seçkiləri" ilə bağlı bəyanatında deyilib ki, TDT-nin Baş katibi Azərbaycan Respublikasının Qarabağ bölgəsində Ermənistanın yaratdığı qanunsuz rejim tərəfindən təşkil edilən qondarma "prezident seçkiləri" ilə bağlı dərin narahatlığını ifadə edir: "Biz regionda sülh və sabitliyə xələl gətirən bu təxribatçı hərəkəti beynəlxalq hüququn, eləcə də Azərbaycan Konstitusiyasının və qanunlarının kobud şəkildə pozulması kimi qətiyyətlə pisləyirik. Eyni zamanda, biz Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin öz konstitusiya sisteminə yenidən inteqrasiyası istiqamətində səylərini yüksək qiymətləndiririk".

"İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki separatçıların keçirdiyi qondarma "seçkilər"i tanımadığını bəyan edib və dünya ictimaiyyətini Ermənistanın destruktiv addımlar atmasının qarşısını almaq üçün effektiv tədbirlər görməyə çağırıb.

Qardaş Türkiyə də Azərbaycanın Qarabağ bölgəsində qondarma rejimin keçirdiyi "prezident seçkilərini" tanımadığını bəyan edib. Türkiyə Xarici İşlər Nazirliyinin bununla bağlı bəyanatında bildirilib ki, Türkiyə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün pozulmasını ifadə edən bu qanunsuz seçkiləri tanımır. BMT-ni və beynəlxalq ictimaiyyəti bu seçkiləri tanımamağa çağırırıq".

"Böyük Britaniya sentyabrın 9-da Qarabağda keçirilən qondarma "prezident seçkiləri"ni tanımır. Biz beynəlxalq hüququn prinsip və normalarının əhəmiyyətini vurğulayaraq, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik", - deyə Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld "X" sosial şəbəkəsində paylaşım edib.

Pakistan, Gürcüstan, Ukrayna, Moldova Azərbaycanın Qarabağ bölgəsindəki "seçkilər"i pisləyən bəyanat yayıblar, bu qondarma "prezident seçkiləri"nin keçirilməsinin beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu və nəticələrini tanımadıqlarını vurğulayıblar.

### Ermənistanın başqa çıxış yolu yoxdur

Göründüyü kimi, erməni lobbisinin puluna və bəzi qərəzli ölkə və qurumların dəstəyinə güvənərək Azərbaycanın suveren ərazisində "seçki" keçirən Ermənistan və separatçı qurum yenə də rüsvayçılığa düçar oldu, belə ki, beynəlxalq ictimaiyyət bu oyuncaq "prezident seçkiləri"ni tanımadı.

2023-cü il iyulun 25-dəki sonuncu Brüssel görüşündən sonra Azərbaycana qarşı siyasi və hərbi təxribatlarını intensivləşdirən Ermənistan sentyabrın 9-da Xankəndidə "prezident seçkiləri" keçirməklə həm də faktiki olaraq sülh danışıqlarına kökündən zərbə vurdu.

Xarici ölkələrin forpostuna çevrilmiş Ermənistanın baş naziri Nikol Paşinyanın bu məkrli və riyakar davranışları bölgəni yeni müharibə təhlükəsi altında qoydu.

Amma istənilən halda məğlubiyyətə düçar yenə də Ermənistanın özü olacaq. Çünki Azərbaycan heç zaman suveren ərazisində erməni dövlətinin yaranmasına imkan verməyəcək.

Necə ki bunu qalib lider İlham Əliyev bəyan edib: "Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var - bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır".

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Qırmızı Xaç özünü ifşa etdi

## Bu beynəlxalq təşkilat Ermənistanın "humanitar fəlakət" şousunun oyunçusu olduğunu bir daha təsdiqlədi





"Humanitar fəlakət" şousu ilə dünyaya səs salmaq istəyən Ermənistan son əməlləri ilə göstərdi ki, əsl məqsədi Qarabağ ermənilərindən öz maraqları üçün istifadə etməkdir. Avqustun 29-da Azərbaycan tərəfindən göndərilən 40 tonluq ərzaq yükü hələ də Ağdam-Xankəndi yolunda gözləyir. Bunun kimi, Rusiyadan göndərilən yardım da qəbul edilmir. Deməli, məqsəd tamam başqadır.

Bərdə şəhərində gözləyən Rusiya Qırmızı Xaç Cəmiyyətinin ərzaq dolu yük avtomobili ayın 10-da Ağdam-Xankəndi yolu ilə bu yükü Qarabağda yaşayan erməniəsilli sakinlərə çatdırmalı olsa da, keçid təmin edilməyib. Keçidin ləngiməsinə səbəb kimi Qarabağdakı separatçıların növbəti qeyri-konstruktiv mövqeyi göstərilir. Digər məlumata görə, Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) və Qərbin Rusiya Qırmızı Xaç Cəmiyyətinə təzyiqi nəticəsində belə bir vəziyyət yaranıb.

Beləliklə, humanitar böhran yaşayan ermənilər nə Azərbaycandan, nə də Rusiyadan göndərilən ərzaq yükünü qəbul edir. Bu da bir daha təsdiq edir ki, Cənubi Qafqazda maraqlarını təmin etmək istəyən Avropa hər zaman siyasi oyunların aləti olan ermənilərdən öz məqsədi üçün istifadə edir.

### Separatçılığa dəstək verən təşkilatın fəaliyyəti Azərbaycan ərazisində məhdudlaşdırılmalıdır

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında deyib ki, sentyabrın 9-da BQXK-nın humanitar yükü Samur keçid məntəqəsindən daxil olanda bu beynəlxalq təşkilatın emblemi altında gələn yüklərin öz ünvanına çatacağı güman edilirdi: "Hesab edirdik ki, BQXK-nın ofisinin hansı ölkədə yerləşməsi əsas şərt deyil. Ona görə də bu komitəyə Laçın yolu vasitəsilə xəstələrin və həyati vacib vasitələrin daşınmasına icazə verilib. Amma hadisələrin inkişafı Beynəlxalq Qırmızı Xaç Komitəsinin də, düşündüyümüz kimi, saf niyyətli fəaliyyətlə məşğul olmadığını sübut edir".

Rusiya BQXK-nın yükünün də Bərdədə hotelin qarşısında gözlədiyini və buraxılmadığını xatırladan A.Badamov bildirib ki, ilk baxışda bu təşkilatların eyni konvensiya altında fəaliyyət göstərdiyi görünsə də, reallıqda selektiv yanaşmaların olduğu açıq-aydın ortadadır. Xankəndiyə humanitar yükü göndərdiyinə görə Rusiya nümayəndəliyinə təzyiqlərin göstərilməsi bunu bir daha təsdiqləyir və bu, həmin təsisatın əsl məramını üzə çıxardır: "Biz bunu 44 günlük Vətən müharibəsi zamanı da müşahidə etmişdik. O vaxtı BQXK erməni silahlılarını Füzulidən çıxartmağa cəhd etmiş və kəşfiyyat məlumatları toplayaraq düşmənə ötürürmüş. Müharibə başa çatandan sonra da BQXK Ermənistandan Xankəndiyə intensiv şəkildə daşımalar həyata keçirmişdi. Amma bu yüklər yoxlanılmadığından avtomobillərdə nə daşındığı suallar doğururdu. Hətta sərhəd xidmətimiz tərəfindən BQXK-nın qaçaqmalçılıqla məşğul olduğu da müəyyənləşmişdi. İndi də BQXK Xankəndiyə ancaq Ermənistandan humanitar yüklərin daşına biləcəyi kimi mövqe ortaya qoyur".

Deputat bildirib ki, bu hərəkət humanitar yardımlarla bağlı neytral fəaliyyətlə məşğul olmalı olan beynəlxalq təşkilatın siyasi məsələlərə və çirkin niyyətlərin reallaşdırılmasına cəlbi deməkdir. "Əgər Beynəlxalq Qırmızı Xaç Komitəsinin məramı ehtiyacı olan insanlara humanitar yardımın göstərilməsindən ibarətdirsə, onun hansı istiqamətdən daşınmasının nə əhəmiyyəti var? Hadisələrin inkişafı bir daha sübut edir ki, BQXK Qərbin əlində siyasi manipulyasiyalar etmək üçün alətə çevrilib. Təsisatın ofisi birmənalı şəkildə bilməlidir ki, hətta Ağdam-Xankəndi yolu açıldığı təqdirdə onlar öz emblemi altında əvvəllər olduğu kimi öz çirkin niyyətlərini davam etdirə bilməyəcəklər", - deyə o əlavə edib.

BQXK-nın Ermənistan ofisinin Xankəndidəki fəaliyyətinin separatçılığın inkişafına xidmət etdiyini vurğulayan A.Badamov bildirib ki, bütün bunlar komitənin fəaliyyətinin siyasiləşdiyini və müəyyən qüvvələrin maraqlarına xidmət etdiyini sübut edir. Ona görə də "BQXK-nın ölkəmizdə fəaliyyət göstərməsinin davam etdirilməsi nə qədər düzgündür?" sualı ortaya çıxır.

Deputat hesab edir ki, separatçılığa dəstək verən belə bir təşkilatın fəaliyyəti Azərbaycan ərazisində məhdudlaşdırılmalıdır: "Ölkəmiz siyasiləşməyən humanitar təşkilatla əməkdaşlıq etməlidir. Bununla bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsinin Cenevrədə yerləşən ofisinə öz fikrimizi bildirməliyik. Əgər bu qurum fəaliyyətini ərazilərimizdə davam etdirmək istəyirsə, ancaq Azərbaycanın daxili yollarından istifadə edə bilər".

### BQXK-nın regionda fəaliyyətinə zərurət qalmayıb

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Rusiyanın Qırmızı Xaç Komitəsinin yük avtomobilinin Xankəndiyə hələ də buraxılmaması Beynəlxalq Qırmızı Xaç Komitəsinin Qarabağdakı qondarma rejimin qalıqları ilə birgə hərəkət etdiyini göstərir. BQXK özünün regionda olma məqsədlərindən çox uzaqlaşıb: "Bu gün faktiki olaraq Ağdam-Xankəndi yolunun və Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiya prosesinin qarşısında dayanan əsas qüvvə məhz Beynəlxalq Qızıl Xaç Komitəsidir. Özünü humanitar məqsədlər naminə bütün aktların dəstəkçisi kimi təqdim etsə də, bu komitə Ağdam-Xankəndi yolunun açılmaması üçün mümkün olan bütün rıçaqları işə salıb. Fransanın peyki kimi davranan təsisat Qarabağın erməni sakinləri arasında bu yolun açılmaması üçün təbliğatdan tutmuş Rusiyanın Qırmızı Xaç Komitəsinə təzyiqlərə qədər təxribatçı fəaliyyətini artıq gizlətmir".

Ağdam-Xankəndi yolunun süni şəkildə əngəllənməsinin Qərbin, xüsusən Parisin sifarişi olduğunu deyən deputat bildirib ki, BQXK 1949-cu il Cenevrə Konvensiyası və sənədin 1977-ci və 2005-ci illər Əlavə Protokolları ilə qarşısına qoyulmuş vəzifələrlə deyil, məhz bu sifariş çərçivəsində təxribatçı fəaliyyətlə məşğuldur. Görünən odur ki, regiondan sıxışdırılan, qovulan riyakar Qərb dairələri üçün qalib Azərbaycanın qarşısına humanitar missiyalar pərdəsi altında çıxmaqdan başqa yol qalmayıb. Azərbaycanın artan hərbi-siyasi imkanları qarşısında birbaşa prosesə müdaxilə edə bilməyən Qərb Ağdam-Xankəndi yolu ilə yükün keçirilməsinə maneçilik törədilməsində Beynəlxalq Qırmızı Xaç Komitəsindən istifadə edir. Humanitar təsisatdan daha çox, radikal xristian ittifaqı kimi çıxış edən Qırmızı Xaç Qərb dairələrinin diktəsi altında məmnuniyyətlə öz missiya və öhdəliklərini bir kənara qoyub pozuculuqla məşğul olur. Əslində, Qırmızı Xaçın geosiyasi oyunlara cəlb olunaraq Qərbin maraq və mənafelərini ifadə edən alətə çevrilməsi, beynəlxalq humanitar təşkilat kimi yox, Fransa Xarici İşlər Nazirliyinin, yaxud Sorosun departamenti kimi fəaliyyət göstərməsi bizim üçün yenilik deyil.

Bəhruz Məhərrəmov qeyd edib ki, Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərən BQXK-nın nə münaqişə dövründə, nə də postmüharibə reallığında Azərbaycana münasibətdə ciddi və səmərəli fəaliyyətinin şahidi olmuşuq. "Əksinə, "bitərəflik", "qərəzsizlik", "vahidlik" kimi fundamental prinsipləri rəhbər tutmaq barədə öhdəlik götürən BQXK daim Qərbin diktəsi ilə Ermənistanla vahid tərəf kimi çıxış edib, hətta İrəvanın hərbi ortağına çevrilib. Təsisatın kəşfiyyat xarakterli məlumatların Ermənistana ötürülməsindən humanitar missiya adı altında quldur dəstələrinə dəstək verilməsinə qədər mandatına uyğun gəlməyən çoxsaylı riyakar fəaliyyəti barədə faktlar var. Habelə Laçın sərhəd-buraxılış məntəqəsində Qırmızı Xaçın qaçaqmalçılıq fəaliyyəti, eləcə də beynəlxalq axtarışda olan hərbi canilərin məsuliyyətdən yayındırılması işini təşkil etməsi kimi qanunsuz fəaliyyətləri birbaşa kameralar önündə ifşa edilib", - deyə o əlavə edib.

BQXK-nın son dövrlərdə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin "humanitar ehtiyacları" və "humanitar fəlakət" şousunun mühüm iştirakçılarından biri kimi çıxış etdiyini söyləyən deputat vurğulayıb ki, bu komitə ökəmizlə imzaladığı 1996-cı il Sazişinin 9-cu maddəsinin 13-cü bəndi ilə Azərbaycanın qanun və qərarlarına hörmət etməyə borcludur.

Hazırda BQXK tərəfindən anti-Azərbaycan fəaliyyətinin müşahidə edildiyini deyən B.Məhərrəmov əlavə edib ki, həmin Sazişin 12-ci maddəsi və 1961-ci il Vyana Müqaviləsinin 9-cu bəndi artıq ifşa olunmuş bu cinayətkar qurumu Azərbaycandan çıxarmağa kifayət edir: "Üstəlik, beynəlxalq hüquqla da BQXK-nın regionda fəaliyyətinə zərurət qalmayıb. Belə ki, humanitar fəaliyyətin hüquqi bazislərindən sayılan 1997-ci il Sevilya Razılaşmasına 2022-ci ildə edilmiş müvafiq dəyişikliyə əsasən, humanitar yardımların həyata keçirilməsində aparıcı rolun milli cəmiyyətlərə verilməsi qərara alınıb. Yəni müvafiq humanitar fəaliyyət istiqamətində artıq əsas söz sahibi BQXK yox, milli təsisat olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti olmalıdır".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Qarabağdakı erməni sakinlər Azərbaycan dövlətinin sülh naminə mesajlarını qiymətləndirməlidirlər

## Xarici QHT-lər Ağdam-Xankəndi yolunun açılmasını tələb edirlər

Beynəlxalq hüquq Qarabağın Azərbaycanın ərazisi olduğunu birmənalı olaraq təsdiq edir. Beynəlxalq ictimaiyyət də Qarabağda yaşayan ermənilərin separatçıların əlində bir alətə çevrildiyini görür və bunun yanlış olduğunu bilir.

Dünyanın 42 ölkəsini təmsil edən 1000-dən çox QHT, vətəndaş cəmiyyəti təmsilçiləri "Jotform" beynəlxalq platformasında başlatdıqları "Dünya Qafqazda sülh üçün" ("World for Peace in Caucasus") adlı beynəlxalq kampaniyaya qoşulmaqda davam edir. Xatırladaq ki, cəmi bir neçə gün bundan əvvəl yayılan müraciətə qoşulan QHT-lərin sayı 27 idisə, bu gün bu rəqəm sürətlə artmaqdadır.

Müraciətdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərə tövsiyə edilir ki, Ermənistanın və qondarma rejimin qalıqlarının təxribatlarına, onların siyasi manipulyasiyalarına uymasınlar, Ağdam-Xankəndi yolu sülh üçün açılsın. Müraciət müəllifləri hesab edirlər ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinləri Azərbaycan dövlətinin və vətəndaş cəmiyyətinin sülh naminə müsbət mesajlarını düzgün qiymətləndirməyi bacarmalıdırlar.

UAid Fondunun (Qambiya) sədri Alhagi Manneh sülhə nail olmaq üçün əməkdaşlığın vacibliyini vurğulayaraq bu təşəbbüsü dəstəklədiyini bildirib: "Mən BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsini dəstəkləyirəm və şübhəsiz ki, hökumətin davamlı inkişaf problemlərinin həlli istiqamətində səylərinə töhfə verəcəyəm. Bu gün mən sülh haqqında danışmaq üçün buradayam. Çox təəssüf ki, bu gün dünyanın bir çox yerlərində zorakılıq və müharibə hökm sürür. Ona görə də biz əməkdaşlıqla nəticə əldə etməliyik və daha faydalı olmalıyıq", - deyə o qeyd edib. Rumıniyalı Yekaterina Bordeianu bildirib ki, gərginliyi süni şəkildə qızışdırmağa, "blokada" və "humanitar böhran" yaratmağa ehtiyac yoxdur. "Azərbaycanda çoxlu dostlarım var, ona görə də uzun illərdir ki, regionda baş verənləri yaxından izləyirəm. "Bloklama" deyilən iddialar həqiqətə uyğun deyil. Laçın yolu qeyri-qanuni hərbi fəaliyyət və ya təbii sərvətlərin bu ərazidən daşınması üçün deyil, yalnız humanitar məqsədlər üçün nəzərdə tutulub", - deyə o bildirib.

Bordeianu xatırladıb ki, Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın Laçın sərhəd-keçid məntəqəsinin, guya, "qanunsuzluğu" və "bütün Azərbaycan Silahlı Qüvvələrinin Laçın yolundan çıxarılması" tələbi ilə bağlı Ermənistanın 12 may 2023-cü il tarixli vəsatətini rədd edib.

"Ermənistanın dəfələrlə Qarabağı Azərbaycan ərazisi kimi tanıması faktını qeyd etməmək mümkün deyil".

İqtisadi Sülh Mərkəzinin (İsrail) təsisçisi və prezidenti Ayub Kara Qarabağın erməni əhalisinin ehtiyacları üçün ərzaq məhsulları göndərən Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dəstəyini ifadə edib: "İsrailin keçmiş rabitə naziri kimi mən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qarabağa ərzaq çatdırmaq səylərini dəstəkləyirəm və buna mane olmağa çalışanları pisləyirəm. Cənubi Qafqazda sülhün qorunması üçün hər şeyi edirəm", - deyə o qeyd edib.

"Afrikada Davamlı Biznesin İnkişafı və İnnovasiya" təşkilatının prezidenti, Zambiyadan olan Edvard Mvaba Ndalama qeyd edib ki, Cənubi Qafqaz regionunda yaşayan insanlar sülhə layiqdirlər. "Mən Qafqazda sülhün tərəfdarıyam. Bizə sülh lazımdır ki, onlar harada olurlarsa olsunlar, azad olsunlar. Sülh olmadan iqtisadi azadlığı təmin etmək mümkün deyil", - deyə o əlavə edib.

Dünya Azərbaycan həqiqətlərini, ermənilərin isə "oyunbaz" və hiyləgər olduğunu dərk və qəbul edir. "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar", deyiblər. Biz ermənilərin yenidən müharibə odu, alovu içində yanmasını istəmirik. Biz ermənilərdən sülh üçün uzatdığımız əlimizdən bərk-bərk yapışmalarını, səhvlərini anlayıb Azərbaycanın göstərdiyi doğru yolla getmələrini gözləyirik...

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# R.T.ƏRDOĞAN: "Qərb ölkələri 50 ildir Türkiyəyə verdikləri sözün üstündə durmayıblar"

Qərb 50 ildir ki, Türkiyəyə verdiyi sözü tutmur və ölkənin Avropa Birliyinə daxil olmasını bütün gücü ilə ləngidir. Bu sözləri Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan Hindistandan qayıdarkən təyyarədə jurnalistlərə deyib.


Türkiyənin Avropa İttifaqına üzvlüyündən danışan Rəcəb Tayyib Ərdoğan

Türkiyə Prezidenti bununla bağlı media təmsilçilərinə məlumat verib: "Budur, hörmətli cənab Putin deyir: "Qərb verdiyi vədləri yerinə yetirmədi, ona görə də mən taxıl dəhlizini dayandırdım". Bu nədir? Qərb əlli ildir ki, bizə verdiyi sözünün üstündə durub? Avropa İttifaqı əlli ildir ki, bizi ləngidir".

sentyabrın 10-da Aİ sədri Şarl Mişellə görüşdüyünü xatırladıb və ona hazırkı Türkiyə-Avropa münasibətlərinin belə uzun müddət davam edə bilməyəcəyini deyib.

Yaranmış vəziyyətdən narazılığını bildirən Rəcəb Tayyib Ərdoğan daha sonra yalnız Qərbin Türkiyəni, nəhayət, Aİ-yə qəbul etməsindən sonra İsveçin NATO-ya üzv olacağını da bəyan edib.

Bundan əvvəl Türkiyə Prezidenti Qərb dövlətlərini Rusiyadan gübrə və taxıl tədarükünə qeyri-ciddi yanaşmamağa çağırıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici işlər naziri İsveçrəyə işgüzar səfər edib



Sentyabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfərə yola düşüb.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyası çərçivəsində çıxışı, bir sıra beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Cenevrədəki Ofisinin və digər ixtisaslaşmış qurumların rəhbərləri ilə görüşləri nəzərdə tutulub.

Səfər zamanı həmçinin C.Bayramovun bir sıra tədbirlərdə, o cümlədən BMT-nin Cenevrədəki Ofisində "Azərbaycan" otağının açılış mərasimində iştirakı planlaşdırılır.

# "Azərbaycan-Qazaxıstan: regional əməkdaşlıq" mövzusunda "dəyirmi masa" keçirilib

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) və Qazaxıstanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan-Qazaxıstan: regional əməkdaşlıq" mövzusunda "dəyirmi masa" keçirilib.



AZƏRTAC xəbər verir ki, açılışda çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev iki ölkə arasında münasibətlərin gündən-günə daha da inkişaf etdiyini bildirib. Onun sözlərinə görə, Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıq əlaqələrinin qurulması Azərbaycan xarici siyasətinin prioritet sahələrindən biridir.

Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel iki ölkə arasında əlaqələrin son bir ildə yeni səviyyəyə çatdığını və artıq əlaqələrdə yeni mərhələnin başladığını deyib. O diqqətə çatdırıb ki, bütün bunlar həm də yüksək səviyyəli qarşılıqlı səfərlər hesabına baş verib. Bu baxımdan diplomat ötən ilin oktyabrında Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana, bu ilin aprelində isə Prezident İlham Əliyevin Qazaxıstana səfərlərini qeyd edib. Bildirilib ki, ötən il iki ölkə arasında ticarət dövriyyəsi 40 faiz artaraq 450 milyon dollara çatıb və bu ilin ilk altı ayı ərzində bu rəqəm artıq 300 milyon dollar olub. "Qazaxıstan artıq Bakı-Tbilisi-Ceyhan boru xətti ilə neft ixrac etməyə başlayıb. Biz Azərbaycanla əlaqələrə böyük regional əməkdaşlıq çərçivəsində baxırıq. Azərbaycan və Qazaxıstan regionun vacib ölkələridir", - deyə A.Bayel vurğulayıb.

Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov konfransa videobağlantı vasitəsilə qoşularaq son illər iki ölkə arasında imzalanmış vacib sənədlərə toxunub. O deyib ki, Orta Dəhliz layihəsinin əhəmiyyəti getdikcə daha da artır. Səfir əlavə edib ki, bu layihə nəinki region ölkələrinin, həm də xarici investorların diqqətini cəlb edir. A.Atamoğlanov diqqətə çatdırıb ki, hökumətlərarası komissiya Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlərdə vacib rol oynayır və komissiyanın növbəti iclasının onlayn şəkildə bu ay keçirilməsi nəzərdə tutulub. Həmçinin Zəngəzur dəhlizi barədə danışan diplomat deyib ki, bu xətt Orta Dəhlizin vacib qollarından biridir və onun açılması ümumilikdə bütün regionun rifahına xidmət edəcək.

Qazaxıstan parlamentinin deputatı Aydos Sarım videobağlantı zamanı Qazaxıstan Prezidentinin Parlament palatalarının birgə iclasında xalqa müraciəti barədə danışıb və çıxış zamanı Transxəzər marşrutunun əhəmiyyətinin vurğulandığını deyib. O bildirib ki, bu gün Qazaxıstanla Azərbaycan arasında əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə çatıb və Qazaxıstan hazırda nəqliyyat layihələrinin inkişafına böyük diqqət yetirir.

Azərbaycan parlamentinin üzvü Rasim Musabəyov, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, politoloq Zaur Məmmədov və nəqliyyat sahəsi üzrə ekspert Rauf Ağamirzəyev çıxışlarında əlaqələri geosiyasi, Xəzər dənizi vasitəsilə qonşuluq, dini etnik radikalizmə qarşı birgə mübarizə, Türk dünyasının inteqrasiyası, regional layihələr kontekstində təhlil ediblər.

Tədbir müzakirələrlə davam edib.

# YAP-ın nümayəndə heyəti Çində səfərdədir




Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nümayəndə heyətinin Sincan-Uyğur Muxtar Vilayətinin (SUAR) Xalq Nümayəndələri Məclisinin Daimi Komitəsinin sədr müavini Mehmet Kadir ilə görüşü olub.

Görüşdə çıxış edən Mehmet Kadir Azərbaycan-Çin münasibətlərinin dostluğa və tərəfdaşlığa əsaslandığını, çoxşaxəli əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini söyləyib. O deyib ki, iki ölkə arasında siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin inkişaf etməsi məmnunluq doğurur.

Çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğunu diqqətə çatdıran M.Kadir Çin və Azərbaycanın beynəlxalq məsələlərdə daim bir-birinə dəstək nümayiş etdirdiklərini söyləyib.

Mehmet Kadir Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın, həmçinin gənclər arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən bəhs edib, səfərin bu baxımdan böyük önəm daşıdığını vurğulayıb.

YAP-ın nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan ilə Çinin dost və tərəfdaş ölkə olduqlarını diqqətə çatdırıb, ölkəmizin Çinlə münasibətlərin inkişafına mühüm əhəmiyyət verdiyini söyləyib. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin Çinə səfərini xatırladan Ziyafət Əsgərov bildirib ki, bu gün Azərbaycan-Çin münasibətləri hər iki ölkənin liderlərinin siyasi iradəsi ilə dinamik inkişaf edir. Qeyd edilib ki, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Səmərqənddə keçirilən Sammiti çərçivəsində Çin Sədri Si Cinpinlə görüşü, "Bir kəmər, bir yol" təşəbbüsünün üçüncü Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakı və digər mühüm amillər bu kontekstdə xüsusi vurğulanmalıdır.

Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq ərazi bütövlüyünü bərpa etdiyini diqqətə çatdıran komitə sədri bildirib ki, Azərbaycan Çinin ərazi bütövlüyünə, eləcə də "Vahid Çin" prinsipinə dəstəyini daim ifadə edib və hazırda da bu mövqe dəyişməzdir. Azərbaycanın Çinlə nəqliyyat-logistika sahəsində əlaqələrini dərinləşdirdiyini deyən nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, ölkəmiz Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə dəstəyini ifadə edib. Zəngəzur dəhlizinin reallaşdırılması isə qarşılıqlı faydalı işbirliyini daha da gücləndirəcək.

Z.Əsgərov söyləyib ki, qarşılıqlı səfərlər partiyalararası əlaqələrin inkişafına təkan verir. O, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətindən bəhs edib, YAP-ın gənclərin inkişafına xüsusi diqqət və qayğı göstərdiyini bildirib. Səfərin məqsədinin Çin və Azərbaycan gəncləri arasında qarşılıqlı təcrübə və fikir mübadiləsinin, faydalı əməkdaşlığın təmin edilməsi olduğu vurğulanıb.

Görüş başa çatdıqdan sonra nümayəndə heyəti mədəniyyət və turizm müəssisələrini ziyarət edib.

# Çin şirkəti ilə ölkəmizdə elektrik avtomobillərinin istehsalına dair fikir mübadiləsi aparılıb

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Çinin "Jiubai Import & Export" şirkətinin nümayəndələri ilə görüşüb.



KOBİA-dan AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizdə "yaşıl enerji" və elektrik avtomobillərinin istehsalı, ətraf mühitin qorunmasında əhəmiyyətli olan bu sahələrə investisiya qoyuluşuna dair fikir mübadiləsi aparılıb. Həmçinin görüşdə Çin şirkəti KOBİA-nın biznesə göstərdiyi dəstək və xidmətlər, o cümlədən yerli və xarici iş adamlarının əlaqələndirilməsinə agentliyin dəstəyi barədə məlumatlandırılıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev sentyabrın 11-də Astara şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdən əvvəl nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub. Lerik, Lənkəran, Yardımlı, Masallı, Cəlilabad və Astara rayonlarının sakinlərinin qəbulu zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb. Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

Qeyd edək ki, vətəndaşların qəbulu mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilir.

# Azərbaycan ilə İsrail arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Yol Xəritəsi imzalanıb

Kənd Təsərrüfatı Nazirliyində Azərbaycanda səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixterin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.



Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan kənd təsərrüfatı naziri Məcnun Məmmədov Azərbaycanda aqrar sektora dövlət dəstəyi barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Bildirilib ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Tərəflər aqrar sahədə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını vurğulayıblar.

Görüşdə Azərbaycan və İsrail arasında aqrar sahədə əməkdaşlıq, kənd təsərrüfatı sahəsində ticarət dövriyyəsinin artırılması, heyvandarlıq və toxumçuluq sahələrində ən müasir texnologiyaların transferi, aqrar tədqiqatlar və təcrübə proqramları sahələrində əməkdaşlığın genişləndirilməsi, suvarma sahəsində İsrail təcrübəsi məsələləri müzakirə olunub. Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb. Sonda Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və İsrail dövlətinin Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyi arasında "Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi", eləcə də "2023-2025-ci illər üçün kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Yol Xəritəsi" imzalanıb. Bəyannamədə qeyd olunan sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi niyyəti öz əksini tapıb. Bu sahədə fəaliyyətlərin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə birgə işçi qrupunun yaradılması nəzərdə tutulur.

# "TRT World" telekanalı Qarabağa Böyük qayıdışla bağlı veriliş yayımlayıb

*Əvvəli 1-ci səh.*

Verilişdə yenidən həyat bəxş olunan Ağdam, Şuşa, Laçın, Füzuli, Zəngilana geri dönən yerli sakinlərin təəssüratları, hökumət nümayəndələri, iş icraçıları, ekofəalların görülən işlər barədə fikirləri əksini tapıb.

Verilişdə diqqətə çatdırılır ki, 30 illik işğala 44 günlük Vətən müharibəsi ilə son qoyan Azərbaycan bu gün Qarabağ bölgəsində inamlı Böyük Qayıdış Proqramına start verib. Doğma yurdlarından vaxtilə didərgin düşən məcburi köçkünlər ev-eşiklərinə geri dönür, kənd və şəhərlər müasir üslubda bərpa edilir, Qarabağda əsl yenilənmə prosesi gedir.

Müəllif reportajın əvvəlində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün tarixinə nəzər salıb, müharibə başa çatdıqdan sonra aparılan sülh danışıqları və Ermənistanın, xüsusilə də separatçıların tutduğu qeyri-konstruktiv mövqedən bəhs edib. Sülh danışıqlarına sadiq qalan və xoş niyyət nümayiş etdirən Azərbaycanın bölgənin dirçəlməsi üçün gördüyü işlər geniş planda təqdim olunub, xüsusilə Şuşa, Zəngilan, Laçın və işğaldan sonra torpaqlarına geri dönən digər rayonların sakinlərinin dilindən Vətən sevgisi, torpağa bağlılıq, gələcəyə ümid və bütün baş verənlərə rəğmən, dinc qonşuluq şəraitində yaşamağa hazırlıq barədə fikirlər səsləndirilib. Şuşa və digər yaşayış məntəqələrində dağıdılan mədəni və dini abidələrin bərpa edildiyi əks olunan kadrlarda Şuşada yaradılmış muzeydə hələ Ulu Öndər Heydər Əliyevin dövründə burada müxtəlif mədəni obyekt və abidələrin açılışlarından fotolar nümayiş olunub.

Verilişdə həmçinin Ermənistanla münaqişənin həllinə dair aparılan danışıqlara yer ayrılıb, bu ilin iyulunda Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlərə diqqət çəkilib. Dövlət başçısı tədbirdəki çıxışında Ermənistanı 28 il ərzində beynəlxalq hüquqa riayət etməyə məcbur etməyin mümkün olmadığını və bunun yalnız güc yolu ilə edildiyini vurğulayaraq deyib: "Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır. Bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir".







Reportajda regionda hadisələrin cari inkişafına da diqqət ayrılıb, Qarabağdakı ermənilərin, guya, blokadada olmasına dair ermənilərin beynəlxalq müstəvidə qaldırdığı hay-küy, Azərbaycan sərhədinə humanitar yardım göndərilməsi və ermənilərin Ağdam-Xankəndi marşrutu ilə yükləri qəbul etməkdən imtina etməsinə toxunulub. Qeyd edilib ki, blokadadan şikayətlənən separatçılar Ağdam-Əsgəran yolunu bağlamaqla özləri özlərini blokadaya salıblar və qəsdən Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasının önünə sipər çəkirlər.

Ermənistanın baş naziri Nikol Paşinyanın bu ilin mayında Moskvada keçirilən görüşdə Azərbaycanın Laçın yolunu bağlamasına dair iddialarına Azərbaycan Prezidenti İlham Əliyevin tutarlı cavabı da kadrlarda yer alır. Dövlət başçısı qeyd edir ki, Azərbaycan heç bir dəhlizi blokadaya almayıb və Laçın-Xankəndi yoluna gəldikdə isə həmin yol açıqdır: "Sizin tanıdığınız Ermənistan və Azərbaycan sərhədində bütün beynəlxalq normalara uyğun olaraq nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir. Bu gün həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları Ermənistan tərəfinə sərbəst keçirlər".

Verilişdə ərazilərin minalarla çirklənməsinin dinc əhali üçün yaratdığı təhlükə və qayıdış proseslərinə törətdiyi əngəl barədə məlumat verilib, bununla belə, Azərbaycanın quruculuq və bərpa işlərini əzmlə davam etdirdiyi, məskunlaşma prosesini sürətləndirdiyi qeyd olunub.

Yekunda vurğulanır ki, artıq Qarabağa həyat geri dönür, insanlar öz torpaqlarında yenidən məskunlaşır, şəhər və kəndlər sürətlə bərpa edilir. Qarabağa geri dönən insanlar isə gələcəyə böyük ümidlə baxır, həyatlarını doğma torpaqda davam etdirirlər.

# “Böyük qayıdış” proqramı sürətlə icra olunur

## Daha 92 nəfər doğma yurduna qovuşdu

### Füzuli şəhərinə qayıdan ailələrin sayı 119-a çatdı

Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış sürətlə davam edir. Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın və Füzuli şəhərlərinə məcburi köçkünlərin qayıdışı təmin olunub və bu istiqamətdə işlər sürətlə davam etdirilir.















Dünən Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 24 ailə - 92 nəfər köçürülüb. Bununla da Füzuli şəhərində 119 ailənin, yəni 441 nəfərin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələr Füzuli şəhərində yeni tikilən evlərdə məskunlaşacaqlar.

Bu günədək Füzuli şəhərinə 5 köç karvanı gedib. Avqustun 18-də baş tutan ilk köçdə 90 nəfər - 23 ailə doğma yurdlarına qovuşublar. Avqustun 21-i 68 nəfər - 24 ailə, 22-si 89 nəfər - 23 ailə, sentyabrın 7-si isə 102 nəfər - 25 ailə əzəli torpaqlarına qayıdıblar.

#### "Doğma elə qayıdırıq"

Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər. Doğma yurduna qovuşan Aygün Quliyeva deyib ki, həyat yoldaşı Füzulinin ilk şəhidlərindəndir. İlk arzusu şəhərə çatan kimi yoldaşının məzarını ziyarət etməkdir. A.Quliyeva Füzuliyə qayıtdığı üçün çox sevindiyini bildirib: "Uzun müddətdən sonra doğulub boya-başa çatdığımız yerlərə qayıtmaq gözəl hisslərdir, hazırda onun həyəcanını yaşayıram. Bu günləri bizə yaşadan şəhidlərimizə rəhmət, qazilərimizə isə cansağlığı arzulayıram".

Sumqayıt şəhərində müvəqqəti məskunlaşan İsmayıl Nəsirov deyib ki, onun üçün məcburi köçkünlük həyatı sona çatır: "Çünki biz doğulduğumuz yurda qayıdırıq. Azad olunduqdan sonra ilk dəfədir Füzulidəyəm. Bundan sonrakı həyatımı və işlərimi burada davam etdirəcəyəm. Çox həyəcanlı və sevincliyəm".

30 ildir ki, bu günü gözlədiyini deyən Füzuli sakini Elxan Abdullayev bildirib ki, sevincinin həddi-hüdudu yoxdur: "Çünki uzun həsrətdən sonra Füzuliyə qayıdıram. Allaha şükürlər olsun ki, doğma yurda köçmək mənə nəsib oldu. Bu günləri gördüyüm üçün çox xoşbəxtəm".

#### Bu günədək iki mindən çox keçmiş məcburi köçkünün həsrətinə son qoyulub

Böyük qayıdış çərçivəsində indiyədək 108 ailə (526 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 247 ailə (956 nəfər) Laçın şəhərinə, 119 ailə (441 nəfər) Füzuli şəhərinə, 20 ailə (88 nəfər) Laçın rayonunun Zabux kəndinə köçüb.

Bu günədək 2 min 101 keçmiş məcburi köçkünün həsrət və nisgilinə son qoyulub. Önümüzdəki aylarda bu say daha da artacaq. 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin məskunlaşması nəzərdə tutulur. Bunun üçün Qarabağ və Şərqi Zəngəzurda quruculuq işləri sürətlə həyata keçirilir. Yeni yollar salınır, kəndlərin, yaşayış komplekslərinin əsası qoyulur, məktəblər, xəstəxanalar, bağçalar, bir sözlə, bütün zəruri obyekt və müəssisələr inşa edilir.

Tezliklə Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa nəzarəti ilə bütün keçmiş məcburi köçkünlər əzəli torpaqlarına qovuşacaqlar. Bununla da 30 illik nisgil birdəfəlik bitəcək.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Onlar doğulduqları yerlərə qayıtmaqla tarixi anlar yaşayırlar

Doğma yurduna qayıdan Füzuli sakini İmmi Mustafayeva fərəhini gizlətməyib: "Füzulidən məcburi köçkün düşəndə 35 yaşım var idi. Bu gün 65 yaşımda doğma yurduma qayıdıram. Ötən illər ərzində ermənilərin torpaqlarımızı işğal etmələri nəticəsində çox əziyyətlər çəkmişik, yurd həsrəti ilə yaşamışıq. Şükürlər olsun ki, bu gün arzularımız reallaşır. Torpaqlarımızın işğaldan azad olunmasında əməyi keçən hamıya minnətdarıq".

Köçkünlük müddətində dövlətin qayğısı ilə əhatə olunduqlarını bildirən İ.Mustafayeva Azərbaycan Prezidentinə, ordumuza minnətdarlığını da bildirərək qeyd edib ki, uşaqlığımızı, gəncliyimizi keçirdiyimiz yerləri bizə qaytardı. Biz öz doğulduğumuz yerlərə qayıtmaqla tarixi anlar yaşayırıq.

❖ ❖ ❖



"Bu gün 30 illik ayrılıqdan sonra öz yurdlarına qayıdan füzulililərin timsalında bizim də xoş günümüzdür. Çünki bu gün yurd həsrəti sona çatır. Ermənilərin təcavüzü nəticəsində 37 yaşımda üç uşaqla Füzulidən köçməyə məcbur qalmışdıq. Çox çətin və məşəqqətli günlər idi. Sevinirik ki, həmin anlar geridə qaldı, hazırkı vəziyyəti sözlə ifadə etmək çətindir".

Bu sözləri söyləyən Fəridə Əliyeva da bildirib ki, Azərbaycan Ordusunun tarixi qələbəsi hər zaman yaddaşlarda qalacaq, gələcək nəsillər tərəfindən fəxarətlə xatırlanacaq:



"Biz xoşbəxtik ki, bu tarixin bir hissəsiyik və bundan sonra doğma yurdda - işğaldan azad edilmiş yerlərdə yaşayacağıq. Arzu edirəm ki, azad Azərbaycanın bayrağı hər zaman yüksəklərdə dalğalansın, düşmənlərimiz də baxıb xar olsunlar".



❖ ❖ ❖

Füzuliyə qayıdan keçmiş məcburi köçkün Elnarə Həsənova sevincini gizlətmir: "Çox xoşbəxtik, sevincimizin həddi-hüdudu yoxdur. Çünki doğulduğumuz el-obamıza qayıdırıq. Bu gün Füzuli sakinlərinin otuzillik arzularının reallaşdığı gündür. Düzdür, yurd həsrəti ilə dünyadan köçən yaxınlarımız da oldu, amma bu gün onların ruhu şaddır".

"Torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda çoxlu şəhidlər vermişik, sağlamlıqlarını itirənlər olub, onların haqqı ödənməz. Şəhidlərimizin, qazilərimizin sayəsində torpaqlarımızda azad və firavan yaşayacağıq", - deyə E.Həsənova həm məcburi köçkünlük dövründə, həm də hazırkı vaxtda onlara yaradılan şəraitə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib.

## Daha 24 ailəyə evlərinin açarları təqdim olunub



Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Növbəti köç karvanı ilə Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınan 24 ailə Füzuliyə çatıb.

AZƏRTAC xəbər verir ki, yenidən çiçəklənən Füzuli doğma sakinlərini qarşılamağa davam edir. 24 ailə olmaqla, daha 92 nəfər Füzuli sakini doğma yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük coşqu ilə qarşılanıblar. Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər.

Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alıblar.

Bununla da Füzuli şəhərində 119 ailə olmaqla, 441 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

### *Rəşad HÜSEYN:*

## "Böyük qayıdış əsas prioritetlərimizdəndir"

"Qarabağa "Böyük qayıdış" proqramı çərçivəsində ilk olaraq əhalinin məskunlaşması və məşğulluğunun təmin edilməsi əsas prioritet məsələlərdəndir. Məskunlaşma ilə eyni vaxtda infrastrukturun qurulması, gələcəkdə turizm, nəqliyyat, logistika, kənd təsərrüfatı, emal sənayesi və "yaşıl enerji" istiqamətində görüləcək xeyli işlər var. Adları çəkilən sahələrin hərəkətə gətirilməsi üçün insan resursları potensialına ehtiyac var. Əhalinin məskunlaşması və məşğulluğunun təmin edilməsi üçün geniş perspektivlər mövcuddur".

Bu barədə AZƏRTAC-a iqtisadçı-ekspert Rəşad Hüseyn bildirib.

O, qeyd edib ki, yerli və xarici investisiya hesabına yeni zavod və fabriklərin, o cümlədən turizm infrastrukturunun yaradılması nəzərdə tutulur. İlkin olaraq bölgənin inkişafı üçün yerli investisiya proqramları həyata keçirilir. Gələcəkdə məskunlaşma başa çatdıqdan sonra investisiya mühitini tam şərtləndirən amillərin təmin edilməsi nəticəsində daha böyük həcmdə xarici investisiya gəlməyə başlayacaq. Yaponiya, Böyük Britaniya, İsrail və Avropanın bir sıra ölkələri Qarabağa investisiya yatırmaqda maraqlıdırlar.

Təbii ehtiyatlardan daha səmərəli istifadə etməklə mədənçilik sənayesini də genişləndirmək olar. Belə ki, ərazidə zəngin qızıl, mis, perlit, əhəng, gips, pemza, qum-çınqıl yataqları mövcuddur ki, bunun hesabına kimyəvi məhsullar, o cümlədən tikinti materialları istehsalı üçün geniş xammal mənbələri kimi istifadə etmək olar. Təbii yataqlardan səmərəli istifadə həmçinin xammal idxalından asılılığı da minimumlaşdıracaq. Bunun hesabına ixrac istiqamətli mallar istehsal edib xaricə satmaqla daha böyük həcmdə valyutanı ölkəyə gətirmək imkanları yaranacaq.

Qarabağın relyefinə görə unikallığı turizm sahəsi üçün son dərəcə əlverişlidir. Həm ərazinin təbiəti, həm də tarixi faktorlar bölgəni turizm üçün daha da cəlbedici edir. Hotellərin sayının artırılması, tarixi yerlərin yenidən bərpası, tələb edilən standartlara cavab verən turizm infrastrukturunun qurulması turizm potensialını daha da genişləndirmiş olacaq.

Nəqliyyat və logistika sahələrinin inkişafı xüsusilə önəmlidir. Gələcəkdə Zəngəzur dəhlizi ilə daşınılacaq yüklər Qarabağdan keçərək aparılacaq. Bu səbəbdən də yol infrastrukturunun genişləndirilməsi, yükdaşımalar üçün əlverişli yolların çəkilməsi son dərəcə əhəmiyyətlidir.

"Ən vacib məqamlardan biri ərazidə "yaşıl enerji" istehsalını artırmaq və bunun üçün imkanları araşdırıb ortaya çıxarmaqdır. Ərazidə günəş, su, külək-elektrik stansiyalarının tikilməsi üçün lazım olan imkanlar araşdırılır, bu istiqamətdə tərəfdaş ölkələrlə əməkdaşlıq edilir. Buna misal kimi Zəngilan və Cəbrayılda bp şirkəti ilə Azərbaycan Energetika Nazirliyi arasında 240 Mvt gücündə günəş-elektrik stansiyasının tikilməsi haqqında razılaşmanı göstərmək olar. Bundan başqa, Kəlbəcər və Laçın rayonlarında külək-elektrik stansiyalarının tikilməsi də planlaşdırılır. Kənd təsərrüfatı və heyvandarlıq Qarabağın hər zaman aparıcı sahəsi olmuşdur. Burada kənd təsərrüfatına yararlı torpaqlardan istifadə etməklə taxıl əkinlərinin sahələrini genişləndirmək, o cümlədən meyvəçilik, tərəvəzçilik istiqamətli kənd təsərrüfatı məhsullarını yetişdirib daxili tələbatı təmin etdikdən sonra ixrac edərək ölkəyə əlavə valyuta cəlb etmək mümkün olacaq. Göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının çox geniş inkişaf potensialı var. Köç davam etdikcə, əhali məskunlaşdıqca qarşıda nəzərdə tutulmuş işlər daha sürətlə davam edəcək", - deyə ekspert qeyd edib.



# MÜƏLLİFİ İLHAM ƏLİYEVDİR



**Gənclərin həm karyeralarının uğurlu inkişafı, həm də asudə vaxtlarını daha səmərəli keçirmələri baxımından sosial layihələrdə iştirakı onların gələcək həyatlarında mühüm rol oynayır. Bu baxımdan son illərdə respublikamızda Prezident İlham Əliyevin müəllifliyi ilə geniş vüsət alan könüllülük hərəkatı gənc nəslin cəmiyyətə yararlı və fəal vətəndaş kimi yetişməsinə böyük töhfələr verir.**





# Gənc könüllülərin "ASAN" yolu






















Ölkəmizdə bir çox fəaliyyət sahəsinə nüfuz edərək ümummilli hərəkata çevrilən könüllülük hərəkatı gənclərin qətiyyət hissini gücləndirir, onların özlərini daha yaxşı ifadə etməsinə imkan yaradır. Bu bir daha sübut edir ki, Azərbaycan Prezidenti ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir, onların bilik və bacarıqlarının inkişafı üçün yüksək şərait yaradır. Əlverişli mühit və inamın uğura gedən yolda əsas amil olduğu nəzərə alınaraq gənc vətəndaşlarımızın hədəflərinə çatması məhz Prezident İlham Əliyevin imzaladığı, gənclər siyasətinə xidmət edən müxtəlif dövlət proqramları, fərman və sərəncamları vasitəsilə asanlaşır.

"Onu da bildirməliyəm ki, könüllülər hərəkatı bizdə "ASAN xidmət"dən başlayıb. O vaxta qədər könüllülər hərəkatı yox idi. Bu gün minlərlə könüllü ölkəmizin müxtəlif sahələrində çalışır, işləyir, dövlətə xeyir gətirir", - deyə Prezident İlham Əliyev 2019-cu il dekabrın 5-də Şamaxıda "ASAN həyat" kompleksinin açılışında bildirib. Bu fikirlər Azərbaycanda vətəndaşların işini asanlaşdırmağı özünün başlıca missiyası elan etmiş "ASAN xidmət" mərkəzlərinin bir çox istiqamətdə olduğu kimi, könüllülük proqramının icrasında da lider olduğunu sübut edir. Yarandığı gündən etibarən könüllülük fəaliyyətini ən geniş tətbiq edən dövlət orqanı kimi "ASAN xidmət" bu istiqamətdə də bir sıra uğurlu layihələrə imza atıb. Ümumiyyətlə, Azərbaycanda "Könüllü fəaliyyət haqqında" qanunu ilk tətbiq edən bu quruma 2013-cü ildən etibarən könüllülük prosesinə 33 mindən çox gənc qoşulub.

Bu günlərdə böyük könüllü "ordusuna" malik olan "ASAN xidmət"də fəaliyyət göstərən bu gənclərin iş prosesi ilə yaxından tanış olmaq, onlarla söhbətləşmək üçün 7 saylı "ASAN xidmət" mərkəzinə yollandıq. Elə ilk dəqiqələrdən burada könüllülük proqramının uğurla icra edildiyinin şahidi olduq. Mərkəzə daxil olan kimi bir gənc könüllü tərəfindən gülərüz qarşılanıb, lazım olan istiqamətə üz tutduq.

## Uğurlu olmağın "ASAN" formulu

"ASAN xidmət" mərkəzlərində təhsil səviyyəsindən asılı olmayaraq, 16-26 yaşlı gənclər konullu.asanschool.az saytına müraciət edərək könüllülük fəaliyyətinə qoşula bilirlər. Master 1, Master 2 və digər bölmələrdən ibarət olan ASAN könüllülük hərəkatında Master 1 ikiaylıq təcrübə proqramını ehtiva edir. Həmin könüllülər vətəndaşların qarşılanması, məlumatlandırılması, anketlərin doldurulması və digər istiqamətlərdə fəaliyyət göstərirlər. Master 2-də isə könüllülər müvafiq ixtisaslar üzrə komandalarda çalışırlar. Mərkəzlər üzrə gündəlik olaraq 3 növbədə könüllülük fəaliyyəti təşkil olunur və gənclər istədikləri növbə üzrə fəaliyyətə qoşula bilərlər. Mərkəzlərdə könüllü kimi 2 aylıq müqavilə öhdəliklərini uğurla başa vuran gənclərə xüsusi sertifikat təqdim edilir.

İlk həmsöhbətimiz olan "ASAN könüllüləri" təşkilatının sədri Anar Musayev bizə təşkilatın əsas istiqamət və prinsipləri barədə ətraflı məlumat verir. Həmsöhbətimiz qeyd edir ki, könüllülərin işi sadəcə mərkəzdaxili fəaliyyətləri ilə yekunlaşmır: "Onlar intellektual səviyyələrinin artırılması, müxtəlif sahələr haqqında bilik və bacarıqlarının inkişaf etdirilməsi və asudə vaxtlarının səmərəli dəyərləndirilməsi məqsədilə müxtəlif layihələrə cəlb olunurlar".

Könüllü kimi çalışmağın gənclərin gələcək karyeralarına müsbət təsirlərindən bəhs edən Anar Musayev əlavə edir ki, bu fəaliyyət gənclərin kollektivlə işləmək bacarıqlarını, yaradıcı potensiallarını və dünyagörüşlərini inkişaf etdirir: "Həmçinin onların cəmiyyətdə özünəməxsus yer tutmalarına şərait yaradır ki, bu da gənclər üçün böyük təcrübədir. Uğurlu karyera üçün təcrübənin əhəmiyyətli rol oynadığını nəzərə alsaq, əminliklə deyə bilərik ki, könüllü fəaliyyət də gənclərə bu təcrübəni əldə etməyə imkan yaratdığı üçün unikal seçimdir".

İndiyədək "ASAN könüllüləri" təşkilatı vətənpərvərlik, təhsil, ekologiya, sosial, mədəniyyət, eləcə də fərdi inkişaf sahələri üzrə 5000-dən çox təlim keçərək, 750-dən çox yerli və beynəlxalq layihə icra edərək, 100 mindən çox gənci ətrafında birləşdirmişdir.

Anar Musayevin sözlərinə görə, gənclərin inkişafına və ideyalarının reallaşdırılmasına hesablanmış bütün bu işlər onların cəmiyyətdə özünəməxsus yer tutmalarına şərait yaradır. Üzvlərinin sayı otuz mini keçən təşkilat gənclərin dünyagörüşünün və motivasiyasının artırılması, vətənpərvərlik hisslərinin və dövlətçilik dəyərlərinin yüksəldilməsi məqsədilə mütəmadi olaraq müxtəlif tədbirlər təşkil edir, çoxsaylı layihələr həyata keçirir. Bu günədək təşkilat tərəfindən 750-dən çox yerli və beynəlxalq layihə icra edilib".

Təşkilatın sədri həmçinin "ASAN könüllüləri"nin mədəniyyət və incəsənət sahəsində maraq və bacarıqlarını inkişaf etdirmək məqsədilə fəaliyyət göstərən "Mədəniyyət çarçısı" proqramı barədə də danışdı. Bildirdi ki, proqram çərçivəsində tamaşalar, konsertlər, master-klasslar, bədii gecələr, müsabiqələr və sair həyata keçirilir. Bu günə kimi proqrama əsasən, 150-dən çox layihə, 70-dən çox teatr tamaşası baş tutub. Milli-mədəni irsimizin qorunmasına xidmət edən "Mədəniyyət çarçısı" proqramı çərçivəsində indiyədək 800-dən çox master-klass, 80-dən çox sərgi, bədii şeir gecəsi, müxtəlif konsert proqramları və kompozisiyalar təşkil olunub.

"ASAN xidmət"də könüllü kimi fəaliyyət göstərən gənclərin bəziləri daha sonra burada və ya digər dövlət qurumlarında çalışmaq imkanı əldə edirlər. Bu imkanı əldə edən gənclərdən biri də Könül Tağıyevadır. Hazırda mərkəzdə Vətəndaşların qəbulu işinin təşkili sektorunun baş məsləhətçisi vəzifəsində çalışır, daha çox könüllülərlə iş aparır. Yeddi il əvvəl özü də könüllü olduğuna görə onun üçün gənclərlə işləmək həm rahat, həm də daha məsuliyyətlidir. Könül xanım bildirir ki, mərkəzə müraciət edən vətəndaşlar könüllülərə etibar etməkdən çəkinmir. Çünki könüllülük fəaliyyətlərinin ilk 15 günündə onlara vətəndaşlarla təmkinli davranmağın, lazım olan andaca onlara kömək göstərməyin vacibliyi aşılanır.

"Könüllülərimiz yaxşı başa düşürlər ki, xidmət yerlərindən asılı olmayaraq, onlara kömək üçün müraciət edən vətəndaşlara düzgün istiqamət verməli, lazım gələrsə, xidmət yerlərindən ayrılmalıdırlar. Çünki könüllü gənclər ASAN mərkəzlərinin əsas hədəfi olan vətəndaş məmnunluğunun təmin edilməsinə dəstək verməlidirlər. Bu məqamda gənclərin işini asanlaşdıran könüllülük proqramının üzvü olan gənclər də elə "ASAN xidmət"in işini asanlaşdırırlar. Həmin gənclərin "ASAN xidmət"də təcrübə qazanmaq üçün verdikləri əmək onların özünə faydalı olduğu qədər bizim üçün də faydalıdır", - deyə baş məsləhətçi qeyd edir.

Könül Tağıyeva ASAN könüllülərinin peşəkar kadr kimi yetişmələri məqsədini daşıyan və bu yolda onlara dəstək verən "ASAN kadr" - karyera mərkəzi barədə də məlumat verdi: "ASAN könüllülərinin işlə təmin edilməsi məqsədilə yaradılmış "ASAN kadr" karyera mərkəzi artıq 7 ildir ki, fəaliyyət göstərir. "ASAN xidmət" mərkəzlərində könüllü olmuş gənclərin yalnız dövlət xidmətlərinin göstərilməsi deyil, həmçinin şəxsi və karyera inkişafına yönəlmiş fəaliyyətdə iştirakı əsas istiqamətlərimizdən biridir. "ASAN kadr" çərçivəsində bu günə kimi 3300-dən çox gənc işlə təmin olunub".

## Ən gənc "ASAN könüllüləri"

Mərkəzin könüllüləri ilə söhbətləşdikcə "ASAN könüllüləri" təşkilatının əsas missiyasının həyata keçirildiyinin şahidi oluruq. Başlıca hədəfi könüllülərin inkişafına şərait yaratmaqla dövlətimizin dayanıqlı inkişafı üçün çalışan, cəmiyyətə faydalı gənc vətəndaşlar qazandırmaq və ölkəmizin gənclər siyasətinə töhfə vermək olan bu təşkilat missiyasını uğurla reallaşdırır.

Elə "ASAN xidmət"in ən gənc könüllülərindən olan Kərim Hüseynli də "ASAN könüllüləri" təşkilatının hədəf və missiyasının uğurla həyata keçdiyini sübut edir. 16 yaşlı gənc mərkəzdə gün ərzində cəmi 3 saat çalışmaqla həm iş təcrübəsinə yiyələnir, həm də gülərüz komanda ilə bərabər, asudə vaxtını faydalı və əyləncəli keçirməklə cəmiyyətə faydalı vətəndaş kimi formalaşır. Kərim hesab edir ki, çox gənc yaşlarında belə böyük və peşəkar kollektivlə işləmək ona gələcək iş həyatında çox kömək olacaq. Könüllü fəaliyyətinin cəmi ikinci həftəsində olmasına baxmayaraq, o, artıq müəyyən bacarıqlarını inkişaf etdirib, emosiyalarını daha rahat idarə etməyi, vətəndaşlarla daha təmkinli rəftarı mənimsəyib. Mərkəzdə fəaliyyəti müddətində müxtəlif yaşlarda, xarakterdə, hər kateqoriyaya aid insanlarla rastlaşdığına görə xüsusilə ünsiyyət bacarıqlarını təkmilləşdirən könüllü bu proqrama müraciət etməsinin səbəblərindən də danışdı. Bildirdi ki, "ASAN xidmət" mərkəzlərindən vətəndaş olaraq hər zaman məmnun qalması onu bu qurumda könüllülük fəaliyyətinə daha da həvəsləndirib. "Bu mərkəzə vətəndaş kimi gələndə bizi adətən məndən cəmi bir neçə yaş böyük olan könüllülər qarşılayırdı, istiqamət verirdi, gülərüzlə də yola salırdılar. Bu, məndə xüsusi həvəs yaratmışdı ki, 16 yaşım olanda mən də "ASAN xidmət"də könüllü kimi fəaliyyət göstərim", - deyə Kərim söyləyir.

Söhbət əsnasında məlum olur ki, mərkəzin könüllülər komandasının ən gənc üzvünü bu proqrama həvəsləndirən digər səbəb isə uğurlu məzunlara "ASAN xidmət" tərəfindən sertifikatın təqdim edilməsidir. Nəzərə alsaq ki, həmin sertifikatlar gənclərin ölkədə könüllüklə bağlı ala biləcəkləri ən yaxşı sənəddir, deməli, Kərimlə razılaşmaq olar. Onun sözlərinə görə, belə sertifikatlar xaricdə təhsil şansı əldə etmək üçün də əla fürsət yaradır.

Mərkəzin ən gənc könüllüsü sonda həmyaşıdlarına müraciət edərək bildirir ki, öz hədəflərini milli dəyərlərimiz ətrafında müəyyənləşdirən hər bir gənc uğurlu gələcək naminə ASAN könüllüsü olaraq məqsədlərinə daha rahat çata bilər. Bu barədə Azərbaycan Prezidenti də dəfələrlə bildirib ki, "bizim gənclərimiz xalqımızın əsrlərboyu yaratdığı dəyərləri gələcəkdə qorumalıdırlar, necə ki biz qoruyuruq. Məhz o təqdirdə biz öz milli mənliyimizi, ləyaqətimizi saxlaya bilərik, qoruya bilərik". Dövlət başçısının bizə verdiyi bu dəyərli tövsiyələri reallaşdırmaq, xalqımıza layiqli vətəndaş kimi formalaşmaq üçün "ASAN könüllüləri" təşkilatı ölkəmizdə icra olunan ən perspektivli layihədir.

"ASAN xidmət"də artıq bir aya yaxındır ki, könüllü olan Muhammed Məmmədov da bildirir ki, gənc yaşda dövlət qurumunda qazandığı xüsusi bilik və bacarıq onun gələcəyinə yatırım hesab edilə bilər. Universitetdə ikinci kurs tələbəsi olan həmsöhbətimiz vurğulayır ki, o, mərkəzdə dövlət qurumlarının fəaliyyəti və strukturu ilə yaxından tanış olur, vətəndaşlara müxtəlif xidmətlər göstərir, onlarla davranış qaydalarını və sənədləşdirmə prosesini öyrənir, həmçinin sorğularda iştirak edərək korporativ mədəniyyəti də mənimsəyir. Məhəmmədin sözlərinə görə, bu, ASAN könüllülərinə özlərinə məxsus uğurlu ideya və təşəbbüsləri həyata keçirməyə də imkan yaradır.

Bu il tələbə adı qazanan Ayxan Ağayev də bir aydır ki, "ASAN xidmət"də təcrübə qazanır, bilik və bacarıqlarını təkmilləşdirir. Tələbə olmağının sevincini yaşayan bu gənc universitetin elə ilk kursuna ASAN təcrübəsi ilə başlayacağına görə çox məmnundur. O, qeyd edir ki, nəinki ölkəmizdə, eləcə də dünyanın bir çox yerində brend kimi tanınan "ASAN xidmət"də təcrübə əldə etmək gələcək fəaliyyətlər üçün çox önəmlidir. Burada vətəndaş məmnunluğunun hər şeydən üstün tutulması daha nizamlı-intizamlı olmağımıza, yanlış davranışlarımızı düzəltməyimizə səbəb olur ki, bu da tələbəlik illərində və sonrakı həyatda ona çox kömək olacaq.

Gənclərlə söhbətimizdən aydın oldu ki, onların "ASAN xidmət"də könüllü olmaq üçün səbəbləri və gözləntiləri bir-birindən müəyyən qədər fərqlənsə də, şəxsi inkişafları üçün bir sıra təlim və seminarların keçirildiyi, ən kiçiyindən tutmuş ən böyüyünə qədər bütün ehtiyaclarının qarşılandığı, onlara hər addımda diqqət göstərildiyi üçün məhz dövlət başçısına minnətdardırlar. Könüllülərin sözlərinə görə, onlar bir gənc olaraq hər zaman Prezidentin diqqət və qayğısını hiss edirlər.

## İntellektual məhsul nümunəsi

Əməkdaşların, eləcə də könüllülərin təbəssümlərinin müşayiəti ilə mərkəzdə xoş qarşılanan və razı yola salınan vətəndaşları gördükcə hər il yüzlərlə gəncin "ASAN xidmət" mərkəzlərinə könüllülük üçün müraciət etmələrinin səbəbləri bizim üçün bir daha aydın oldu. Təsadüfi deyil ki, gənclər boş vaxtlarını bu mərkəzlərdə keçirməkdən, burada bacarıqlarını, istedadlarını və intellektlərini inkişaf etdirməkdən məmnun olurlar. Bu il aprelin 18-də Salyanda "ASAN xidmət" mərkəzinin açılış mərasimində Prezident İlham Əliyevin dediyi kimi, "ASAN xidmət" bizim, o cümlədən intellektual məhsulumuzun bir nümunəsidir". Burada könüllü olan gənclərin xüsusilə sonrakı iş həyatlarında uğurlu kadr kimi fərqlənmələri bunu bir daha sübut edir. Bu həmçinin dövlət başçısının Şamaxıda "ASAN həyat" kompleksində könüllülərlə görüşündə bildirdiyi "Bu proqramdan keçən gənclər artıq gələcək həyatda da belə olacaqlar" fikrini təsdiq edir.

*Nəzrin QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# AZƏRBAYCAN 105



## Yazılanlar bu gün də aktualdır

**1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra onun fəaliyyətinin işıqlandırılması üçün mətbu orqana ciddi ehtiyac var idi. Bu missiyanı ilk olaraq "Azərbaycan" qəzeti öz üzərinə götürdü. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti ideyalarını təbliğ edən, hökumətin daxili və xarici siyasətini oxuculara vaxtında və yüksək peşəkarlıqla çatdıran ilk mətbu orqanı "Azərbaycan" qəzeti oldu. "Azərbaycan" qəzeti hökumətin orqanı kimi əvvəlcə Gəncədə həftədə iki dəfə, sonralar isə Bakıda Azərbaycan və rus dillərində gündəlik nəşr edildi.**

# Qərbi Azərbaycan "Azərbaycan" (rusca) qəzetinin səhifələrində

"Azərbaycan" qəzetinə müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli və Xəlil İbrahim redaktorluq etmişlər. 1918-ci il noyabrın 28-dən etibarən qəzetin rusca nəşrinə Şəfi bəy Rüstəmbəyli redaktorluq etmişdir.

Bu məqalədə "Azərbaycan" qəzetinin yalnız rusca dərc edilən nüsxələrinin materiallarına istinad edilmişdir.

Qəzetdə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiası, Zəngəzur, Naxçıvan və Qarabağda Azərbaycan xalqına qarşı törədilən kütləvi qırğınlar, Ermənistan Respublikası ərazisində yaşayan azərbaycanlıların kütləvi surətdə məhv edilməsi və tarixi torpaqlarından silah gücünə qovulması haqqında çoxlu məlumatlar işıq üzü görürdü. Qəzet həmçinin Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyinin fəaliyyətini də müntəzəm olaraq işıqlandırmışdır.

Məlumdur ki, 1918-ci il mayın 28-də keçmiş İrəvan xanlığının ərazisində ilk erməni dövləti - Ermənistan (Ararat) Respublikası yarandıqdan sonra rəsmi dövlət orqanları aborigen azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirmişdir. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 31-də keçirilən iclasının qərarı ilə İrəvan şəhəri o şərtlə Ermənistan Respublikasına paytaxt kimi güzəştə gedilmişdi ki, Azərbaycana qarşı ərazi iddiasından əl çəksin. Lakin Ermənistan hökuməti nəinki vədinə əməl etmiş, əksinə həm Azərbaycan Respublikasının ərazilərinin işğalını, həm də İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirmişdir.

Bütün bunlar "Azərbaycan" (rusca) qəzetinin diqqət mərkəzində saxladığı əsas mövzulardan idi.

Qəzetin 1918-ci il sentyabrın 19-da çapdan çıxmış ikinci sayında Şəfi bəy Rüstəmbəyli "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksütyun" partiyasının şovinist siyasətini tənqid edərək yazırdı: "Bizim üçün vacibdir ki, erməni xalqı, nəhayət, "Daşnaksütyun" partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, hələ nə qədər ki gec deyil, ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır". Şəfi bəy Rüstəmbəylinin yüz il öncə yazdığı sözlər bu gün də aktualdır. Müasir Ermənistanın yeritdiyi avantürist siyasət, Azərbaycan və Türkiyəyə qarşı ənənəvi düşmənçiliyi onun bir dövlət kimi müstəqilliyini sual altına qoyur.

"Azərbaycan" (rusca) qəzetinin 1918-ci il 25 sentyabr tarixli sayında "Q. M." imzası ilə dərc edilən məqalədə qeyd edilir ki, İrəvan quberniyasında müsəlmanların vəziyyəti təsvirəgəlməzdir. Məqalədə cari ilin aprelində dağıdılmış müsəlman kəndlərinin sayının 199-a çatdığı, bu kəndlərin 135 min nəfər əhalisinin bir hissəsinin ermənilər tərəfindən qətlə yetirildiyi və acından öldüyü, bir hissəsinin isə türk qoşunlarının tutduğu yerlərə köçdüklərini yazır. Həmin məqalədə qeyd edilir ki, ermənilər "Böyük Ermənistan" qurmaq məqsədilə türk-müsəlman əhaliyə qarşı etnik təmizləmə həyata keçirir və həmin ərazilərdə erməni qaçqınlarını məskunlaşdırırlar.

30 oktyabr 1918-ci ildə imzalanan Mudros sazişinə əsasən, türk qoşunları Cənubi Qafqazdan 1914-cü il Rusiya-Türkiyə sərhədlərinə geri çəkilmək məcburiyyətində qalmışdı. Bu fürsətdən istifadə edən Ermənistan ordusu Qərbi Azərbaycan ərazisində kütləvi qırğınlar törətməyə başlamışdı.

Erməni korpusunun komandanı general Andranikin qoşunu Şərqi Anadoludan geri çəkilərək 1918-ci ilin avqustundan Zəngəzura daxil olmuş, oradan Qarabağa hücum edərək erməni separatçı dəstələrlə birləşmək istəyirdi. Oktyabr ayında "Azərbaycan" (rusca) qəzetində Xəlil İbrahimin imzası ilə "Qarışıq günlərdə Qarabağın vəziyyəti" başlıqlı silsilə məqalələr dərc edilmişdir. Məqalədə Qafqaz islam ordusunun əsgər və zabitlərinin Qarabağdakı erməni separatizminə qarşı həyata keçirdikləri tədbirlərdən, ermənilərin Azərbaycan hakimiyyətini tanımalarından bəhs edilir.

1919-cu il yanvar ayının əvvəlində Azərbaycan xarici işlər nazirinin müavini Adil xan Ziyadxanovun imzası ilə Ermənistan xarici işlər nazirinə nota göndərilir. Yanvarın 7-də qəzetdə "Qarabağ-İrəvan faciəsi" başlığı altında dərc edilən həmin notada bildirilirdi: "İrəvan quberniyasında çoxsaylı erməni silahlı qüvvələri tərəfindən müsəlmanlar zorakılığa məruz qalır, şəhərlərdə və kəndlərdə onlar tərksilah edilir, öldürülür və qarət edilir, zor gücünə onları özlərinə tabe etdirməyə çalışırlar... Alınan məlumatlara görə, təkcə ermənilərin təqibindən yaxa qurtarmaq üçün Araz çayını keçmək istəyərkən boğulanların sayı 300 nəfərə çatır". Notada həmçinin erməni silahlı qüvvələrinin İrəvan quberniyasındakı Azərbaycanın mübahisəsiz ərazilərində zorakılıqlara və hərbi əməliyyatlara son qoyulması Ermənistan hökumətindən tələb edilirdi. Azərbaycan hökuməti Ermənistan Respublikasında müsəlmanlara qarşı edilən zorakılıqları onun nəzərinə çatdırır və İrəvan quberniyasındakı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan ərazilərin erməni silahlı qüvvələri tərəfindən ələ keçirilməsinə etiraz edir.

"Azərbaycan" qəzeti müntəzəm olaraq Azərbaycan və rus dillərində parlamentin iclaslarının stenoqramlarını dərc edirdi. İrəvan quberniyasından gələn xəbərlər o qədər ciddi və həyəcanlı idi ki, Azərbaycan parlamenti 8 yanvar 1919-cu ildə keçirdiyi 7-ci iclasında İrəvan quberniyası müsəlmanlarının əhvalı haqqında məsələ müzakirə etmişdi. Həmin iclasda İrəvan quberniyası müsəlmanlarının təmsilçilərinin imzası ilə yanvarın 4-də Azərbaycan parlamentinin sədrinə ünvanlanmış müraciətin mətni oxunmuşdu. Müraciətdə İrəvan quberniyasında erməni qoşunlarının törətdikləri vəhşiliklərin miqyası faktlarla sadalanırdı. Qeyd edilirdi ki, 1917-ci ilin dekabrından 1918-ci ilin iyun ayına qədər İrəvan quberniyasında erməni qoşunları tərəfindən 200-dən artıq müsəlman kəndi atəşə tutulub tarmar edilmiş, bunların əhalisi isə qismən qətl, qismən də dağlara qaçıb soyuq və aclıqdan tələf olmuş, 100 minə qədər müsəlman İrəvan quberniyasının başqa yerlərindən köçmüşlər... Daha sonra qeyd edilirdi ki, erməni qoşunları Sürməli qəzasını tamamən, İrəvan, Şərur və Eçmiədzin qəzalarının müsəlmanların məskunlaşdığı mahalını işğal edib Naxçıvan tərəfə yürüş etməkdədirlər. Ermənilər yerli müsəlmanları cismən kəsib, köylərindən çıxarıb İrana hicrət etmək məcburiyyətinə salırlar. Məcburiyyət ilə müsəlmanlardan təmizlənmiş mahallara Türkiyədən gəlmiş erməniləri köçürürlər. Müraciətin sonunda qeyd edilirdi ki, İrəvan quberniyasının bəzi mahallarının tamamilə müsəlmanlar ilə məskun olduğunu, bu mahalların tarixən Azərbaycanın ayrılmaz hissəsi olmasını nəzərə alaraq İrəvan müsəlmanları mövcudiyyətinin mühafizəsi üçün lazım gələn tədbirlərin görülməsini xahiş edirlər. Bu məsələ müzakirə edildikdən sonra Milli Məclis hökumətə tapşırıq vermişdi ki, İrəvan quberniyasında müsibətlərin dayandırılması üçün lazımi tədbirlər görsün.

"Azərbaycan" (rusca) qəzetinin 14 yanvar 1919-cu il tarixli sayında İrəvan quberniyası müsəlmanlarının nümayəndələri adından parlamentin üzvü Mir Hidayət Seyidovun Azərbaycan hökumətinin başçısına ünvanlanmış müraciəti dərc edilmişdir. Müraciətdə qeyd edilirdi ki, Ermənistan hökuməti silah gücünə erməni qaçqınlarını müsəlmanların məskun olduqları ərazilərdə məskunlaşdırır, məqsəd ondan ibarətdir ki, mümkün olan qədər müsəlmanları məhv edərək bütün qəzalardan onları təmizləsinlər ki, Paris konfransında həmin ərazilərin ermənilərə məxsusluğunu sübut edə bilsinlər (Bu, həmin Mir Hidayət Seyidov idi ki, o, 1918-ci il mayın 31-də keçirilən Azərbaycan Milli Şurasının iclasında İrəvanın ermənilərə paytaxt kimi güzəştə gedilməsinə Bağır Rizayev və Nəriman bəy Nərimanovla birgə etiraz etmişdi).




22 yanvar 1919-cu il tarixdə "Azərbaycan" (rusca) qəzetində Zəngəzur qəzasının rəisi Məlik Namazəliyevin teleqramı dərc edilmişdir. Həmin teleqramda qeyd edilirdi ki, Müttəfiq Dövlətlərin Qafqazdakı Ali komissarı V.Tomsonun azərbaycanlılarla ermənilər arasında hər cür düşmənçiliyə son qoymaq barədə verdiyi əmrə zidd olaraq Andranik verdiyi vədə xilaf çıxmış, onun dəstəsi 30-dan artıq müsəlman kəndini darmadağın etmiş və yandırmış, əmlakını talan etmişdir. Qaçıb canını qurtara bilməyənlər vəhşicəsinə doğranmışdır.

"Azərbaycan" (rusca) qəzeti 31 yanvar 1919-cu il sayında yazırdı ki, Məhəmməd xan Təkinski Azərbaycan Xalq Cümhuriyyətinin Ararat Respublikasında diplomatik nümayəndəsi təyin edilmişdir. Diplomatik nümayəndə olduğu dövrdə M.Təkinski İrəvanda özünü cəsarətlə aparır, azərbaycanlı əhaliyə qarşı Ermənistan hökumətinin yeritdiyi etnik təmizləmə siyasətinin qarşısını almağa çalışır, Azərbaycan hökumətinin mümkün köməyinin əldə edilməsinə çalışırdı. O, qırğınların dayandırılması və azərbaycanlı əhalinin hüquqlarının qorunmasına nail olmaq üçün dəfələrlə Ermənistanın baş naziri, xarici işlər naziri, Eçmiədzin katolikosu, müttəfiq dövlətlərin Ermənistandakı missiyasının başçıları ilə görüşmüşdü. Azərbaycanın diplomatik nümayəndəsi M.Təkinskinin fövqəladə işgüzarlıqla göstərdiyi fəaliyyət Ermənistan hökumətini ciddi narahat edirdi. M.Təkinski Ermənistan hökumətinin daxili işlərinə müdaxilə bəhanəsilə Ermənistan hökuməti tərəfindən "persona non grata" elan edilmişdi. M.Təkinskidən sonra görkəmli Azərbaycan yazıçısı və siyasi xadimi Əbdürrəhim bəy Haqverdiyev 1919-cu il avqustun 24-də Azərbaycan Respublikasının Ermənistanda diplomatik nümayəndəsi təyin edilmişdi. Bundan öncə Ə.Haqverdiyev Azərbaycanın Dağlı Respublikasında diplomatik nümayəndəsi olmuşdu.

12 fevral 1919-cu il tarixli "Azərbaycan" (rusca) qəzeti Azərbaycan XİN-in 10 fevral 1919-cu ildə Ermənistan XİN-ə göndərdiyi notanın mətnini dərc etmişdir. Notada bildirilirdi ki, Ermənistan silahlı dəstələri başda erməni zabiti olmaqla Göyçə gölü ətrafında sərhədi keçərək Azərbaycan ərazisinə daxil olmuş, Qızılvəng, Subatan, Zağalı, Şahab və s. müsəlman kəndlərini viran etmişdir. Adları çəkilən kəndlərin kişilərinin bir hissəsini öldürmüşlər, bir hissəsi də qaçaraq canını qurtarmışdır.

"Azərbaycan" (rusca) qəzetinin 27 mart 1919-cu il tarixli sayında M.Təkinskinin martın 24-də Ermənistan hökumətinə verdiyi notanın mətni dərc edilmişdir. Notada qeyd edilir ki, türk qoşunlarının İrəvan quberniyasından geri çəkilməsindən sonra erməni silahlı dəstələri əvvəlcə Naxçıvan üzərinə hücum etmiş, Şərurda müqavimətlə qarşılaşdıqdan sonra isə Vedibasarın və Yuxarı Qarabağların kəndlərinə hücuma keçmiş, bütün dinc müsəlmanları qətlə yetirmişdir.

"Azərbaycan" (rusca) qəzeti 17 may 1919-cu il tarixli sayında Gəncə qəzasının dağlıq hissəsinin 5-ci sahəsinin müsəlman əhalisinin müvəkkili İsmayıl Sultanovun Gəncə qəza rəisinə ünvanladığı 1919-cu il 22 aprel tarixli məlumatı dərc edilmişdir. Məlumatda yazılır: "Aprelin 13-dən etibarən Ararat Respublikasının qoşunları Novo-Bəyazid qəzasının Göyçə rayonunun şərq və şimal bölgəsinin müsəlman kəndlərini təmizləmək məqsədilə hücumlara başlamışdır. İndiyədək Göyçənin 60 minə yaxın əhalisi olan 22 kəndi dağıdılmış, yandırılmış və əhalisi təmizlənmişdir... Ermənistan respublikası öz məqsədinə çatmışdır, artıq Göyçə rayonunda müsəlman qalmamışdır. Novo-Bəyazid qəzasının 84 müsəlman kəndi məhv edilmişdir ki, onlardan da 22-si aprelin 13-20-si arasında dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Söyünquluağalı, Ağkilsə, Zod, Quluağalı, Böyük Qaraqoyunlu, Bala Qaraqoyunlu, Zərzibil, Canəhməd, İnəkdaği, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Böyük Məzrə, Şişqaya, Qayabaşı, Hacı Qərib kəndlərində 15 min evin əhalisinin mal-mülkü talan edilmiş və ermənilərə qismət olmuşdur".

İyunun 23-də A.Ziyadxanov Ermənistan XİN-ə göndərdiyi teleqramda qaçqınlar probleminin həlli və Ermənistanın Azərbaycanla münasibətlərinin nizamlanması üçün hər iki respublikanın nümayəndələrindən ibarət qarışıq parlament-hökumət komissiyasının yaradılmasını təklif etmişdir. "Azərbaycan" (rusca) qəzetinin 3 iyul 1919-cu il tarixli sayında dərc edilən məqalədə Ermənistan XİN-in Azərbaycan hökumətinə 25 iyun 1919-cu ildə göndərdiyi cavab məktubundan iqtibas gətirilir və qeyd edilir ki, Ermənistanla Azərbaycan arasında mehriban qonşuluq münasibətləri qurulması üçün Azərbaycan hökumətinin təklifini qəbul edir və hökumətlərarası qarışıq parlament komissiyasının yaradılmasına razıdır. Hər iki tərəfdən iki nəfər olmaqla və müttəfiq dövlətlərin nümayəndəsinin iştirakı ilə yaradılacaq komissiya Azərbaycanda ermənilərin və Ermənistanda müsəlmanların vəziyyətini yoxlamaq məqsədilə təşkil edilir.

Lakin Ermənistan hökumətinin bu cavabı Azərbaycan hökumətinin başını diplomatik yazışmalarla qatmağa xidmət edirdi. Arxiv sənədləri sübut edir ki, ermənilər bircə gün də olsun işğalçılıq hərəkətlərindən qalmamışlar. "Azərbaycan" (rusca) qəzetində 29 iyun-1 iyul 1919-cu il tarixlərində dərc edilmiş "Ermənistanda müsəlmanların vəziyyəti" məqaləsində deyilir: "Ermənistan Respublikasında müsəlmanların vəziyyəti faciəvidir. İrəvanda gözəl evlərin və bağların böyük əksəriyyəti müsəlmanlara məxsus idi... Türk qoşunları İrəvana yaxınlaşdığı zaman şəhərin müsəlman əhalisi nədənsə qorxaraq şəhəri tərk etmişdi. Onların malına, mülkünə Türkiyədən olan qaçqınlar sahib çıxmışdılar. Ermənistan hakimiyyətini qəbul edən müsəlmanlar şəhərə geri qayıdarkən yollarda erməni silahlıları tərəfindən tamamilə qarət edilmişdilər...Varlı bağlara, gözəl evlərə malik müsəlmanları erməni qaçqınları öz evlərinə buraxmadıqlarından qışdan bu yana məscidlərdə sığınacaq tapmışlar... Ermənistan hökuməti minlərlə qarət edilmiş, ac-yalavac, xəstə müsəlmanları açıq havada yaşamağa məcbur edir...

Müsəlmanların çəkdiyi işgəncələri təsvir etmək çətindir. Çoxları buna dözmür və dəli olurlar... Müsəlmanların evlərini zəbt edən ermənilər onlardan külli miqdarda vəsait aldıqdan sonra evlərini qaytarır və müsəlmanlar bundan sonra sığındıqları məscidlərdən evlərinə qayıda bilirlər.

Ermənistan hökuməti qəsdən və düşünülmüş surətdə erməni qaçqınlarını müsəlman məhəllələrində və evlərində məskunlaşdırır..."

"Azərbaycan" (rusca) qəzeti 29 iyun və 1 iyul 1919-cu il tarixli saylarında yazırdı ki, "əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən Zəngibasar və Gərnibasar rayonlarının kəndləri Ermənistan hakimiyyətini qəbul etdikdən sonra belə erməni qaçqınlarını qəbul etmək məcburiyyətində qalıblar. Onların ərzağı insafsızcasına müsadirə edilir, mal-qarası, müxtəlif bəhanələrlə pulları əllərindən alınır. Müsəlman əhali ucdantutma acından ölür və təxirə salınmadan kömək diləyir. Göyçə və Dərəçiçək rayonlarının əhalisinin vəziyyəti daha ağlamalıdır. Bu rayonların əhalisi Ermənistanın indiki hərbi naziri general Silikovun hərbi dəstələrinin basqınlarına tab gətirməyərək öz ocaqlarını tərk etmişlər".

Qəzetin 29 iyun 1919-cu il tarixli sayında İrəvan şəhərindən qovulan bir azərbaycanlının şahid ifadəsini dərc etmişdir. Həmin ifadədə deyilirdi ki, İrəvan müsəlmanlarının vəziyyəti o dərəcədə acınacaqlıdır ki, şəhərin müsəlmanlar yaşayan hissəsində nəinki gecələr, hətta günün günorta çağı onların üstlərindəki azdan-çoxdan qiymətli paltarlarını çıxarır, həmçinin pullarını və qiymətli zinət əşyalarını əllərindən alırlar. Dişlərinədırnaqlarına qədər silahlanmış erməni gəncləri müsəlmanların evlərinə soxulur və əşyalarını daşıyıb aparırlar. Şahid ifadəsində Ermənistanın paytaxtında baş verən bu işgəncələrə çoxlarının dözməyərək dəli olduqları qeyd edilir.

"Azərbaycan" qəzeti (rusca) 19 iyul tarixli sayında etibarlı mənbələrə istinadən yazırdı ki, iyulun 4-də gecə erməni qoşunları Böyük Vedi, Çimənkənd, Daşdı Goravan, Yengicğə və Vedi-Avşar kəndlərini ağır artilleriyadan atəşə tutmuşdur. Böyük Vedi, Çimənkənd və Goravan sakinləri ağır artilleriyanın və iki zirehli qatarın köməyi ilə məhv edilib. Döyüşlər davam edir. Əhali ingilis missiyasının vasitəsilə Ermənistan hökumətinə təsir göstərməyi xahiş edir.

"Azərbaycan" qəzeti (rusca) 9 iyul 1919-cu ildə "İrəvan və Qarabağ" məqaləsində yazırdı: "Daşnakların İrəvan quberniyasında müsəlman əhaliyə qarşı törətdiyi cinayətlər cəzasız qalıb və nə ictimaiyyətə, nə də mətbuata bəllidir. 1918-ci ilin martında "Bütün müsəlmanlara ölüm" məqsədini elan edən daşnaklar tərəfindən İrəvan quberniyasının Sürməli qəzasının bütün müsəlman kəndləri məhv edilmiş və yandırılmışdır. Qəzanın sakinləri ucdantutma məhv edilmişdir. Quluna, Yaycı, Oba, Qazıqışlaq, Amarat kəndlərinin demək olar ki, bütün əhalisi doğranmışdır. Möcüzə nəticəsində qurtulan 6000 nəfər Dizə kəndinə toplaşırlar ki, Araz çayından keçib İrəvan quberniyasına gəlsinlər. Erməni qoşunları bu kəndi mühasirəyə alıb, əhalini qırırlar. Bədbəxt qurbanların qanını məscidin hovuzuna axıtmışlar... Sürməli qəzasında daş daş üstə qalmayıb...

Digər qəzaların - Novo-Bəyazid, Eçmiədzin və İrəvan qəzalarının müsəlmanlarının vəziyyəti daha acınacaqlıdır. Bu qəzalarda qırğınlar daha qeyri-insani həyata keçirilmişdir. Burada süngülərlə hücum və bombardman edilməklə əsl müharibə gedib. Qəhrəman oğulların sayəsində ermənilərin hücumlarının qarşısı "Qurd qapısı"nda alınaraq, yalnız Şərur və Naxçıvan salamat qalmışdır... İrəvanın və qəzaların kütləvi surətdə Qarsa köçən müsəlman əhalisinin vəziyyəti ermənilərin ora gəlməsindən sonra daha da ağırlaşıb. Onlar Anadolu dağlarında sığınacaq axtarmağa məcburdurlar. Görünür, azsaylı erməni xalqına İrəvan quberniyasında müsəlman əhaliyə törətdiyi dəhşətlərin miqyası kiçik gəlir. Xaricdən aldıqları köməklə daşnaklar İrəvan faciəsini Qarabağda da törətməyə çalışırlar.

Azərbaycandakı ermənilərin vəziyyəti ilə İrəvandakı müsəlmanların vəziyyətini müqayisə etmək maraqlı olardı. Ermənilər bizim respublikamızda tamhüquqlu vətəndaşdırlar. Onlar bütün vətəndaş azadlıqlarından istifadə edirlər, parlamentdə və hökumətdə təmsil olunublar, onların övladlarının təhsili üçün dövlət külli miqdarda vəsait xərcləyir, heç kim onlara toxunmur, onlar digər quberniyalarda özlərinə sığınacaq axtarmırlar. İrəvan müsəlmanlarının isə bir hissəsi məhv edilmiş, bir hissəsi səpələnmişdir və özlərinə heç yerdə sığınacaq tapa bilmirlər.

22 sentyabr 1919-cu ildə Azərbaycan xarici işlər naziri Məmmədyusif Cəfərov Müttəfiq Dövlətlərin Cənubi Qafqazdakı Ali Komissarı V.Haskelə göndərdiyi teleqramda ümid etdiyini bildirirdi ki, Ali Komissar İrəvan quberniyasında baş verən özbaşınalıqlara son qoyulması üçün tədbir görəcək və təqsirkarların cəzalandırılması üçün neytral dövlətlərin təmsilçilərinin iştirakı ilə beynəlxalq istintaq komissiyasının yaradılmasına razılıq verəcək. Bununla bağlı "Azərbaycan" (rusca) qəzeti 14 oktyabr tarixli sayında yazırdı ki, polkovnik V.Haskel Azərbaycan xarici işlər nazirinin müraciəti ilə bağlı Ermənistan hökumətinə sorğu göndərmişdir və Ermənistan hökuməti müsəlman vətəndaşlarına qarşı zorakılıqları təkzib etməmiş və vəd vermişdir ki, yerlərdə bu cür hadisələrin istintaqının aparılması üçün istintaq komissiyası yaradacaqdır.

Azərbaycan hökuməti Qərbi Azərbaycandan qaçqın düşən azərbaycanlıların problemlərinin həlli üçün dəfələrlə parlamentdə məsələ qaldırmış və hökumətə müvafiq tapşırıqlar vermişdir. "Azərbaycan" (rusca) qəzeti 26 oktyabr 1919-cu il tarixli sayında yazırdı ki, hökumətin 15 oktyabrda keçirilən iclasında Ermənistandan gələn müsəlman qaçqınlara maddi yardım üçün 2 milyon manat əlavə vəsait ayrılmışdır.

Lakin Ermənistan hökuməti Xalq Cümhuriyyəti hökumətinin İrəvandakı diplomatik nümayəndəlik vasitəsilə Qərbi Azərbaycandakı yerli azərbaycanlı əhaliyə yardım göstərməsini hər cür vasitələrlə əngəlləməyə çalışırdı. Erməni terrorçuları 1920-ci il martın 8-də səfir Əbdürrəhim bəy Haqverdiyevin diplomatik nümayəndəliyin əməkdaşlarının məsrəfləri və Qərbi Azərbaycanda az miqdarda qalan azərbaycanlı əhali üçün apardığı 5,4 milyon Zaqafqaziya bonunu və 3,4 milyon Azərbaycan bonunu Gürcüstanla Ermənistan arasındakı ərazidə yaradılan neytral zonada qarət etmişdilər. Bundan sonra Ə.Haqverdiyev diplomatik nümayəndə vəzifəsindən istefa etmişdi. "Azərbaycan" (rusca) qəzeti 16 mart 1920-ci il tarixli sayında Hərbi Məhkəmənin sədri Teymur bəy Makinskinin Ermənistan hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilməsi haqqında xəbər dərc etmişdi.

Məhəmməd xan Təkinski və Əbdürrəhim bəy Haqverdiyevin fəaliyyəti kimi, ermənilərin xislətinə yaxşı bələd olan və onların dilini bilən Teymur bəy Makinskinin fəallığı da Ermənistan hökumətini ciddi narahat edirdi. Xüsusi xidmət orqanları onun hər addımını izləyir və bir bəhanə tapıb onu həbs etdirmək istəyirdilər.

Azərbaycan hökuməti İrəvanın yaxınlığındakı Zəngibasar mahalında mühasirə şəraitində yaşayan azərbaycanlı əhalinin ən zəruri ehtiyaclarının ödənilməsi üçün diplomatik nümayəndəliyə ümumi miqdarda 600.000 rubl göndərmişdi. Diplomatik nümayəndəliyin gizli yazışmalarını və şifrəli teleqramlarını ələ keçirən Ermənistanın xüsusi xidmət orqanları bu məsələdən xəbər tutmuşdular. 1920-ci il aprelin 4-də diplomatik nümayəndəliyin əməkdaşlarının Zəngibasara apardıqları pulları Ermənistan kəşfiyyatı ələ keçirmişdi.

Tiflisə gələn T. Makinski həmin vaxt orada olan xarici işlər naziri F. Xoyski ilə görüşmüş, məsələnin mahiyyəti haqqında ətraflı məlumat vermişdi. Yazırdı ki, F.Xoyski bu məsələ ilə bağlı 14 aprel 1920-ci ildə Ermənistanın xarici işlər nazirinə nota göndərmişdi. 25 aprel tarixdə "Azərbaycan" (rusca) qəzetində dərc edilən həmin notada bildirilirdi: "Diplomatik nümayəndəliyimizdən alınan məlumata görə, aprelin 4-də Ermənistan hakimiyyəti tərəfindən Eçmiədzin yolunda 3 "kavas" (yəni diplomatik nümayəndəliyin mühafizəçi-polisləri - N.M.) üzərlərindəki pullarla həbs edilmişlər. Onlarla birlikdə sürücüyə də süni ittiham irəli sürülmüşdür. Ermənistan hökumətinin bu cür hərəkətləri beynəlxalq hüquq normalarına ziddir, ona görə də xahiş edirəm ki, kavasların və sürücünün dərhal azad edilmələri və diplomatik missiyanın maşınının və pullarının geri qaytarılması üçün təcili sərəncam verəsiniz".

"Azərbaycan" (rusca) qəzetinin 27 aprel 1920-ci il tarixli sayında xarici işlər nazirinin müavini Məhəmməd xan Təkinskinin Ermənistandakı diplomatik nümayəndə T.Makinskiyə göndərdiyi təcili diplomatik məlumatında bildirilirdi ki, aprelin 25-də ermənilərin azərbaycanlı kəndlərinə hücumunun qarşısı dərhal alınmalıdır. Təkinski yazırdı ki, Azərbaycan hökuməti məlumat almışdır ki, Novo-Bəyazid erməniləri Basarkeçərin Şişqaya kəndinə hücum edərək sakinlərini öldürmüşlər və hazırda Cil kəndi üzərinə hücuma keçmişlər. Makinskidən tələb edilirdi ki, ermənilərin hücumlarının qarşısının alınması üçün dərhal tədbirlər görsün və bu barədə beynəlxalq komissiyaya məlumat versin.

Lakin həmin gecə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və Cümhuriyyətin mətbu orqanları öz fəaliyyətlərini dayandırdılar. Lakin bu gün həmin qəzetlər Qərbi Azərbaycan haqqında ən dolğun informasiya mənbəyi hesab edilirlər.

1918-1920-ci illərdə Azərbaycan və rus dillərində nəşr edilən "Azərbaycan" qəzetini Cümhuriyyət dövrünün salnaməsi hesab etmək olar. Nə yaxşı ki hazırda ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə 1918-1920-ci illərdə nəşr edilmiş "Azərbaycan" qəzetinin Azərbaycan dilində nüsxələrinin tam külliyyatı Türkiyədə yaşayan soydaşlarımız Mehdi Gəncəli və Azad Ağaoğlunun ərəb qrafikalı əlifbadan kiril qrafikalı müasir Azərbaycan əlifbasına transliterasiyası ilə 20 cilddə kitab şəklində çap edilir. Yaxşı olardı ki, "Azərbaycan" qəzetinin rus dilində olan nüsxələri də transliterasiya edilərək müasir rus qrafikası ilə çap edilsin. Çünki tədqiqatçıların buna çox böyük ehtiyacı var.

***Nazim MUSTAFA,***
***Prezident Kitabxanasının şöbə müdiri,***
***tarix üzrə fəlsəfə doktoru***

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 yanvar (Bazar günü) tarixli 79-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 2 rəbiülaxir sənə 1337.
5 kanuni-sani sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

**Daxiliyyə Naziri**

Müstədini [ərizəçini] qəbul edir, düşənbə [bazar ertəsi], caharşənbə [çərçənbə] və yekşənbə [bazar] günləri səhər saat 11-dən.

*T-1 3-1*

## BAKI, 5 KANUNİ-SANİ [YANVAR]

### Müstəqil mətbuat lüzumiyyəti

Azərbaycanın paytaxtı olan Bakı şəhərində bu axır vaxtlarda dürlü-dürlü qəzetələr intişara [nəşrə] başlamışlardır. Hal-hazırda şəhərimizdə türk və rus "Azərbaycan" qəzetələrindən başqa mövcud qəzetələr bunlardır: "Yedinaya Rossiya" - Bakı Rus Milli Komitəsinin naşiri-əfkarı [orqanı]; "Znamya truda" - Rus İctimaiyyu-ni-İnqilabiyyun [Sosialist İnqilabçılar] firqəsinin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı]; "İskra" - İctimaiyyuni-Amiyyun [Sosial-Demokrat] firqəsinin qəzetəsi; "Naşe vremya" - erməni "mötədil" məhafilinin [dairələrinin] orqanı; "Vperyod" – "Daşnaksutyun" firqəsinin naşiri-əfkarı. Dün [dünən] "Mer orer" namında erməni dilində dəxi bir qəzetə çıxmağa başladı.

Şəhərimizdə çıxan məzkur [adı çəkilən] qəzetələr, ümumən Azərbaycan Cümhuriyyərinə zidd olub, hər gün öz səhifələrini istiqlal və istiqbalımıza [gələcəyimizə] müxalif olan məqalat [məqalələr] və əxbarat [xəbərlər] ilə doldururlar. Bu müxasim [düşmən] qəzetələr müqabilində Azərbaycan türk və islamlarının əlində yalnız üç qəzetə var idi ki, türkcə "Azərbaycan"dan masiva [başqa], rusca "Azərbaycan" və "Kaspi"dən ibarət idi. Lakin Azərbaycan türk və islamları mənafeyini pək qızğın və ciddi surətdə müdafiəyə çalışan "Kaspi" qəzetəsi rusların və ruspərəstlərin xoşuna gəlmədiyindən dolayı, naşirləri tərəfindən yenə də əcnəbilər əlinə verilmişdir. Bu isə həmin qəzetənin məslək və vəziyyətini zahirən bir qədər "qeyri-müəyyən" buraxmışsa da, lakin dürüst fikir etdikdə qəzetədən, yenə də həman "Vahid Rusiya" qoxusu gəlməsi aşkardır.

Deməli, türki və rusi [türk dilində və rus dilində] "Azərbaycan" qəzetələri indilikdə yeddi müxasim qəzetələr müqabilində [qarşısında] durub, onların yazdıqları böhtanlara cavab verib, yürütdükləri batil və naqis fikirləri faş və rədd etməlidirlər. Lakin burasında da dəxi bir qədər müşkülata uğraşırız.

Əvvəla, türkcə "Azərbaycan" Bakıda istemal olunan [işlənən] ümumi və hətta bir paralarınca "rəsmi" ədd [hesab] edilən bir dildə yazılmadığına binaən [görə], düşmənlərin təərrüzləri [hücumları] mü-qabilində etdiyi əks-təərrüz nə düşmənlərin və nə də əcnəbi məhafilinin [dairələrin] qulaqlarına yetişməyir.

Saniyən [ikincisi], hər iki qəzetələr rəsmi olduqlarına görə, həm nəzakət, həm də siyasət nöqteyi-nəzərincə bir qədər ehtiyatla dolanmağa məcburdurlar. Buna görə də hər bir məsələdən burada bəhs etmək bəzən namünasib görünür, böylə olduğu surətdə bizim düşmənlərimizin səslərinə müqabilən zəif çıxır. Mətbuatın əfkar və arayi-ümuma [ictimai fikrə və ictimai rəyə] nə dərəcə təsir və nüfuzu olduğu da hər kəsin məlumudur. Bu halət isə, əfkari-amməni [ictimai fikri] birtərəfli təşviqat nəticəsində əleyhimizə qaldıracağı bədihidir [açıq-aydındır]. Böylə olduqda, Azərbaycan türk və islamları mənafeyi nöqteyi-nəzərindən lazım gəlir ki, bizim səsimiz düşmənlərimizə müqabil zəif çıxmasın. Bu isə mətbuatımızın çoxalması ilə ola bilər.

Hal-hazırda rus dilində olmaq üzrə milli mənafeyimizi müdafiə edəcək bir neçə qeyri-rəsmi qəzetəyə əşəddi-ehtiyacımız [şiddətli ehtiyacımız] vardır. Heç olmasa, bir dənə olsa da, yenə də bunun böyük əhəmiyyəti vardır.

Şəhərimizdə, Allaha şükür, zəngin adamlar az deyildir. Bunların öz istiqballarıyolunda bir qədər paradan keçə biləcəkləri dəxi mümkündür. İştə ziyalılarımızın nəzərlərini bu mühüm nöqtəyə cəlb edib də, ümidvar oluruz ki, onlar məmləkətimizin rifah və səadəti üçün bu fikri qövldən feilə [sözdən işə] gətirməklə və düşmənlərimizin ağızlarını yummaqla ümumu minnətdar edərlər. Bu iş bir azacıq hümmət və fəaliyyətə bağlıdır.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter, 4 kanuni-sani [yanvar])*

* Klemanso Məclisi-Məbusanda bəyan etmişdir ki, fransız qoşunları müharibəsiz Odessaya girmişlərdir.

* Anlaşılır ki, lehlər [polyaklar] Poznan vilayətini təzədən Lehistana [Polşaya] bitişdirməyə qərar vermişlərdir. Onlar müvəqqət olaraq Poznanı işğal etmişlərdir. Lakin, almanlar yenə üstün gələrək idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət rejimi] elan etmişlərdir.

* İngiltərə Hökuməti, Müttəfiqlər qoşununu Almaniyadan geri aparmaq üçün Şelda çayından istifadə etmək istəyirdi. Şimdi Hollandiya Hökuməti İngiltərənin bu arzusuna əməl edərək Şeldanı güzəşt etməyə razı olmuşdur.

### Bolşeviklərlə müharibə

*(İngiltərə rəsmi xəbəri)*

Dekabrın 29-unda dörd dənə müsəlləh [silahlı] [gəmi] İngiltərə komandası altında şimal-şərqi Qafqaziyada əməliyyatda bulunan bolşevik qüvvələrinin ümdə ərzaq üssülhərəkəsi [bazası] olan Staro Tereçniyə yaxınlaşıb, orada olan bolşevik qoşunlarının təslimini tələb etmişlərdir. Bolşeviklər təslim olmaqdan imtina etdiklərinə görə gəmilər atəş açıb qışlaları [kazarmaları], anbarları dağıtmaqla bərabər bir neçə barj dəxi qərq etmişlərdir. Gəmilər bir dənə bolşevik gəmisini də tutub özləri ilə aparmışlardır.

**Amerikanın rəyi**

Amerika Hökumətinin Bəhriyyə naziri [Donanma naziri] Daniels, Bəhriyyə Komitəsinə üç illik məramnamə qəbulunu təklif etmişdir. Bu şərtlə ki, hərgah, təslihatın [silahlanmanın] ixtisar edilməsi haqqında beynəlmiləl saziş hüsula gəldikdə, Vilson başlanmış işləri dayandırma ixtiyarına malik olacaqdır. Bu münasibətlə aşkar olmuşdur ki, Vilsonla İngiltərə nümayəndələri arasında davam edən müzakiratda Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsində əsasi saziş vardır. Müttəfiq dövlətlər Cəmiyyəti-Əqvam məsələsini[n] sülh müqavilənaməsinin ümdə nəticəsi kimi vücuda gətiriləcəyinə ümidvardır.

## GÜRCÜ-ERMƏNİ MÜHARİBƏSİ

*(Gürcüstan Ərkani-hərbindən)*

* Dekabrın 28-ində, səhər, bizim əsgərlərimiz Sadaxlını işğal etmişdir. Geri çəkilməkdə olan düşmən təqib edilir. Yekaterinenfeld dəstəmiz hücuma keçib, əməliyyatın genişlənməsinə əlverişli olan bir neçə sövqülceyş [stratejik] məntəqələri zəbt etmişdir. Şüləverdə bizim əsgərlərimiz düşməndən dörd top və on pulemyot almışlardır.

* Dekabrın 31-ində Tiflisdən xəbər verirlər ki, dünən Yekaterinenfeld cənubunda müharibədən sonra iki mühüm hündürlük bizim əlimizə keçmişdir. Bu gün müharibə davam edir. Səhər düşmənin az bir hissəsi Axıska sərhədini keçmək istəmişsə də, tüfəng atışı ilə geri qaytarılmışdır. Cəbhənin qeyri yerlərində təbəddülat [dəyişiklik] yoxdur. Dünən saat 11-də Sadaxlı mövqeyi əsgərlərimiz tərə findən işğal edilmişdir.

**Könüllü müsəlmanlar**

Tiflisdə yaşayan müsəlmanlardan təşkil edilmiş könüllü dəstəsi Gürcüstan milli bayrağı ilə Baryatinski küçədə Hərbiyyə Nəzarəti binası qarşısında səf bağlayıb dayanmışlardır. Yaxşı geyinmiş cavan könüllülər, gözəl təsir bağışlayırdılar. Ərkani-hərb [Baş qərargah] zabitləri ilə bərabər Hərbiyyə naziri Giorqadze könüllü dəstəsi nəzdinə gəlmişdir. Könüllü dəstəsinin komandanı Hərbiyyə nazirinə xitabən söylədiyi nitqində Gürcüstanda yaşayan müsəlmanlarla gürcülər arasında olan məhəbbət və mehribançılığı qeydlə demişdir ki, doğma məmləkətin mühafizəsi üçün başlarından keçməyə hazır olan könüllü dəstəsinin təşkil edilməsi həman mehribançılığı isbat etməkdədir. Giorqadze öz cavab nitqində könüllülərin gözəl təşəbbüsatını təbrik edib, müsəlmanların məmləkət mənafeyi üçün özlərini qurban verməlarini qeyd etmişdir. Axırda könüllü dəstəsi, musiqi marşı altında rəsmi-keçid mərasimini icra etmişdir. Hərbiyyə Nəzarəti qarşısına cəm olan əhali şadlığından milli nəğmə ilə könüllü dəstəsini müşayiət etmişdir.

**Gürcü mətbuatı və ingilislər**

Gürcü sosial-demokrat qəzetəsi "Saxalxo sakme", "Gürcüstan və İngiltərə" ünvanlı məqaləsində deyir ki, biz sabah nə olacağını və gələcəyi bilmirik. Lakin biz bir bunu demək istəyirik ki, biz qalib də olsaq, məğlub da olsaq hər halda insandan bir gözəl xatirə qalacaqdır ki, o da millətin şan-şərəfi, sədaqəti və alicənablığıdır. Hal-hazırda biz İngiltərə əsgərlərinin Gürcüstana daxil olmaları haqqında müəyyən bir şey söyləyə bilmirik; biz ancaq bunu deyə bilirik: burada olmaq istəyən hər bir qüvvə gürcü millətinin mədəniyyətinə, hissiyyatına və təşkilatına hörmət göstərib öz işlərini bizim xüsusi işlərimizə müvafiq görməlidir.

**Ermənilərin xidmətdən kənar edilmələri**

Ermənistan ilə Gürcüstan arasında müharibə hərəkatı başlandığından, bir para müəssisə müdirləri məsuliyyətli erməni xidmətçilərini kənar etdiklərinə görə erməni fəhlələri ilə də bu tövr müamilədə [rəftarda] bulunacağı nəzərə alınıb, Məsai [Əmək] naziri müavini Eradze dövləti müəssisə müdirlərinə göndərdiyi təmimnaməsində [sərəncamında] deyir ki, Ermənistan[la] müharibə başlanmasına görə erməniləri xidmətdən kənar etməməlidir. Çünki erməni fəhlələri gürcü fəhlələri ilə bərabərcə mübarizədə bulunmuşlardır. Bundan əlavə, erməni fəhlələri Ermənistan Hökumətinin bu tövr siyasət aparması əleyhindədirlər. Erməni fəhlələrini ancaq Məsai Nəzarətinin xəbərdarlığı ilə kənar etmək olar. Bu təmimnamə Hökumət Rəisi tərəfindən də təsdiq edilmişdir.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransında Rusiya nümayəndəsi**

Yassıdan xəbər verirlər ki, Rusiyanın Sülh Konfransında nümayəndəliyi məsələsi uzun-uzadı mübahisəyə bais olmuşdur. Axırda hamı Sazonov ilə Neratovun namizədliyinə razı olmuşlardır. Milyukov, general Denikin ordusunda məşhur olmadığına görə, onun namizdəliyi rədd edilmişdir. Nekrasov ilə Tereşenkonun da namizədliyi rədd edilmişdir. Çünkü, onlar da Kerenski ilə bərabər Kornilov üsyanının yatırılmasında iştirak etmişlərdir. Yassı Konfransı Könüllü ordunun top gülləsi və qeyri [ləvazimati-]hərbiyyə [hərbi sursat] ilə təhciz edilməsi üçün təcili tədbirlər ittixazını [tədbir görülməsini] lazım görmüşdür.

**Yəhudilər Sülh Konfransında**

Yekaterinoslavda çıxan "S." qəzetəsi mövsuq [etibarlı] mənbələrdən xəbər verir ki, Vilson Müttəfiq dövlət nümayəndələri namindən Könüllü ordu Baş komandanına müraciət edib yəhudi millətindən Sülh Konfransına xüsusi nümayəndələr dəvət edilməsi əleyhinə Rusiyanın etiraz edib-etməməsini xəbər almışdır. Vilson bunu ondan ötrü xəbər almışdır ki, Müttəfiq dövlətlər İngiltərənin təşəbbüsatı ilə müəzzəm [böyük] dövlətlərin təhti-himayəsində [himayəsi altında] olmaq üzrə Fələstində Yəhudi Hökuməti təşkil edilməsini qərara almışlardır. Sazonov cavab vermişdir ki, Rusiya yəhudilərin Sülh Konfransında nümayəndələri olmasına etiraz edə bilməz. Zira, hələ Rusiya vahid olarkən, Yəhudi Hökuməti məsələsi müsbət bir surətdə həll edilmişdir. Hal-hazırda da bu məsələyə etiraz ola bilməz.

## TÜRKİYƏDƏ

**Kabinə böhranı**

İstanbuldan xəbər verirlər ki, şəhərdə dəvəran edən [gəzən] şayiata [şayiələrə] görə [Əhməd] Tofiq paşa kabinəsi istefa verəcəkdir. Onun yerinə Əhməd Rza bəyi namizəd adlandırırlar. Hər halda Tofiq paşa kabinəsi təzələnəcəkdir. İndiki kabinə heyətindən dörd vəzir [nazir] istefa verəcəkdir. Əfv edilmiş olan Prins Səbahəddinin təzə kabinəyə daxil olub, Xariciyyə vəzir[i] mənsəbini tutacağı şübhəsizdir.

**İstanbulun türklərdə qalması**

İstanbulda çıxan "Tərcüman" qəzetəsi xəbər verir ki, nüfuzlu adamların Parisdən və Londandan aldıqları məlumata görə, İstanbulun müqəddəratı Sülh Konfransında müzakirə edilməyəcəkdir. Türkiyə vəzirlərindən bir neçəsi Müttəfiq dövlətlər kontrolu altındadırlar. İstanbul Türkiyə üçün qalacaqdır. Millətlərin hüququ müdafiə və mühafizə ediləcəkdir. İstanbulun beynəlmiləlləşdirilməsi gələcəkdə ixtilafa bais ola biləcəyinə görə, İstanbulun Türkiyə üçün qalması qərara alınmışdır.

**Müttəfiq qoşunları komandanı**

Məlum olmuşdur ki, Cənubi Rusiyada olan Müttəfiq qoşunları komandanı general D'Esperi öhdəsinə verilmişdir. Generalın Baş ərkani-hərbi [Baş hərbi qərargahı] İstanbulda olacaqdır.

**Müttəfiqlərin təzə heyəti**

12 nəfər zabitdən ibarət Müttəfiqlərin təzə bir heyəti İstanbula varid olmuşdur [gəlmişdir].

**İstanbulda Fransa nümayəndəsi**

Bosforda olan Fransa nümayəndəsi komandanı Amet, İstanbula daimi bir səfir təyin edilənə qədər Fransa Hökumətinin nümayəndəsi təyin edilmişdir.

**İngiltərə səfirinin vürudu [gəlişi]**

İngiltərə təzə səfiri Adam Blok İstanbula varid olmuşdur. İki gün əvvəl Türkiyədə olan İngiltərə müvəqqət nümayəndəsi amiral Giltori, "Tunerb" drednotunda Sevastopola əzimət etmişdir [getmişdir].

**Müttəfiq amiralları Baş vəzir hüzurunda**

İngiltərə amiralı Semmerst, Fransa amiralı Amet və İtaliya amiralı Mortola Baş vəzir [Əhməd] Tofiq paşanı ziyarət etmişlərdir. Bu yaxın günlərdə İstanbul ilə İngiltərə arasında teleqraf münasibatı başlanacaqdır. Xüsusi Fransa minonosu [torpedo gəmisi] İstanbul poçtasını Parisə aparıb Parisdən də İstanbula qayıdacaqdır. İstanbulda olan İngiltərə teleqraf acentəliyi işə başlamışdır. "Havas" acentəliyi də bu günlərdə işə başlayacaqdır.

**Ermənilərin və yunanlıların İstanbula övdəti [qayıtması]**

Türkiyə Hökuməti, Ənvər paşa hökuməti tərəfindən İstanbuldan nəfy [sürgün] edilmiş ermənilərin və yunanlıların övdətinə icazə vermişdir.

**Türkiyə heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] övdəti**

İndiyə qədər Odessada, Sevastopolda və Köstəncədə olan Türkiyə heyəti-mürəxxəsələri İstanbula varid olmuşlardır.

**Müttəfiqlər və Romaniya**

"Loms" qəzetəsinin verdiyi xəbərə görə, Yassıda olan Müttəfiq dövlət nümayəndələri izhar [bəyan] etmişlər ki, onların hökumətləri Transilvaniya və Bukovinada olan Romaniya milli şuralarının Romaniyaya mülhəq edilmələri [birləşdirilmələri] arzularını rəsmi surətdə etiraf etmişlərdir.

**Krım səfiri**

İstanbulda olan Krım səfiri Həsən Səbri Ayvazov İstanbulu tərk etmişdir. Krım mənafeyinin mühafizəsi İstanbulda olan Krım Həmtorpaqlıları sədri Məhəmməd Əkrəm bəyə həvalə edilmişdir.

## QƏZETLƏRDƏN

**Moskvada hərc-mərclik**

Moskvada anarşi çıxışları davam etməkdədir. Anarxistlər bir neçə evdə olan Bolşevik Hökuməti müəssisələrini qovub, evləri yandırmışlardır.

**Finlandiya ilə müharibə**

İngiltərə simsiz teleqrafı xəbər verir ki, axırıncı alınan xəbərlərə görə, bolşeviklər qurudan və sudan Finlandiyaya hücum etmişlərsə də, Finlandiya əsgərlərinin top atışı ilə dəf edilib böyük tələfatla geri çəkilmişlərdir. Bu qərar üzrə Finlandiya Hökuməti Şura Hökuməti ilə müharibə halındadır.

Bolşevik aeroplanları Vıborq şəhərinə yandırıcı bombalar saldıqlarına görə, yanğınlar başlamışdır. Finlandiya üzərinə ümumi hücum başlamaqdan ötrü külli miqdarda bolşevik qüvvəsi Finlandiya sərhədinə cəm edilməkdədir. Əhval artıq dərəcədə ciddidir.

**İsveç ilə müharibə**

Yenə İngiltərə simsiz teleqrafı xəbər verir ki, Finlandiya əleyhinə çıxış başladığı zamandan Rusiya hərbi donanması Stokholma hərəkət edib, İsveç Hökuməti əleyhinə də əməliyyata başlamışdır. Stokholm, Revel və Helsinqfors arasında vapor münasibatı qət edilmişdir [gəmi əlaqəsi kəsilmişdir]. Şayiata görə İsveç donanması dənizə çıxıb naməlum bir tərəfə hərəkət etmişdir. Lahey yanında top səsləri eşidilməkdədir.

**İngiltərə qatarları**

Dekabrın 26-sında Tiflisdən Bakıya gedən İngiltərə heyətinin sürət qatarı dekabrın 30-da, səhər saat 8-də Tiflisə varid olmuşdur [çatmışdır]. Həman gün qatar Batuma yola düşmüşdür. İngiltərə heyətinin qatarı 31 yük vaqonu ilə Batumdan Tiflisə varid olmuşdur.

**Könüllü ordunun Kubandan getməsi**

Yekaterinodardan xəbər verirlər ki, Könüllü orduya yaxın dairələrdən alınan doğru məlumata görə, Könüllü ordu Kuban əyalətini tərk edəcəkdir. Ordunun mərkəzi idarələri Sevastopola nəql ediləcəkdir. Əsgəri dəstələr isə Stavropol ilə Qara dəniz sahilinə aparılacaqdır. Rusiyanı bərpa edici mərkəz Xarkov olacaqdır. Moskvaya hücum etməkdən ötrü Xarkov şəhəri təchizat üssül-hərəkəsi [bazası] qərar veriləcəkdir.

**Ukraynada**

Kiyevdən xəbər verirlər ki, Vinniçenko imzası ilə hamı Ukrayna müəssisələrinə əmr göndərilmişdir ki, Ukrayna dairəsində hökumət möhkəmləşib asayiş bərpa edildiyinə görə, alman əsgərlərinin burada qalmalarına ehtiyac görünməyir. Buna binaən [buna görə], Ukraynada olan alman nümayəndələrinə təklif edilir ki, Ukraynanı alman əsgərlərindən təmizləməkdən ötrü tezliklə tədbirlər ittixazına [tədbirlər görməyə] girişsinlər. Almanların Ukraynadan getmələri üçün tədbirlər görülməkdədir.

**Gürcüstan haqqında general Draqomirov**

Krım Hökuməti Yekaterinodardan general Draqomirovdan bir teleqram almışdır. Teleqramda Kiyevdən Xariciyyə Nəzarəti tərəfindən "Vahid Rusiya" düzəltmək barəsində məlumat verilmişdir və həman məsələ barəsində olacaq müşavirədə iştirak üçün Draqomirov da dəvət edilir. General Draqomirov cavab vermişdir ki, Baş komandan general Denikin müşavirənin lüzumunu bilir, fəqət Kiyev deyil, Yekaterinodar və yaxud Ağməsciddə (Simferopolda) iniqad etməsi [təşkil edilməsi] tərəfdarıdır. Əlavə, Könüllü ordu Gürcüstanın müşavirədə iştirakına etiraz edir. Zira Gürcüstan Hökuməti istiqlaliyyət tərəfdarı olduğu üçün "Vahid Rusiya" əleyhinə siyasət yürütməkdədir. Krım Hökuməti general Draqomirova cavab vermişdir ki, onun nəzəriyyatı ilə şərik olaraq Ağməsciddə müşavirə olmasını təbrik edir.

**Müttəfiqlərin müavinəti [köməyi]**

Yassıda olan siyasi korpus rəisi Sent-Oler hamı Müttəfiq dövlət nümayəndələri namından [adından] Müttəfiq dövlətlərə böylə bir teleqraf göndərmişdir ki: Lazım bilirik xəbər verək ki, baş qaldırmış olan Ukrayna şovinistlərinə ədədcə az olan millət ünsürlərindən başqa anarxist və bolşevik dəstələri də yapışmışlardır. Biz lazım bilirik ki, tezliklə Müttəfiq dövlət əsgərləri Odessaya gətirilsin və Kiyev ilə Xarkovun zəbt edilməsinə başlansın. Bir məruzə nəşr edilsin və bu məruzədə Müttəfiqlərin Rusiyada asayiş tərəfdarı olan siniflərə müavinət göstərəcəkləri qeyd olunsun.

**Admiral Neklyudovun bəyanatı**

"P. N." qəzetəsinin verdiyi xəbərə görə, Könüllü ordunun Odessa nümayəndəsi admiral Neklyudov izhar etmişdir ki, Könüllü ordunun birinci qəsdi bolşevikləri Rusiyadan qovub asayiş bərpa etməkdən ibarət olacaqdır, tainki Rusiya nümayəndələri gələcək üsuli-idarəni bərpa etməkdən ötrü bir yerə cəm ola bilsinlər.

**Fransız-yunan müahidənaməsi [sazişi]**

Əqd edilən müahidə mövcibincə [imzalanan sazişə əsasən] Yunanıstan Hökuməti 25 il müddətində Fransanın şərqdəki mənafeyini gözləməyi öhdəsinə almışdır. Fransa Hökuməti də bu işdən ötrü Yunanıstana maliyyə və texnika cəhətdən müavinət [kömək] edib, Yunanıstan donanmasını qaydaya salacaqdır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Vükəla Şurasında [Nazirlər Kabinetində]**

- Vükəla Şurasının iclasında başqa məsələlər sırasında Daxiliyyə nazirinin məruzəsinə görə Səhhəti-Ümumiyyə Nəzarəti [Səhiyyə Nazirliyi] hökumət əzasının [üzvlərinin] birinə mühəvvəl [həvalə] edilməsi barəsində müzakirə olmuş və qət edilmişdir ki, müvəqqəti olaraq işbu vəzifə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyi] verilsin.

- Türuq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin fəhlələrin əhvalını yaxşılaşdırmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir ki, Məsai Nəzarəti [Əmək Nazirliyi] gələcək iclas üçün fəhlələrin əhvalını yaxşılaşdırmaq üçün görülməli tədabir [tədbirlər] barəsində məlumat versin.

- Post və Teleqraf naziri Aslan bəy Səfikürdlü həzrətlərinin təşəbbüsatları ilə Məsai Nəzarəti təşkilinə şüru edilmişdir [başlanılmışdır]. Müşavirəyə mədən sahibləri və Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] nümayəndələri dəvət ediləcəklər. Əv vəlinci məsələlər bunlar olacaqdır: yeni məvacib, fabrika-zavod komitələri.

## MAARİF MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞINA DAİR

İşbu yığıncağın 8-inci iclasında dərs kitablarının intixabı [seçilməsi] məhəlli-müzakirəyə qoyularaq, vaxtın qeyri-müsaid olmağı cəhəti ilə hələlik hazırda bulunan kitablara qənaət edilir. Bununla bərabər, Məclis xahiş və arzu edir ki, tədris kitabları gələcəkdə mütəxəssislər vasitəsi ilə Maarif Nəzarəti tərəfindən tərtib və təmin olunsun.

Bu qətnamədən görünür ki, əldə bulunan kitabların halətindən müfəttiş əfəndilərin xəbərdarlığı yoxdur. İki ildən çoxdur ki, bahalıq və inqilab cəhətinə müəlliflərdən bəzisi təliflərinin [əsərlərinin] yeni təb' [çap] və nəşrinə cəsarət etmədilər. Bildirki Milli Komitənin Nəşriyyat Şöbəsi bu barədə çarpışdı, vuruşdu, bir iş də görə bilmədi. Kitabların miqdarı azaldıqca, qiymətləri də gün-gündən kəsbi-şiddət etdi [artdı]. Hətta, bəzi kitablardan (məsələn: "Ədəbiyyat məcmuəsi") kitabfüruşlarda [kitab satanlarda] bir dənəsi də qalmadığı üçün bu gün köhnə nüsxələri, parça-parçaları da 20-25 rubləyə qədər satılmaqdadır. Hələ bu il bu minval ilə keçdi, sabah bu köhnə nüsxələr də tapılmadığı halda, biçarə müəllim və mütəallimlər [şagirdlər] nə çarə yapacaqlar?

İştə "bu kitab aclığı" Maarif Nəzarətini çoxdan düşündürməli idi. Hələ bahalıq bəlası kənarda dursun, kağız ehtiyacını da bir növ rəf' etmək [aradan qaldırmaq] olar, lakin mətbəə süstlüyünə [ətalətinə] nə çarə olacaqdır? Asayiş zamanlarında bir kitabı səkkiz-doqquz aya tamam etmiş mürəttiblər, bu gün 8 saatlıq işlə neçə aya tamam edə biləcəklər? Burasını Nəzarətimiz nəzərə alarsa, nəşriyyat iqdamatına [işinə] sabahdan girişməlidir, yoxsa 8 aydan sonra yenidən məktəblər açıldığı əsnada mütəallimlərimiz laşəkkü-şübhə [şəksiz-şübhəsiz] kitabsız qalacaqlardır. Bu, birinci məsələ.

İkinci məsələ – gələcəkdə kitab təlifatını [yazmağı] mütəxəssislərə həvalə etməkdir. İndiyə qədər meydanda bulunan tədris kitablarının hamısını az-çox təcrübələri ilə məşhur təlim və tərbiyə mütəxəssisləri yazmışlardır. Lakin bu əsərlərin heç biri təbiən [çap baxımından] eyibdən xali [qüsursuz] deyildir. Atalar demişkən: "Eyibsiz gözəl olmaz". Amma çifayda bu eyibləri təlifat sahiblərinə ərbabi-fünundan [alimlərdən] heç kəs hələ göstərmədi. İllərcə bu kitablar üzündən məşğul olmuş həzəratın ağızdan-ağıza bəzi iradlarını eşitmiş olduğumuz halda, mətbuat aləmində heç birinin mükəmməl bir tənqidinə rast gələ bilmədik. Dəfəatla [dəfələrlə] gərək bu kitablar tənqid olunaydı və hər dəfədəki tənqiddən sonra yeni təb'inə şüru etməksizin [girişmədən], göstərilən dəyərli nöqsanları da islah olunaydı. Heyfa ki, böylə olmamışdır! Nə isə…

Tənqidə rəğbətimiz azdır. Tənqid fəqərəsində [mövzusu üzərində] bir bu qədər dayandığım üçün zənn olunmasın ki, köhnə tərəfdarı olaraq təzə tədris kitablarının zühuruna [meydana çıxmasına] ziddəm. Bərəks [əksinə], kitablarımız nə qədər artarsa, bir o qədər də mənfəətli və faydalısı aralığa çıxar. Bu barədə rəqabət meydanı gərək hamı üçün açıq olsun. Heç kəsə "təkbazarlıq" imtiyazatı verilməz! Bainhəmə [bununla bərabər], istər köhnə olsun, istər təzə, hamısının tənqidə zəruri ehtiyacı vardır. Lakin hazırda mövcud kitablarla gələcəkdə yazıla biləcək kitabların təfavütü buradadır ki, əldəki kitablar təcrübədən çıxmış olduğu üçün fəzilət və nöqsanları ərbabi-fənnin nəzərində aşkardır. Tənqid vasitəsi ilə bu nöqsanlar qeyd olunarsa, islahı da tez və asan vəchlə hüsula gələr.

Qaldı ki, təzə kitablar, hələ onlar anadan doğulmadığı cəhətinə, tənqidlərinə də hələ yol yoxdur. Burada bir məsələ tövlid edir [ortaya çıxır]: tənqidə kimlər mübaşir olacaqlar [girişəcəklər] və hangi mətbuatla? Məqaləmizin əsl-əsası da həmin bu fəqərədir.

Söz yoxdur ki, tədris kitablarına artıq bələdiyyət yetirmiş əşxas [şəxslər] bizim müəllimlərimizdir. Bunlar əsnayi-təlimdə rast gəldikləri iradları xüsusi dəftərçələrə yazsınlar və hər ilin axırında da müfəttiş əfəndilərə təqdim etsinlər. Bundan daha gözəli müfəttişlər təhti-sədarəti ilə [sədrliyi altında] tərtib veriləcək məhəlli [yerli] müəllimlər ictimalarında [yığıncaqlarında] həmin irad müzakirə olunsun, zübdələnsin [seçilsin], ümumən qəbul oluna biləcək iradların da xülasəsi müfəttişlər vasitəsi ilə Maarif Nəzarətinə təqdim olunsun. İştə bu xülasələr ən dəyərli tənqidlərdir ki, müəllim, müəllif və mütəxəssislərin qisməti gərək olsun.

Vüzəratın [Nazirliyin] təlim və tərbiyəyə dair xüsusi aylıq bir jurnalı da nəşrə başlarsa, həman xülasələr də o jurnalda təb' və nəşr olunaraq [çap edilib yayılaraq] bir çox əhli-xibrəni [mütəxəssisi] istifadələndirər.

Yenə təkrar edirəm, aclara çörək lazım olan kimi mütəallimlərə [şagirdlərə] də kitab lazımdır. Kitabsız mütəallim, mütəallimsiz ərbabi-fünun [alim] və bunlarsız da mədəni bir millət olammaz. Bu gün bir çox vəzifədarlara [vəzifə tutanlara, iş görənlərə] ehtiyacımız vardır, bu ehtiyacı rəf' etmək [aradan qaldırmaq] üçün kitab, kitab və yenə kitab tədarükünə girişməliyiz.

*Fərhad Ağazadə*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 yanvar (Bazar günü) tarixli 79-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## KƏNDLƏRİMİZ VƏ MƏKTƏBSİZLİK BƏLASI

Əhalimizin əksəri köylərdə məskun olub da cahan vüquat və hadisatından bilmərrə xəbərsizdirlər. Həm də bu halda vətənlərində və paytaxtlarında cərəyan edən siyasi əhvallardan biittila [xəbərsiz] qalmaqdadırlar. Əgər köydəki qardaşlarımız rus hakimiyyəti zamanında zülümatda [qaranlıqda] və cəhalətdə qalmasaydılar, yaxud onları və övladlarını maarifə və məktəbə tərğib [rəğbətləndirənlər] və təşviq edənlər olsaydı, bu gün onlar da başqaları kimi millətlərinə mövcudiyyətləri xüsusunda böyük fədakarlıqlar izhar edərdilər. Məəttəəssüf [təəssüf ki], vaxtında məktəb və maarif üzü görmədikləri üçün bu gün üzərlərinə və millətlərinə yağdırılan siyasi hiylə və təzvirlərdən [oyunlardan] və hüquqlarını paymal etmək [tapdalamaq] qəsdində olanların müqabilində bilümum mübarizədən və fədakarlıqdan qalmışlardır. Tərəqqi və təməddün [mədənilik] cəhətincə onlar sair millətlərə nisbətən çox geridə qaldılar. Məkatib [məktəblər] və maarif məhrumiyyəti onları bu gün böyük fəlakətlərə və məşəqqətlərə giriftar edir.

Məktəbsizlik xüsusunda çox şeylər yazılmış, söylənmiş, fəqət axırda yenə zülümat, cəhalət qalmışdır. Bu gün Şamaxı qəzasındakı malakan köylüləri ufacıq bir xəsarət tədiyəsi [ziyanlarının ödənməsi] üçün Bakıya gələrək mövqeyinə [lazımi yerə] xəbər verməklə, sair qardaşlarına da izhar edib, mövzui-bəhs [mübahisə mövzusu] edirlər. Lakin həmin qəzanın böyük kütləsinə, əhalisinə toxunan milyard xəsarət və ziyanlar köylülərimiz tərəfindən göstərilməyir. Çünki beş-on evdən ibarət malakan köyündə daha vaxtında hökumət və maarif müdiriyyəti tərəfindən lazimi məktəb açılmışdır, lakin 200-300 evə malik müsəlman köyündə bu vaxtadək məktəb güşadı [açılışı] olmamışdır. Malakan köylüsü zəminin [torpağın] saxlanmağını və rəncbərliyi bildiyi bir halda, müsəlman köylüsü zəmin saxlamaq nə deməkdir xatirinə gətirməz.

Zatən bu halda Bakı vilayətində bir xeyli böyük müsəlman köyləri vardır ki, orada məktəb güşad olunmamışdır. Halbuki bu köylərin nüfusu və böyüklüyü malakan köylərindən on dərəcə çox və böyükdür.

Məktəbsiz köylərdən qeyri bir xeyli qəsəbələr, kəndlər vardır ki, onlar çox sənələrdən bəri ancaq və ancaq bir ədəd bir klaslı ibtidai məktəbə malikdirlər. Məsələn, Lahıc kimi böyük bir qəsəbə ki, təklikdə 8-10 min nüfusa baliğdir [çatmışdır], bu vaxtadək bir bab [ədəd] bir klaslı məktəbi vardır. Bu məktəb 30 sənədən artıqdır ki davam edir. Davamı müddətində verdiyi məhsul heç dərəcəsindədir. Çünki, əvvəla, məktəbdəki tədris rus lisanında olmuşdur. İkinci isə, ondan daha ali bir məktəbin yoxluğu səbəb olur. Səkkiz yaşında olan bir çocuq bu cürə bir klaslı bir məktəbə daxil olub, 12 yaşında olduğu halda məktəbi bitirir. Ondan sonra bu sinnində [yaşında] ikən nerəyə gedəcəyi və nə yapacağı böyük və düşüncəli bir məsələdir. Çünki kənddə heç bir valideyn 12 yaşındakı bir çocuğunu sərbəstcə sair uzaq bir yerə təhsilə göndərməz. Bu cəhətdən dolayı bir klaslı ibtidai məktəbi bitirmiş bir çocuq təhsilə davam etməyib, başqa bir işlə məşğul olub, bildiyini də unudar. Aşkara, bir klaslı məktəbdən alınan məlumatın nə qədər faydasız və az olduğunu da kimsə inkar etməz. Doğrudur, camaatın cəhaləti sayəsindən məktəbsizlikdə qalmışdırlar, fəqət onları təşviq və təhrik edən tapılardısa, məncə rizaməndilik göstərərdilər [razılıq verərdilər].

Sabiq Maarif müdiriyyətinin Lahıc xüsusundakı etinasızlığı zirdə [aşağıda] yazılan əhvaldan daha aşkardır. Keçən sənə hürriyyətin bidayəti [başlanğıcı] münasibətilə Lahıcın 8-ci məhəlləsi olan Ərəkitdə daha ikinci bir məktəbin güşadı və bu məktəbi doğruca 4 və 6 klaslı etmək qəsdi ilə camaatda və ziyalı cavanlarında böyük hümmət görünürdü. Maarif müdiriyyəti nəzdində camaat priqavoru [qərarı] ilə istidada [xahişdə] bulunub, məktəbin tövsisi [genişləndirilməsi] və əldə olan müəllimlərin təyini üçün lüzum görülən ərzihallarda bulundular. Məktəbdə böyük şadlıqla bir xeyli bir klaslı ibtidai məktəbi bitirmiş çocuqlar cəm olundu. Oğlan çocuqlardan başqa qız xanımlar da təhsilə davam edirdilər. Sənə axırınadək vilayət Maarif müdirinə yazdılar, söylədilər, fəqət istidaları etinasızlıqla və əhəmiyyətsizliyə çıxmaqla arada məyusiyyət hasil oldu. Məktəb dağıldı, çocuqlar çəkildilər. Bu sənədə isə həman təntənəli məktəb beşon çocuğa və bir müəllimə şayəstə [layiq] oldu.

Demək, köylərimizin məktəbsiz qalmasına əhalisi bais olmamışdır. İndi soruşulur, məgər Lahıc kimi böyük bir qəsəbə on min nüfusu ilə və ətrafındakı 20 para böyük kəndlər ilə bərabər 4 klaslı yaxud 6 klaslı bir məktəbə səza [layiq] deyilmidir? Nə üçün bu böyüklükdə bir qəsəbə əsri-təməddün və tərəqqidə [mədəniyyət və tərəqqi əsrində] gərək zülümat və cəhalət içində qalsın? Lahıclılar kimi çalışqan, zəhmətkeş və mütəhəmmil [dözümlü], yaxud bütün Qafqaziyada mis qabları ilə məşhur və daim ticarət və sənətlə əlləşən bir [camaatda] maarif və təməddün lüzumu görülməyirmi? Doğrudan-doğruya əgər onlara vaxtınca sənətlərinə mütənasib məktəb açılsaydı, bu gün biz bazarda artıq yüz sənələrdən bəri o biçimsiz, o hədsiz zəhmətlərə baliğ [əmələ gələn] bilümum [bütün] evlərimizdə müstəməl [istifadə olunan] mis qablarını o formda, o şəkildə və o vəzndə [çəkidə] görməyib, daha sadə, daha gözəl görərdik. Bu gün çəkdikləri zəhmət təqdir olammayır və qayırdıqları qablar tərvic [rəvac] tapmayır. Səbəb də həman əskilik və biçimsizlikdir.

Bu gün maarifə və təməddünə xidmət edici vəsait büsbütün şəhərlərdə və böyük məhəllərdə [yerlərdə] toplanıbdır. Məhsulları da ancaq şəhərdə müstəməldir [istifadə olunur]. Köylər isə maarifdən uzaq və cəhalətdə qalmışdır. Bu səbəbdən bu sənədəki müsri [yoluxucu] xəstəlikdən, çox köylərimiz demək olar təbabətsizlikdən, məncə, maarifsizlikdən ziruh [canlı] dediyimiz insandan məhrum qalmışdır. Tək bir Lahıcdan, müsri xəstəlikdən bu sənə ən azı dörd min can tələf olmuşdur. Şəhərdə isə, doğrudur, müsri xəstəlik olub, fəqət daim şəhərdə sükunət tapan [yaşayan] və heç vaxt xatirinə köydəki qardaşı gəlməyən mahir doktorların müavinəti [köməyi] ilə tezliklə xəsarətsiz rəf' olmuşdur [aradan qaldırılmışdır]. Biçarə köylü sənə bidayətindən nihayəsinə [ilin başından sonuna] qədər zəhmət və məşəqqət çəkib şəhərdəki qardaşlarına həyat və müsalimət [salamatlıq] verdiyi zamanda, şəhərdə məskun doktor qardaşı ona mübtəla olduğu zəhərli xəstəlikdən nicat vermək qəsdində deyildir.

Bilaxirə, keçmişlərə artıq əhəmiyyət verməyərək və kimsəni bunu yazmaqla müttəhim etmək niyyətində olmadığım üçün ancaq mənim qəsdim köylərimizin məktəbsizliyindən bu gün siyasi məsələlər haqqındakı rəyləri və sədaları batmış olduğu üçün gələcək və istiqbalımızın nuri-səadəti [səadət işığı] indidən onların aralarında lazımi məktəblərin güşadındadır [açılmasındadır]. Vətənimizin şan və şərəfi, ancaq köylülərimizin tərəqqi və təalisi [ucalması] ilədir. Bu gün ən vacib və ən zəruri məsələlərin birincisi məktəb məsələsi və xalq maarifidir.

*R. R.*

## ŞƏHİDƏ

Şühədayi-millətdən [millət şəhidlərindən] Məhəmməd ağa Cancanbəyzadə ismində bir oxumuş cavanın başdaşında yazılan şeirlərindən:

Ey cavan, ey ənisi-xoşsima!
Ey cəsur, [ey] qəyuri-bihəmta!
Qönçeyi-güldən almayan kamın
Gömdürən qəbrə eşqi-nakamın!
Ağlasınmı səni doğan madər?
Qara geysinmi əyninə xahər?
Yox, oğul, sən şəhadətə yetdin,
Millət eşqində can nisar etdin!

*Ayn. Əlif.-zadə*

## ƏSGƏR

Silahına sarılaraq gedərkən
Dağlar-daşlar həpsi sənə baş əyər.
Vətən üçün canla dava edərkən
Göydən sənə min mərhabalar enər.

Günəş önündə qərarmış o üzün
Haq yanında hər bir şeydən təmizdir.
Toz-torpaqdan qıpqırmızı o gözün
Desəm inan ulduzlardan əzizdir.

*Davud*

## BAKI XƏBƏRLƏRİ

"Znamya truda" xəbər vermişdi ki, guya, general Tomson Gəncə quberniyasının bəzi hissələrinin mühafizəsini Andranikə mühəvvəl edibmiş [tapşırıbmış]. General Tomson Rəisi-Vükəla [Baş Nazir] Fətəli xan Xoyski həzrətlərinə bir məktub yazıb "Znamya truda" qəzetəsində dərc edilmiş məlumatı qəti surətdə təkzib edir.

**Ərzaq Nəzarətində**

Ərzaq naziri görüşmək istəyən zəvatı [şəxsləri] Nəzarətdə [Nazirlikdə] ("Natsional" oteli) düşənbə [bazar ertəsi], caharşənbə [çərşənbə] günləri saat 11-dən 1-dək qəbul edir. Naziri[n] kabinəsi telefon nömrəsi 40-00-dır.

**Bəzzaziyə təqsiminə dair**

Ticarət və Sənaye Nəzarəti əhali arasında ən yaxın zamanda sabit qiymətlə bəzzaziyə malı [arşın malı, parça] təqsiminə [paylanmasına] başlayacaqdır. Mallar Bakı bəzzaziyə mağazaları vasitəsilə təqsim ediləcəkdir. Qiymətdən 8 faiz mənfəət alınacaqdır ki, 6 faiz mağazalar nəfinə [xeyrinə], 2 faiz isə Mərkəzi Ev Komitəsi nəfinə gedəcəkdir. Mərkəzi Ev Komitəsi təqsim üzərində kontrol qoyacaqdır.

Ümumi iclasın qətnaməsinə görə, Mərkəzi Ev Komitəsi Nəzarət indində [Nazirliyin nəzdində] təşəbbüsatda bulunmuşdur ki, bəzzaziyə malı rayon ev komitələri və ev komitələri vasitəsilə verilsin.

Böyləliklə qiymətdən 6 faiz mənfəət alınacaqdır. Mərkəzi Ev Komitəsi öz təşəbbüsatını işbu maddələrlə təqviyə edir [dəstəkləyir]:

1) İki faiz azalacaq mənfəət 1 ½ milyon arşın bəzzaziyədə arşını təxminən 5 rubla götürülərsə 150 min rubla təfavüt verəcəkdir.

2) Təqsim məxarici [paylama xərcləri] 6 faizlə 450 min rublə edir, halbuki təqsim məxaricatı azdır.

Mərkəzi Ev Komitəsinin məruzəsini istima etdikdən [dinlədikdən] sonra Nəzarət qət etmişdir ki, Tağıyev fabrikasında toxunmuş 200 min arşın bəzzaziyə malını bəzzazlar miyanında [arşınmalçılar arasında] Mərkəzi Ev Komitəsi kontrolu təhtində [nəzarəti altında] təqsim etsin. Təqsim ən yaxın günlərdə olacaqdır.

* 6-ncı dairə komitəsindən kontrol komitəsinə 2422 ərizə verilmişdir ki, zərəri 72 milyon 842 min rublə edir. Məntəqə ev komitəsindən bixəbər verilmiş ərizələr də nəzərə alınarsa, bir dairənin zərəri 100 milyon rublə edir.

* Bakıda bir ticarət palatası təşkil edilir ki, Azərbaycanla Rusiya və başqa Avropa dövlətləri miyanında [arasında] mal mübadiləsi məsələsinə müavinətdə bulunacaqdır [kömək edəcəkdir].

**Azərbaycan Ordusu**

Daxiliyyə Nəzarəti bütün Azərbaycan qubernatorlarına bir əmr göndərib tələb edir ki, təcili surətdə hökumət və polis xidmətlərində olanların siyahısına baxılsın və mürur ilə [tədriclə] əsgərliyə düşənləri başqa əsgərliyə düşməyənlərlə dəyişilsin. Böyləliyə, əsgərliyə düşəcək xidmətçiləri əxzi-əsgər [hərbi çağırış] dairələrinə, olmazsa, yaxındakı əxzi-əsgər müdiri yanına göndərməlidir ki, hərbi qulluğa götürüləcəyi barəsində müayinə yapılsın. İşbu əmr, qəza qaimməqamları [qəza rəisləri], polismeystrlərə, polis müfət-tişləri və onların müavinlərinə şamil deyildir. Zira Azərbaycan Hökumətinin müvəqqəti Mükəlləfiyyəti-əsgəriyyə [Hərbi mükəlləfiyyət] qanununun 9-uncu maddəsi mövcibincə [maddəsinə əsasən], bunlar azad edilir. Xidmətdə sayılıb həqiqətdə isə fəaliyyətdə bulunmayan əşxası da [şəxsləri də] yaxındakı əxzi-əsgəri dairələrinə göndərməlidir.

* Azərbaycan ilə Gürcüstan miyanındakı [arasındakı] tranzit şəraiti mövcibincə [şərtlərinə əsasən] Azərbaycan dəmiryolları ilə başqa yerlərdən Gürcüstana aparılacaq mallar və Gürcüstan dəmiryolları ilə başqa yerlərdən Azərbaycana gətiriləcək mallara azad tranzit, yəni vergisiz tranzit təyin edilir.

Xüsusi adamlara məxsus olub Gürcüstana gedəcək neft, benzin və başqa neft məhsulatı, ki işbu müqavilənamədən kənardır, Gürcüstan Hökuməti 25%-indən fəzlə [artıq] həcz [müsadirə] edə bilməz.

* Qarabağ və Qazaxa xüsusi məmuriyyətlə [tapşırıqla] Parlaman əzasından [üzvlərindən] mürəkkəb [ibarət] bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] azim olmuşdur [yola düşmüşdür].

* Vükəla Şurasının, fraksiyalar nümayəndələri ilə bərabər Azərbaycan sülh heyəti-mürəxxəsəsi üçün düsturüləməli [təlimatnaməsi] barəsində müştərək iclası vaqe olmuşdur.

**İclas**

Azərbaycan İctimaiyyuni-inqilabiyyun [Sosialist İnqilabçılar] firqəsinin müvəqqəti Bakı komitəsi ümum yoldaşlara elam edir [bildirir] ki, yekşənbə [bazar] günü axşam saat 4-də komitənin müvəqqəti bürosunda (Persidski və Şaxski pereulokun [döngəsinin] küncündə) ümumi iclas təyin edilmişdir. İclas ikinci dəfə olduğu üçün qanuni hesab ediləcəkdir.

**İrəvan quberniyası nümayəndələrinin iclası**

Bu axır günlərdə İrəvan quberniyasında müsəlmanlara zülmlər edilməsi münasibətilə Bakıda yaşayan İrəvan quberniyası nümayəndələri bu məsələləri müzakirə üçün bu gün axşam saat 6-da Azərbaycan Parlamanı binasında fövqəladə iclas təyin etmişlərdir. Bunun üçün Bakıda yaşayan İrəvan quberniyası müsəlman əhalisinin həmin iclasa gəlmələri mətlubdur [tələb edilir]. Hər halda ehmal olunmasın.

**Azərbaycan dəmiryollarında**

Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Gürcüstandakı Azərbaycan siyasi nümayəndəsi M. Y. Cəfərova bir böylə teleqram göndərmişdir:

*"Gürcüstan Türüq və Məabir Nəzarətinə Batuma getmiş Azərbaycan trenlərinin [qatarlarının] qayıtması barəsində mükərrərən [təkrarən] etdiyimiz müraciətimiz açıq qalmışdır. Bundan naşi [ona görə] də bu yönlərdə hərəkat dayandırılması ehtimalı hiss edilməkdədir. Rica edirəm bu barədə təşəbbüsatda bulunasınız.*

*Türüq və Məabir naziri:*
*[Xudadad bəy] Məlikaslanov"*

## AZƏRBAYCANDA

**Zaqatallıların istidası [xahişi]**

Zaqatal quberniyasında çay, qənd, bəzzaziyə mallarının [arşın malının, parçanın] yoxluğu və Bakıdan gətirilməsinin baha qiymətə olmasından dolayı əhali qubernatora müraciətən Tiflis ilə Zaqatal miyanında [arasında] mal mübadiləsi təşkil edilmək üçün istidada bulunmuşlar. Zaqatal quberniyasından buğda, un aparılıb oradan fövqdə məzkur [yuxarıda adı çəkilən] mallar gətirəcəkdir.

**İrəvandan gələn fəryadlar**

Qəmərlidən bizə yazırlar:

İrəvan vilayəti islamları sakin olan yerlər əhaliyi-islamiyyənin qanı ilə boyandı. Dörd sənədən bəri Cahan hərbinin fəlakətinə məruz qalan Qafqaziya islamlarından ən bədbəxti bizlər olduq. Çar zamanı həbslər, sürgünlər... İnqilabdan sonra rahat olacağımıza əmin ikən, qonşularımızın təşviqatı nəticəsində kəndiləri və rus əsgərləri tərəfindən maddi və mənəvi zərərlərə rast gəldik. Rus əsgərləri ölkəmizi tərk edib getdikdən sonra buraxdıqları ləvazimati-hərbiyyə və ərzağa sahib çıxan qonşularımızın daşnakçıları nəinki özlərini bizə ağa tanıtmaq, bəlkə təşkil etdikləri müstəqil Ermənistan hüdudu daxilində proyektləri mövcibincə [planlarına əsasən] bir nəfər olsun da ata-baba yurduna malik islam buraxmamağa əzm etdilər. Fitnələr törədib, böhtanlar atıb, terrorizmə girişib, qarqaşalıq [qarışıqlıq] saldıqdan sonra məqsədlərinə xainanə nail oldular. Nitəkim, Aram paşaların, Droların, Silikovların, Dəli Qazar, Arzumanov Mişa və general Areşevlərin təhti-komandasında [komandanlığı altında] qoşunlar yığıb Sürməli, İrəvan, Eçmiyədzin, Naxçıvan, Novo-Bayəzid, Axalkələk uyezdlərində, Qars oblastında 350-dən ziyadə zəngin islam köylərini dağıdıb, yandırıb, əhalisinin qismini qətl, qismini fərara məcbur etdilər. Binəvalar ac, çılpaq qarlı dağlar, dərələrdə Maku və Şərin həvalilərinə [tərəflərinə] pənah apardılar. Hətta sipah [ordu, qoşun] qabağından qaçan yüzlərcə ana-bacılarımız Araz nəhrinə qərq oldular; milyonlara baliğ mal-qaralarını, ev əşyalarını göz qabağında qarət edib İrəvan, Novo-Bayəzid və Üçkilsəyə götürdülər. Adamlarımıza yüz milyonlarca zərər verdilər; əvvəlcə dövlət və sərvət sahibi adamlarımız qapı-qapı düşdü, yeddi-səkkiz övlad sahibi olan ata-babalarımız sonsuz qaldı. Hərgah insaniyyət tarixi bu vəhşilərin yapdıqlarını yazarsa, on cildlərlə kitablar təşəkkül edər. Yapdıqları zülmlərdən utanmayıb onların mürəvvici-əfkarı [fikirlərini yayan orqan] olan "Orizon", "Aşxatavor" və bunların əmsalı olan qəzetələri olmazın böhtanlarla Azərbaycan Hökumətinə, millətinə və onun istiqlaliyyətinə hücumlarda bulunurlar.

Türkiyə Hökuməti Azərbaycanın bu hissəsindən əsgərlərini geri götürdü. Bunu görən erməni şovinistləri – ki gözləri müsəlman qanı ilə tutulmuşdur – genə də ölkəmizə soxulmaq istəyirlər, genə də təxribat, genə də qanla oynamaq xəyalındadırlar.

Ey Azərbaycan paytaxtı olan Bakıda yığılan Azərbaycan Parlaman əzaları! Danışdığınız minbərdən bir dəfə də İrəvan vilayətindəki qardaşlarınızın halına baxın, dərdlərimizə bir dərman bulun! Səsimizi səsinizə qatıb mədəniyyət dünyasının qulağına yetirin!

Ey Qafqaziyamıza yeni qonaq gəlmiş Müttəfiq Hökumət nümayəndələri – ki şüarınız millətlər azadəliyinə, istiqlaliyyətinə riayət etməkdir – bizim halımıza qalın! Sizin insaflı olan kişiləriniz tezliklə aramıza gəlsin, görsün vəziyyətimizi və bizə yapılmış və yapılan haqsızlıqları, bəlkə bizlərin səsi qulaqlara gələr. Çünki, quyu dibində qalmışlar halındayız. Onda bilərsiniz daşnakların hiyləsini!

Ey erməni, müsəlman demokratiyası [xalqı] tərəfdarı olan erməni, müsəlman ziyalıları! Yenidən töküləcək bu nahaq qanların önünü alın, bəsdir bu qanlar!

*Millət oğlu Hatəmzadə Əbdülhəmid*

## TEATRO VƏ MUSİQİ

**"Aşıq Qərib"**

Cümə günü Hökumət teatrında Hacıbəyli Qardaşları müdiriyyətinin artistləri tərəfindən Zülfüqar bəy Hacıbəylinin məşhur "Aşıq Qərib" operası mövqeyi-tamaşaya qoyuldu. Təbrizli Aşıq Qərib ilə Tiflisli Şahsənəmin müaşiqeyi-əflatuniyyəsini [platonik eşqini] təsvir edən bu opera çox gözəl tərtib edilibdir. Səhnə gözəlliklərini göstərməkdən əlavə, içində ruhəfza [ruh oxşayan] havaları və nəğmələri çoxdur. Baxüsus [xüsusilə] xorun: "Ey əfəndim, sən", Şahvələdin: "Aşiqəm mən" və sairləri.

Heyflər olsun ki, kişi xoru qızlar xoruna nisbətən çox intizamsız olub, ahəngi-musiqiyyədən çox uzaq idi. O idi ki, rus qızları müsəlman havalarını müsəlman kişilərindən yaxşı oxuyurdular. Müdiriyyət üçün xüsusi bir xor dəstəsi lazımdır.

"Aşıq Qərib" rolunu oynayan Sarabski əfəndinin səsi bu axşam həmişəki qüvvət və lətafətində deyildi. Bainhəmə [bununla belə], "deyişmə" vaxtında "Osmanlı" dəstgahında "Aşıq Səlim" rolunu oynayan Məhəmmədbağır əfəndiyə qalib gəldi. Sarabskinin böyük nöqsanı budur ki, rolunun dramatizm tərəfinə heç əhəmiyyət verməyir. Ona görə, tamaşaçılarda təsirat hasil edə bilmir. Hər nə təsirat verirsə də səsi ilə verir. Məhəmmədbağır əfəndinin də məlahətli zil səsi var, amma dəstgaha layiqincə bələd deyildir.

"Şahsənəm"i genə arvad paltarı geyməyə məcbur olan Ağdamski əfəndi həmişəkindən yaxşı oynadı. Həm gözəl səsi və həm də dəstgaha kamalınca bələdiyyəti və həm də yaxşı oyunu ilə məşhur olan Ağdamskinin bir böyük nöqsanı budur ki, gözəl surətdə başladığı havanın axırını zəif gətirir. Ona görə də əvvəlki gözəlliyin də təsiri axırda itir. Halbuki müstəmeində [dinləyicilərdə] hər nə təsir qalırsa, havanın axırı "ağzında" qalır.

"Şahvələd" rolunu ifa edən Şərifov əfəndi həm tenor səsinin yumuşaqlığı və həm də oyunun dramatizmi ilə əksərən hərəkətsiz oynayan yoldaşlarından seçilib, gözəl oynadı. Bu artistin şöhrətli gələcəyi vardır.

Darablinski və Anaplinskilərin "duzlu" komik olduqları, teatro tamaşaçıları içində məşhurdur. Xırda rollarda çıxan Məğfurə, Yeva və Tamara xanımlar yaxşı idilər. Ancaq Qəribin anası, Məğfurə xanımın rolu deyildir.

İki oğlan və dörd qızdan mürəkkəb balet xoşumuza gəldi; ancaq hərəkat az və yekahəng idi.

Pərdə hər dəfə yuxarı qalxdıqda, səhnənin tamaşaçılar könlünü açar gözəl və zövqavər mənzərəsi, baxüsus birinci və axırıncı pərdələrdə rejissor Ərəblinski əfəndinin ciddi və üstadkaranə surətdə [ustalıqla] çalışmasına böyük dəlil idi. Ərəblinski əfəndi səhnənin gözəl üstadıdır və bu üstadlığını səhnə tərtibatından başqa, artistlərin dramatizm hərəkatında dəxi göstərərsə, vəzifəsini haqqı ilə ifa etmiş olar.

*Mizrab*

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir, "Kaspi" qəzetəsinin 122-ci nömrəsində "Şeyxülislamın istefası münasibətilə" ünvanında Gəncədən vurulmuş iki teleqraf dərc olunmuş. Bu iki teleqrafın ikisində də onları imza edənlər şeyxülislamın əski məmuriyyətində qalmasını xahiş və tələb edirlər. İmzaların içində mən – Gəncəli Məhəmmədrza Atayevin dəxi imzası dərc olunub. Bununla elan edirəm ki, mən Gəncədən Bakıya nə bir teleqrafa qol çəkmişəm, nə bir kəsi əvəzimdə qol çəkməyə vəkil etmişəm.

*13 dekabr 1918*
*Gəncəli Məhəmmədrza Atayev*

## HƏFTƏ POSTASI

Yoldaş əfəndiyə: Məqalələrinizi ciddi surətdə yazarsanız daha gözəl olar.

Nadi əfəndiyə: şeirləriniz dərc edilmədi.

Zal Məhəmmədli əfəndiyə: şeirləriniz dərc edilmədi; lakin bir az da fikir versəniz yaxşı şeirlər yaza bilərsiniz.

Qənbər oğlu əfəndiyə: Zal Məhəmmədli əfəndiyə yazdıqlarımız sizə də aiddir.

H. R. əfəndiyə: Dəmiryol işlərini mürur ilə [tədriclə] düzəltmək üçün Vəzarət [Nazirli] tərəfindən ciddi tədbirlər görülməkdədir.

İskəndərzadə əfəndiyə: qəzetəmizin Salyan müxbiri olmaq və Salyan ilə ətrafının əhvali-ictimaiyyə [vü] iqtisadiyyəsindən [ictimai və iqtisadi vəziyyətindən], həvadisatından [hadisələrindən] xəbər vermək zəhmətini qəbul etsəniz, bizi məmnun edərsiniz.

Mürəttib: M. İslamov əfəndiyə: Əsgər və qoşun tərtib və tənzimatı [nizama salınması] işinə Hökumət tərəfindən ciddi surətdə əhəmiyyət verilməkdədir. Zənginlərimiz də, siz demişkən əcnəbi ziynətlərinə sərf edilən paralarını müdafieyi-milliyyə işlərinə sərfə çalışsalar, şübhəsizdir ki, daha gözəl olardı.

Məhəmməd Həmdi Lələzadə əfəndiyə: İstanbul Darülfünununun [Universitetinin] Tibb fakültəsindən məzun doktor Əliabbas əfəndi Qədimovun, sizi, yazdığınız kimi bir "xəbis illətdən" qurtarmağı və doktorun ümum Şəki şəhəri mərizləri [xəstələri] haqqında göstərmiş olduğu mərhəmət və şəfqət, son dərəcə şayani-təhsin və təbrikdir [bəyənilməyə və təbrik edilməyə layiqdir]. Şəkidə müsəlman diş həkimi olmadığından şikayət etməniz dəxi haqlıdır.

Gəncəli Məşədi Mikayıl əfəndi ilə kağıza qol qoyan sair əfəndilərə: Yuxarıda H. R. əfəndiyə yazdığımız cavabı oxuyarsınız.

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

**Qabil diş qayıran**
**Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

*295*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Doktor**
**Samuil İzrailoviç**
**Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607*

**Həkimlərin xüsusi**
**gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır.

Səhər saat 9-11-ə kimi
Axşam saat 5-7-yə kimi.
Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır.

Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi.

Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

Hacı Seyid Əzim Şirvaninin əsərlərini və Sabirin "Hophopnamə"sini alıram. Adres: "Azərbaycan" qəzetəsi kantorunda (Parapet).

*2630*

**Türk təqvimi**
**Yeni və əski üsul ilə türk təqvimi**

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə "Azərbaycan" qəzetəsi mətbəəsində.

*b-38 10-1*

**Təqvimi-islam [müsəlman təqvimi]**
**Türkcə-rusca divar təqvimi**

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur.

Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında "Novruz" mətbəəsi.

*2625 3-1*

Düşənbə [bazar ertəsi] günü, kanuni-saninin [yanvarın] 6-sında, səhər saat 10-da Binəqədi Cəmiyyətinin kantorunda Bakı mədənlərindəki neft quyusu sahiblərinin ümumi iclası vaqe olacaqdır. Bu iclasda Binəqədi Cəmiyyəti və Nobel nefteprovodlarına [neft kəmərlərinə] aid məsələ müzakirə ediləcəkdir.

*2628*

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Sülh ətrafında: Yəhudilər Sülh Konfransında***

"Könüllü ordu Baş komandanı": 1919-cu ilin 8 yanvarına kimi bu vəzifəni Denikin tutmuşdur.

***Kəndlərimiz və məktəbsizlik bəlası***

"…müttəhim etmək niyyətində...": qəzetdə "...müttəhim etməmək niyyətində..." getmişdir.

***"Şəhidə"***

Bu şeirin adı qəzetdə "Şəkidə" kimi getmişdir.

***"Şəhidə" şeiri üçün lüğət:***

ənis: munis; dost
qəyuri-bihəmta: tayı-bərabəri olmayan qeyrət sahibi
madər: ana
xahər: bacı
nisar etmək: vermək, qurban etmək

***Azərbaycanda: İrəvandan gələn fəryadlar***

"Aram paşaların": Aram Manukyan nəzərdə tutulur.

***Teatro və musiqi***

"Məhəmmədbağır əfəndi": böyük ehtimalla Məhəmmədbağır Əliyev (səhnə təxəllüsü Əlinski) nəzərdə tutulmuşdur.

"Mizrab": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

# REGİONLAR

## Gəncədə Ulu Öndərin 100 illiyinə həsr olunan növbəti tədbir keçirilmişdir



**Milli Aviasiya Akademiyasının və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Mir Cəlal Paşayevin Gəncədəki ev-muzeyində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.**

Ümummilli Liderin şəhərin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarətlə başlayan tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Aviasiya Akademiyasının I prorektoru, professor Ədalət Səmədov, akademiyanın professoru, Xalq şairi Nəriman Həsənzadə, AMEA Gəncə bölməsinin akademik katibi, akademik Fuad Əliyev, Milli Aviasiya Akademiyası rektorunun köməkçisi, dosent Gülnarə Əhmədova və akademiyanın dosenti Aygün Zeynalova çıxış edərək Heydər Əliyevin həyat və fəaliyyətindən danışmış, böyük yazıçı, alim və görkəmli ədib Mir Cəlal Paşayevin ədəbi irsindən, Azərbaycan ədəbiyyatının inkişafında və məzmunca zənginləşməsindəki rolundan söhbət açmışlar.

Milli Aviasiya Akademiyasının tələbələri Ümummilli Liderə həsr olunan şeir və musiqilər səsləndirdikdən sonra görkəmli ədib Mir Cəlal Paşayevin ədəbi yaradıcılığından səhnələr nümayiş etdirmişlər.

Sonra tədbiri ştirakçıları Heydər Əliyev Mərkəzini ziyarət etmiş, Ulu Öndərin həyat və fəaliyyətini, onun Gəncəyə səfərlərini və şəhərin inkişafındakı rolunu özündə əks etdirən eksponatlarla tanış olmuşlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Açıq səma altında fermerlər üçün universitet

**Kənd təsərrüfatının müasir inkişafını aqrar innovasiyaların geniş tətbiqi olmadan təsəvvür etmək mümkün deyil. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi illərdir ki, bu istiqamətdə fəaliyyət göstərən qurumdır. Kənd təsərrüfatının innovativ əsaslarla inkişafı, innovativ həllərə əsaslanan texnoloji yeniliklərin və üsulların təşviqi qurumun fəaliyyətinin əsasını təşkil edir.**

Qurum öz fəaliyyətini bir neçə istiqamətdə qura bilmişdir. Bu təşkilat aqrar sahədə innovasiyaların tətbiqinə, müasir texnologiyaların və avadanlıqların istifadəsi ilə bağlı tədbirlərin, ən qabaqcıl təcrübə və yeniliklər barədə məlumatların sürətlə yayılmasında yaxından iştirak edir, aqrar sahədə həyata keçirilən yerli və beynəlxalq layihələrin monitorinqinin, ekspertizasının və qiymətləndirilməsinin aparılmasında mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, bu qurumun himayəçiliyi ilə artıq bir çox rayonlarda - Şəmkirdə, Ağdaşda, Qusarda Aqrar İnnovasiya festifalları keçirilmişdir. Bu festivalları açıq səma altında universitet də adlandırmaq olar. Yerli müəssisə və fermerlərlə yanaşı, xarici şirkətləri təmsil edən mütəxəssislərin də iştirak etdikləri belə festivallar ona imkan yaradır ki, müasir dünya təcrübəsi ilə daha çox fermer tanış olsun, kənd təsərrüfatı mütəxəssisləri öz işlərindən ayrılmadan vacib yeniliklərdən xəbər tutsun və onları işlərində asan tətbiq edə bilsinlər. Artıq belə festivalların sayı 20-ni keçmişdir.

Festifalların əhəmiyyətini dəyərləndirmək üçün Ağcabədi rayonunda keçirilən tədbirin məzmunu ilə bir qədər ətraflı tanış olmaq yerinə düşərdi. Ağcabədidə də keçirilən festivalda toxum sərgi-satış yarmarkası təşkil olunmuşdur. Burada 30-a yaxın toxum istehsalçısı öz məhsullarını nümayiş etdirmişdir. Əsas diqqət ona yönəlmişdir ki, Aqrar İnnovasiya Mərkəzi, Aqrar Xidmətlər Agentliyi, Dövlət Toxum Fondu və Azərbaycan Toxumçular Assosiasiyasının təşkilatçılığı ilə keçirilən toxum sərgi-satış yarmarkasında regionun torpaq-iqlim şəraitinə uyğun rayonlaşmış bitki sortları düzgün seçilsin, məhsuldarlığın artırılmasında aqrotexniki qulluğun əhəmiyyəti geniş izah olunsun, əkin materialı kimi sertifikatlı toxumlara üstünlük verilməsinin vacibliyi barədə geniş maarifləndirmə işləri aparılsın.

Tədbirdə iştirak edən fermerlərdən biri - Ə.Qədirov danışır ki, onlar bu tədbirdə yerli və xarici seleksiyaya məxsus yeni rayonlaşmış müxtəlif bitki sortlarının sertifikatlı toxumları ilə tanış olmuşlar: "Bunun üstün tərəfi odur ki, gələcək əkinlərimiz üçün sifarişlərimizi verə bildik. Bu festivalda bizimlə yanaşı, toxumçuluq fəaliyyəti ilə məşğul olan istehsalçılar, öz xidmət və məhsullarını təklif edən 40-a yaxın yerli və xarici şirkət də iştirak etmişdir".

Ağcabədi aqrar festivalında həmçinin ixtisaslaşmış şirkətlər tərəfindən innovativ həllərə əsaslanan və resurslara qənaət edən mütərəqqi suvarma qurğuları, kənd təsərrüfatı texnikaları, torpaqbecərmə alətləri, rayonlaşmış yeni kənd təsərrüfatı bitki sortlarının toxumları, heyvan cinsləri, gübrə və pestisidlərin də müxtəlif növləri geniş nümayiş olunmuşdur. Üstəlik, tədbirdə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Sığorta Fondu, "Aqroservis" ASC, Dövlət Toxum Fondu, Süni Mayalandırma Mərkəzi və elmi-tədqiqat institutlarının mütəxəssisləri ziyarətçilərə öz xidmətləri barədə geniş məlumat vermişlər. Festival çərçivəsində keçirilən maraqlı tədbirlərdən biri də Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi tərəfindən "Buğda və arpa yetişdirilməsinə dair aqrotexniki qulluq qaydaları" mövzusunda təlim olmuşdur.



Ən əsası isə odur ki, fermerlər tərəfindən maraqla qarşılanan bu festivallarda aqrar sektorun vacib sahələri ilə bağlı fikir və təcrübə mübadiləsi aparılır, fermerlər onları narahat edən məsələlər və problemlərlə bağlı geniş məsləhətlər ala bilirlər.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Müasir çağırışlar fonunda din qarşısında duran vəzifələr müzakirə olunub

**Tovuzda "Müasir çağırışlar və qarşıda duran hədəflər" mövzusunda regional konfrans keçirilmişdir. Üç gün davam edən konfransda din sahəsində mövcud olan problemlər, dini radikalizmə və ekstremizmə qarşı mübarizə sahəsindəki vəziyyət, həmçinin qarşıda duran vəzifələr müzakirə edilmişdir.**



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Tovuz Rayon İcra Hakimiyyəti ilə birgə reallaşdırdığı konfransdan əvvəl iştirakçılar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, Tovuz Gənclər evində açılmış kitab sərgisinə baxmışlar.

Tədbiri Tovuz Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov açaraq milli-mənəvi dəyərlərimizdən, dövlət-din münasibətlərinin formalaşdırılmasının xüsusi əhəmiyyətindən danışmışdır. Qeyd etmişdir ki, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdışından sonra xalqımızın dini-mənəvi dəyərlərinin qorunması və inkişafı sahəsində həyata keçirilən siyasət Azərbaycanda multikulturalizm və tolerantlığın təbliği istiqamətində mühüm rol oynamışdır: "Bu uzaqgörən kursun məntiqi davamı olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərmişdir. Xüsusilə böyük tarixə malik dini məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir".

Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış etmişdir. Bildirmişdir ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə xalqımızın gələcəyə gedən yolunu azərbaycançılıq ideologiyası əsasında böyük uzaqgörənliklə müəyyən etmişdir: "Milli-mənəvi, dini dəyərlərimizə qayıdışın Azərbaycan xalqı üçün gərəkliliyini nəzərə alan Ümummilli Lider bu sahədə əvəzsiz işlər görmüşdür. Bu baxımdan hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində gördüyü işləri yüksək dəyərləndirmək lazımdır".

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Şirvanla Manisa qardaşlaşdı

**Şirvan şəhəri ilə Türkiyənin Manisa şəhəri arasında dostluq və qardaşlıq haqqında protokol imzalanıb.**

İmzalanma mərasimində Manisa Böyükşəhər bələdiyyəsinin sədri Cengiz Ergün, Şirvan bələdiyyəsinin sədri Kürdoğlu Muradov, Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva və digər şəxslər iştirak ediblər. Tərəflər arasında birgə program, layihələr, qarşılıqlı səfərlərin təşkili, habelə təcrübə və məlumat mübadiləsi, incəsənət, mədəniyyət və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulub.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Mirvari düzümlü Şabran üzümü

### Rayonun 16 kəndində üzümçülük əhalinin əsas məşğuliyyət sahəsidir

**Şabranın torpağı bərəkətlidir. Rayon ərazisində yetişməyən məhsul yoxdur. Üstəlik camaatı da işləyəndir. Tənbəllik nədir bilməzlər. Odur ki, rayonda aqrar sahənin inkişafı ilbəil sürətlənir, kəmiyyət və keyfiyyətcə yeni mərhələyə keçir.**

Dirçəldilən, inkişaf edən sahələrdən biri də üzümçülükdür. Şabranda üzümçülüyün qədim ənənəsi var. Hələ sovetlər dönəmində bu yerlərdə üzüm bağlarının ərazisi min hektarlarla ölçülərdi. Rayonda iki şərabçılıq zavodu fəaliyyət göstərirdi. İndi dövlət səviyyəsində vaxtilə məlum səbəbdən tənəzzülə uğramış üzümçülüyün dirçəlməsi üçün görülən tədbirlər bu sahənin inkişafına əlverişli şərait yaradır. Nəticədə bu gün Şabranda 415,9 hektar üzüm bağları var. Bunun 283,4 hektarında süfrə, 132,5 hektarında şərab üzümü yetişdirilir.

Ümumiyyətlə, rayonun iqtisadiyyatında üzümçülüyün öz yeri var. Ağ və Qara kişmişi, "Ağadayı", "Mirəndi", "Təbrizi" və sair sortlar bu yerlərdə geniş yayılıb. Son beş ildə isə rayon fermerləri xarici ölkələrdən də yeni üzüm sortları gətirib sınaqdan keçiriblər. Özbəkistandan gətirilən "Gəlinbarmağı" üzüm sortu artıq özünü doğruldub. Bu sort həm məhsuldarlığı, həm də budaqlarının möhkəmliyi sayəsində əkin zamanı az əmək tələb etməsi ilə seçilir. Digər bir sort isə İspaniyadan gətirilib. Onun da məhsuldarlığı yüksəkdir. Bir salxımı bəzən 7-8 kiloqram gəlir.

Məhsuldarlıqdan söz düşmüşkən, bu gün rayon üzrə üzümçülükdə orta məhsuldarlıq 30-35 tondur. Amma, məsələn, Moldova və Belarusda bu göstərici 70 tona yaxındır. Şabran fermerləri də bu həddə çatmaq istəyirlər, sözsüz ki, məhsuldar sortlar hesabına.

Şabranda iri üzümçülük təsərrüfatları fəaliyyət göstərir. "Vinneru-Soarb" MMC-nin torpaq sahələri əsasən Ağbaş kəndindədir. MMC 121 hektar üzüm sahəsinin cəmi 10 hektarında süfrə üzümü yetişdirir. Yerdə qalan ərazilərdə texniki sortlar əkilib. Müəssisənin məhsulu əvvəlki illərdə Belarus, Ukrayna və Rusiyaya ixrac olunurdu və fermer təsərrüfatı bundan xeyli gəlir götürürdü. Hazırda mövcud şəraitlə əlaqədar məhsulun yalnız bir hissəsi ölkədən kənara çıxarılır. Yerdə qalan məhsul yerli emal müəssisələrinə verilir.

"Zaman" və "Turaz" MMC-lər də uzun illərdir üzümçülüklə məşğul olurlar. Gandov və Dəvəçi kəndlərində yerləşən bu müəssisələr 44 hektar ərazidə əsasən süfrə üzümü yetişdirirlər. "Turaz" MMC-nin ərazisində 12 min tonluq saxlama kamerası da var. Burada təkcə Şabranın deyil, ətraf rayonların da üzümçüləri yetişdirdikləri məhsulu saxlayırlar. Özü də təkcə üzüm yox, həmin soyuducu anbarlarda digər meyvələr də saxlanılır və bütün fəsillərdə olduğu kimi qalır.

Şabran camaatı öz şəxsi təsərrüfatlarında da üzüm yetişdirməyə böyük maraq göstərir. İlk salınan bağlara görə dövlət tərəfindən verilən subsidiya sahibkara bağını becərməkdə kömək olur. Əkilən tinglərin qısa bir zamanda məhsula düşməsi, sortun məhsuldar olması da üzümçüyə əlavə stimul verir.



Məlumdur ki, təzə əkilən üzümün gələcək məhsuldarlığı texniki qaydalarla becərilməsindən çox asılıdır. Bu işdə Şabran bağbanlarına dağlıq və Aran ərazilərdə üzüm becərmək təcrübəsi çox kömək edir. Yeri gəlmişkən deyək ki, fermerlərə dərman pereparatları da vaxtında çatdırılır.

Yerli fermerlər həmçinin respublikanın iri ticarət mərkəzləri ilə əlaqə yaradırlar. Məsələn, Taxtalat kəndində 9 hektar ərazidə üzüm yetişdirən Əhməd Səmədov məhsulunu əsasən Bakı və Sumqayıtın ticarət mərkəzlərində satır. O, növbəti ildə üzüm bağını bir qədər də genişləndirmək fikrindədir. Məhsul vaxtında satılırsa və fayda gətirirsə, əlbəttə, bağı genişləndirməyə dəyər.

Şabranın 16 kəndində üzümçülük əhalinin əsas məşğulluq sahələrindəndir. Amma yeni plantasiyaların salınması davam edir. Hazırda şabranlılar yeni bağlar salmağı planlaşdırıblar. Üzümüzə gələn qış fəslindən artıq bu işin başlanacağı gözlənilir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Birgə sosial layihədən şəhid ailələri və qazilər yararlanırlar




**Tərtərdən olan bir qrup şəhid ailəsi və qazi Naftalandakı "Gold Naftalan" Müalicə və Sağlamlıq Mərkəzində müalicə alır. Layihə Naftalan şəhər və Tərtər rayon icra hakimiyyətlərinin birgə təşəbbüsü ilə reallaşır.**

Bu günlər Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov müalicə mərkəzində şəhid ailələrini və qaziləri ziyarət etmiş, onlara yaradılan şəraitlə tanış olmuşlar. Çay süfrəsi arxasında keçirilən görüşdə qeyd edilmişdir ki, ölkəmizdə bütün imtiyazlı şəxslər, o cümlədən şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Yaradılan şəraitdən razılıqlarını bildirən tərtərli qonaqlar buna görə ev sahiblərinə təşəkkür etmişlər.

Qeyd edək ki, tərtərlilərdən əvvəl layihədə Yevlax, Abşeron və Nizami rayonlarının eyni kateqoriyadan olan sakinləri iştirak etmişlər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Qazaxda Vətən müharibəsi əlilinə yeni ev tikilir

**44 günlük Vətən müharibəsində iştirak edən və qazanılan Qələbədə payı olan oğullarımızdan biri də Qazax rayonunun Qazaxbəyli kənd sakini, 3-cü dərəcəli Vətən müharibəsi əlili Fəqan Rəhimovdur.**

F.Rəhimov döyüş meydanında göstərdiyi qəhrəmanlığa görə Prezident İlham Əliyevin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", eləcə də "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bu yaxınlarda müharibə iştirakçısını ziyarət edərkən məlum olmuşdur ki, onun evi qəzalı vəziyyətdədir. Bu səbəbdən evin sökülərək yerində yenisinin tikilməsi qərara alınmış və qısa vaxt ərzində inşaat işlərinə başlanılmışdır. Artıq tikintinin xeyli hissəsində işlər başa çatmışdır. Yaxın vaxtda evin sahibinə təhvil verilməsi nəzərdə tutulur.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*



# "ARGOR-HERAEUS SA" şirkəti "AzerGold" QSC-yə növbəti dəfə müsbət rəy verib

**London Qiymətli Metallar Bazarı Assosiasiyasının "Məsuliyyətli təchizatçı" proqramı çərçivəsində İsveçrənin beynəlxalq nüfuzlu "ARGOR-HERAEUS SA" affinaj şirkəti "AzerGold" Qapalı Səhmdar Cəmiyyətində (QSC) müşahidələrinə dair yekun hesabatını təqdim edib.**




"AzerGold" QSC-nin qiymətli metalların saflaşdırılması və xarici bazarlarda satışı sahəsində əməkdaşlıq etdiyi İsveçrə şirkəti səhmdar cəmiyyətin fəaliyyətini beynəlxalq standartlar və şəffaflıq meyarlarına uyğun olaraq 5 funksional sahə - dağmədən əməliyyatları; keyfiyyətə nəzarət və hasilat üzrə proseslər; sağlamlığın qorunması, əməyin və ətraf mühitin mühafizəsi; layihələrin idarəolunması; hüquq, cari qanunvericilik tələbləri, idarəetmə və korrupsiyaya qarşı mübarizə; yerli əhali ilə fəaliyyət üzrə qiymətləndirib.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, yekun hesabatda "AzerGold" QSC-nin peşəkar komanda ilə istehsalat sahəsini və qiymətli metal filizi mədənlərini yüksək səviyyədə idarə etdiyi qeyd olunub, bütün fəaliyyət istiqamətləri üzrə hazırlanmış siyasət, qayda və prosedurların proseslərə uyğunluq səviyyəsi nəzərdən keçirilib. Həmçinin hesabatda korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində QSC-nin reallaşdırdığı genişmiqyaslı sosial və ekoloji layihələrdən razılıq ifadə olunub, iş prosesində ətraf mühitə zərər vura biləcək təhlükələrin qarşısının alınması və ya minimuma endirilməsi üçün milli qanunvericilik çərçivəsində bütün ağlabatan vasitələrdən istifadə edildiyinə dair qeydlər öz əksini tapıb.

Beləliklə, İsveçrə şirkəti fəaliyyətini beynəlxalq standartlar və şəffaflıq meyarlarına uyğun təşkil edən "AzerGold" QSC-yə növbəti dəfə müsbət rəy verib.

Bu il 18-20 iyul tarixlərində "ARGOR-HERAEUS SA" şirkətinin nümayəndə heyəti ölkəmizə səfər edərək, QSC-nin baş ofisində görüşlər keçirib, həmçinin Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsini ziyarət edib. Səfərin məqsədi sənədləşdirilmiş KYC (Know Your Customer - Müştərini Tanı) məlumatlarının əsaslandırılması və "AzerGold" QSC-nin əməliyyat proseslərinin beynəlxalq təcrübə əsasında qiymətləndirilməsi, dünya miqyasında əsas tələblərə - KYC və "Due Diligence" (hüquqi ekspertiza) prosedurlarına uyğun olaraq çoxpilləli yoxlamaların aparılması olub. Yalnız bütün tələblərə cavab verdiyi müəyyən edildikdən sonra şirkətə hasil etdiyi qiymətli metalları saflaşdıra və xarici bazarlarda satışını təşkil edə biləcəkləri barədə müsbət rəy verilir. Xatırladaq ki, "AzerGold" QSC-yə müvafiq müsbət rəy ilk dəfə 2017-ci ildə təqdim edilib.



# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*




# "Zirə"nin ilki uğurlu oldu

## Minifutbolçularımız Çempionlar Liqasında bürünc medala layiq görüldülər



Son illər Azərbaycanda idmanın müxtəlif sahələrində uğurlu nəticələr əldə edilməkdədir. Bunlardan biri də yeni yüksəliş mərhələsinə qədəm qoyan minifutbolumuzdur. Etiraf edilməlidir ki, ölkə rəhbərliyi tərəfindən idmana, o cümlədən futbola olan qayğı nəticəsində futbol ən kütləvi və ən çox sevilən idman növünə çevrilib. Bu prosesdə Azərbaycan Minifutbol Federasiyasının təqdirəlayiq fəaliyyəti xüsusi vurğulanmalıdır.

Təkcə onu demək kifayət edər ki, Azərbaycan Minifutbol Federasiyasının qısa zaman kəsiyində əldə etdiyi uğur, bəlkə də, bu sahədə ənənəsi olan böyük dövlətlərin onilliklər ərzində qazandıqları nailiyyətlərdən böyükdür. Buna misal kimi minifutbol üzrə milli komandamızın ötən il Slovakiyada təşkil edilən Avropa Çempionatında qitənin ən güclüsü adına layiq görülməsini göstərmək yetərlidir.

Elə bu günlərdə həmin uğura daha yenisi əlavə edilib. Belə ki, minifutbol üzrə Rumıniyada keçirilən Çempionlar Liqasında Azərbaycanı təmsil edən "Zirə" tarix yazıb. Komandamız 3-cü yer uğrunda görüşdə ötən ilin çempionu olan Rumıniya AEK-i ilə qarşılaşıb. 5:1 hesabı ilə qalib gələn "Zirə" bürünc medal qazanıb.

Dünən vətənə qayıdan "Zirə" Heydər Əliyev adına Beynəlxalq Hava Limanında təntənəli şəkildə qarşılanıb. "Zirə" klubunun prezidenti Taleh Nəsibov deyib ki, çempionatımızda 17 komanda mübarizə apardı və iki komanda Çempionlar Liqasına yollandı. "Birbaşa" və "Zirə" qitənin ən yaxşı turnirində mübarizə apardılar. Çempionlar Liqası keçirilən müddətdə müəyyən hadisələr oldu: "Bəzi səbəblərdən ilk 2 matçda uduzduq, həm də təcrübəsiz idik. Düşünürəm ki, gələn mövsüm daha yaxşı nəticələr əldə edə bilərik. Rumıniyanın AEK komandasını "Zirə" məğlub etdi, amma digər təmsilçimiz onlara uduzdu. Onlar ölkə çempionatının qalibidirlər. Növbəti mövsüm Çempionlar Liqası Bakıda keçirilə bilər. Avropa Minifutbol Federasiyasının rəhbərliyi ilə danışıqlar aparmışıq. Onlar dedilər ki, bunu müzakirə edib qərar verəcəyik. Federasiya rəhbərliyinə bildirdik ki, bizdə lazımi şərait var, çempionatı qəbul edə bilərik".

"Zirə" komandasının baş məşqçisi Elşad Quliyev isə deyib ki, Çempionlar Liqası komanda üçün əsl təcrübə oldu: "Matçlara çox yaxşı şəkildə hazırlaşmışdıq. "Zirə" ilk dəfə idi ki, Çempionlar Liqasında iştirak edirdi. Komandamıza qoşulan yeni futbolçularımız var idi ki, onlarla çox az işləmişdik. Bu səbəbdən bizim üçün qarşılaşmalar bir az çətin keçdi. İlk iki oyundan sonra toparlana bildik və uğur qazandıq".

Paytaxt təmsilçisinin kapitanı Seymur Məmmədov sevincini belə ifadə edib: "Bakıda yüksək səviyyədə təlim-məşq toplanışlarında iştirak etmişdik. Bu səbəbdən də özümüzə inanırdıq. Şükürlər olsun ki, nəticə əldə edərək Vətənə geri döndük".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Birinci Qarabağ müharibəsində itkin düşmüş Əli Hüseynovun nəşinin qalıqları Füzulidə torpağa tapşırılıb

Otuz il əvvəl Füzuli rayonu uğrunda gedən döyüşlərdə itkin düşən şəhid Hüseynov Əli Heydər oğlunun Edilli kəndində kütləvi məzarlıqda aşkarlanan nəşinin qalıqları Füzulinin Aşağı Yağlıvənd kəndində torpağa tapşırılıb.



AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, hökumət və ictimaiyyət nümayəndələri, rayon sakinləri, qazilər, şəhid ailələri, döyüş yoldaşları, media nümayəndələri iştirak ediblər.

Dəfn zamanı şəhidlərimizin ruhuna dualar oxunub və "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndirilib.

Şəhid Əli Hüseynovun nəşinin qalıqları Dövlət himninin sədaları altında torpağa tapşırılıb. Şəhidin nəşinin büküldüyü üçrəngli Azərbaycan bayrağı qardaşına təqdim olunub.

Hüseynov Əli Heydər oğlu 1968-ci ilin avqust ayında Füzuli rayonu Yuxarı Yağlıvənd kəndində dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə iştirak edib. 1993-cü ilin avqustunda Füzulidə gedən döyüşlər zamanı itkin düşüb. Ötən illər ərzində isə ailəsi ondan heç bir xəbər ala bilməyib.

Hüseynov Əli Heydər oğlunun nəşinin qalıqları keçən il Xocavənd rayonunun Edilli kəndi ərazisində tapılan 12 şəxsin basdırıldığı üçüncü kütləvi məzarlıqda aşkar edilib. Həmin məzarlıqda erməni vəhşiliyinə məruz qalan, məftil və kəndirlərdən istifadə edilməklə əl-ayağı bağlanaraq kütləvi şəkildə basdırılmış 12 insan qalığı tapılıb. Kəllə sümüklərində küt alət izləri, həmçinin güllə və iti alətin deşdiyi izlər müşahidə olunub. Bu faktlar onu göstərir ki, erməni qəsbkarları əsir götürdüyü azərbaycanlıları xüsusi zorakılıqla qətlə yetirib və kütləvi basdıraraq cinayət izlərini ört-basdır etməyə çalışıblar.

# 30 il əvvəl itkin düşən şəhid Əsəd Məmmədovun nəşinin qalıqları torpağa tapşırılıb





1993-cü ildə itkin düşən daha bir şəhidimiz Əsəd Məmməd oğlu Məmmədovun qalıqları 30 ildən sonra işğaldan azad edilmiş ərazilərdə qazıntı işləri aparılarkən tapılıb. Onun qalıqları Xocavənd rayonunun Edilli kəndi ərazisindəki kütləvi məzarlıqda aşkarlanıb.

AZƏRTAC xəbər verir ki, Birinci Qarabağ müharibəsində Füzuli rayonunun Kürdmahmudlu kəndində itkin düşən Əsəd Məmmədovun qalıqları dünən Ağstafa rayonunun Eynallı kəndində ailəsinə təhvil verilib.

Eynallı kənd qəbiristanlığında keçirilən vida mərasimində şəhidin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb. Əsəd Məmmədovun məzarına tər güllər düzülüb, əklillər qoyulub. Üçrəngli Azərbaycan bayrağı şəhidin oğluna təqdim olunub.

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Müdafiə Nazirliyinin, rayon ictimaiyyətinin nümayəndələri, sakinlər, qazilər iştirak ediblər.

# Gədəbəy istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 11-i saat 13:30-da Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonunun Cil yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Novoivanovka yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Bakıda və Abşeron yarımadasında yağış yağacağı gözlənilir

Azərbaycanda sentyabrın 12-nə gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-19°, gündüz 19-23° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Ramin Sabirliyə atası

**İLHAM İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin rəhbərliyi və kollektivi agentliyin əməkdaşı Elnur Əliyevə atası

**HƏMİDAĞA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**
**Tiraj 5519**
**Sifariş 2328**
**Qiyməti 40 qəpik**